

# Mehriban Əliyevanın təşəbbüsü İspaniyada mükafata layiq görülüb

*"LG Electronics" şirkətinin İspaniya üzrə baş ofisinin Madrid şəhərində yerləşən mənzil-qərargahında ətraf mühitin qorunmasına töhfə vermiş ölkələrin mükafatlandırılması mərasimi keçirilib. "LG Electronics" şirkətinin İspaniya üzrə baş ofisi Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə 2019-cu ildə Azərbaycanda elan...*

Səh.2

UNİKAL

№04 (2042) 29 yanvar 2021-ci il

Qiyməti 40 qəpik

Qurucusu: Asəf Rzayev

www.unikal.org

unikal-1@mail.ru



# Oqtay Şiraliyevin rüşvətə görə qandallanan kadrları...

**Şəhər və rayon mərkəzi xəstəxanalarının rüşvətə, korrupsiyaya görə həbs edilən direktorlarının çoxu məhz Səhiyyə naziri tərəfindən bu vəzifələrə təyin olunublar**

*Son aylarda Azərbaycanda şəhər və rayon mərkəzi xəstəxanaları direktorlarının həbsi ilə bağlı xəbərlər intensivləşib. Təkcə başa çatmaqda olan yanvar ayında iki belə xəbər yayıldı. Öncə uzun müddət Masallı Rayon Mərkəzi Xəstəxanasının direktoru vəzifəsində işləyən Nəzərov Cəlil Oruc oğlunun həmin tibb müəssisəsinin həkim-məsləhət komissiyasının sədri kimi vətəndaşlardan əlillik dərəcəsinin müəyyən edilməsi üçün rüşvət qismində müxtəlif məbləğlərdə pul vəsaiti alması barədə daxil olmuş vətəndaş müraciətləri əsasında Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən təxirəsalınmaz əməliyyat-axtarış tədbirləri keçirildiyi məlum oldu.*

Səh.8

Səh.13




# Hakim partiyada gözlənilməz kadr dəyişiklikləri olacaq

## "Oğurlanmış pullar bir cibdən başqa ciba transfer edilir"



*Vətən müharibəsindən sonra ölkədə korrupsiya və rüşvətxorluğa, vəzifəli şəxslərin qanunsuz əməllərinə qarşı mübarizə davam etdirilir. Eyni zamanda, kadr dəyişiklikləri istiqamətində addımlar atılmaqdadır. "Unikal" qəzetinə müsahibə verən Mili Cəbhə Partiyasının sədri, millət vəkili Razi Nurullayevlə bu məsələ ətrafında söhbətləşdik.*

Səh.4

## Nəcməddin Sadıkov vəzifəsindən azad edildi



*Müdafiə nazirinin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisi general-polkovnik Nəcməddin Sadıkov tutduğu vəzifədən azad olunub. Bu barədə Unikal.org-a Müdafiə Nazirliyinin Mətbuat Xidmətinin rəisi polkovnik Vaqif Dərgahlı bildirib:*

Səh.5

## BMT Qarabağa qiymətləndirmə missiyası göndərəcək - Zaxarova



*Rusiya beynəlxalq strukturları Dağlıq Qarabağda humanitar yardım fəaliyyətinə qoşulmağa çağırıb. "Unikal" xəbər verir ki, bunu Rusiya XİN-in rəsmi nümayəndəsi Mariya Zaxarova bildirib. Onun sözlərinə görə, hazırda Beynəlxalq Qırmızı Xaç Komitəsi Dağlıq Qarabağ və ona bitişik bölgələrdə fəal iş aparır.*

Səh.2

# Elza Xatunu, Şəbnəmi, Pərvizi biabır etdi: "Onlara dərs keçərəm"



***Əməkdar artist Elza Seyidcahan qalmaqallı açıqlamalar verib. Lent.az-ın canlı yayımında qonaq olan müğənni bir çox həmkarlarını tənqid edib:***

"Mən ara mahnıları oxumuram. Aran musiqilərini oxuyanlar var. Bayağı ifaçı var ki, istedadını göstərə bilmir. Məsələn Xatun Əliyeva özü üçün repertuar yaradıb. Amma bünövrəsindən onun musiqi savadı olsaydı, daha yaxşı olardı. Ara müğənnilərin içində özünə görə çalışır. Xatun Musiqili Teatrda aktrisa kimi sənətkar olardı. Amma belə sıradan müğənnidir.

Şəbnəm Tovuzlu da eyni Xatun kimidir. Məsələn Aşıq Samirə uşaqlıqdan üzərində çalışır. İndi də onun bəhrəsini görür. Xatun və Şəbnəm onsuz da belə olmalı idilər. Çünki təməldə musiqi savadları yoxdur. Hərənin bir zövqü var. Amma sənət başqa şeydir. Şəbnəmin güclü dəmirli səsi var, amma uşaq vaxtdan muğam öyrənsəydi, daha yaxşı olardı. Düzdür, insanlar var ki, onu dinləyir, zövq alır. Onların ifasına peşəkar bəstəkar kimi yanaşıram. Sabah bir festivala qatılmaları üçün savad lazımdır. Onların mahnılarına qulaq assam, məhv olaram. Məni bir həftə otaqda saxlayın, onların musiqisini qoyun, məhv olaram. Mən və mənim qismimdə olan insanları öldürmək istəsəniz, onların mahnısını verin. Bizi öldürmək üçün zəhərə, narkotikə, minaya ehtiyac yoxdur. Biz onları dinləsək, ya dəli olarıq, ya intihar edərik. Klassik əsərləri dinləyəndə isə ac da, susuz da qalmaq olar".

Pərviz Bülbülə ilə Türkan Vəlizadənin bir mahnısını bəyənirəm. Onlar Musiqili Teatrda aktyorluğu olsunlar. Onlar orada çalışsalar, biləcəklər ki, müğənnidirlər, yoxsa yox. Bütün bu ifaçılar məndən dərs öyrənmək istəsələr, onlara dərs keçərəm. Amma bilirəm ki, istəməzlər".

Qeyd edək ki, E.Seyidcahanın müsahibəsinin tam hissəsinə aşağıdakı videoda baxa bilərsiniz.

# "Hərənin dağ boyda dərdi var" - Zümrüd Qasımova

***"Bir neçə gündür saytları açıb dəhşətə gəlirəm. İntihar edənlərin sayı çoxalır. Çoxu da gənclərdir. Cavan canınıza niyə qıyırsınız?".***



Bu sözləri aktrisa, aparıcı Zümrüd Qasımova sosial şəbəkədə yazıb: "Sizin yerinizdə olub, yaşamaq üçün mübarizə aparan nə qədər insan var, bilirsiniz? Sağlam canınızla həyatda mübarizə aparmaq, xəyallarınızın, istəklərinizin arxasınca qaçmaq əvəzinə, ölümü seçmək? Vallah, bu dünyada sevgi iztirabı, pulsuzluq dərdi çəkmək çox gülməlidir. Neçə yataq xəstəsi bir dəfə ayağa qalxmaq arzusu ilə yaşayır? Neçə gözləri görməyən insanın qəlbi günəşi bir dəfə görmək xəyalı ilə döyünür? Neçə onkoloji xəstə hər gün yaşamaq üçün mübarizə aparır? Cavan canınıza qıymayın. İndi sizə faciə kimi görünən şeylərə zamanla güləcəksiniz. Sizin ölümünüz sizə elə gəlir ki, kiməsə cəzadır. Amma bu belə deyil... Zamanla o insan üçün unudulacaqsınız. Gəncliyinizə heyfiniz gəlsin. Hərənin dağ boyda dərdi var, amma yaşamaq və sevinmək üçün o qədər gözəlliklər var. İntihar çıxış yolu deyil".



# "Bu dünyada sevgi iztirabı, pulsuzluq dərdi çəkmək gülməlidir" - Zümrüd

***"Bir neçə gündür saytları açıb dəhşətə gəlirəm. İntihar edənlərin sayı çoxalır. Çoxu da gənclərdir. Cavan canınıza niyə qıyırsınız?".***

"Unikal" axşam.az-a istinadən bildirir ki, bu sözləri aktrisa Zümrüd Qasımova sosial şəbəkədə yazıb. Sənətçi son günlər baş verən intihar hadisələrindən danışıb:

"Sizin yerinizdə olub, yaşamaq üçün mübarizə aparan nə qədər insan var, bilirsiniz? Sağlam canınızla həyatda mübarizə aparmaq, xəyallarınızın, istəklərinizin arxasınca qaçmaq əvəzinə, ölümü seçmək? Vallah, bu dünyada sevgi iztirabı, pulsuzluq dərdi çəkmək çox gülməlidir. Neçə yataq xəstəsi bir dəfə ayağa qalxmaq arzusu ilə yaşayır? Neçə gözləri görməyən insanın qəlbi günəşi bir dəfə görmək xəyalı ilə döyünür? Neçə onkoloji xəstə hər gün yaşamaq üçün mübarizə aparır? Cavan canınıza qıymayın. İndi sizə faciə kimi görünən şeylərə zamanla güləcəksiniz. Sizin ölümünüz sizə elə gəlir ki, kiməsə cəzadır. Amma bu belə deyil... Zamanla o insan üçün unudulacaqsınız. Gəncliyinizə heyfiniz gəlsin. Hərənin dağ boyda dərdi var, amma yaşamaq və sevinmək üçün o qədər gözəlliklər var. İntihar çıxış yolu deyil".

# Anamın bu halına dözə bilmirəm" - Firuzə İbadova

***Əməkdar artist Firuzə İbadova "Xəbər-ətər" proqramında qonaq olub.***

"Unikal" axşam.az-a istinadən bildirir ki, müğənni efir zaman bikef olması ilə diqqət çəkib. O, aparıcının bunla bağlı suallarına belə cavab verib. İbadova sosial şəbəkədə tənqid edilməmək üçün efirdə istədiyi kimi davrana bilmədiyini etiraf edib:

"Sosial şəbəkədə yazılanlara görə heç nə etmək istəmirəm. Xahiş edirəm, belə etməyin. Artıq efirlərə getmək istəmirəm. Nəsə edəndə, başlayırlar tənqid yazmağa. Mahnı oxuyanda əl çalmaq istəyirsən, düşünürsən ki yazacaqlar niyə sevinirsiniz?".

Sənətçi daha sonra anası üçün narahat olduğunu söyləyib:

"Anamın 93 yaşı var. Onun üçün çox narahatam. Ana-bala mövzusu olan yerdə, kainatda hər şey boşdur. Onu evdə qoyub heç yerə gedə bilmirəm. Ona görə də dostlarım məndən inciyir. Valideyn itkisi ağır bir şeydir. Bütün günü otururam anamın yanında, əlləri şişib, ovuşdururam. Kaş bu dünyaya gəlməyəydim, anamın qocalıb getməyini görməyəydim. Ürəyimə ağrı verir".

# Mənzurə keçmiş həyat yoldaşından danışdı: "Barışmaq üçün yalvarır"

***"Kişilər bəhanələr axtarır. Hər şeyi qadının boynuna atmaq olmaz". Bu sözləri "Həmin Zaur" verilişində müğənni Mənzurə Musayeva deyib.***

O, keçmiş həyatından söz açıb: "Kişi var ki, gedir, günlərlə evə gəlmir. Ailənin bəzi parametrləri var, onu pozmaq olmaz. Övladım olmadığı üçün ayrılmışam. İndi həyat yoldaşım yalvarır ki, barışaq. Hamı məni yaxşı tanıyır, səhv hərəkətim yoxdur. Çörək pulumu qazanıb, otururam. İndi imkanım olsa, müğənnilikdən gedərəm".

# Fazil Məmmədovun holdinqi ətrafında müəmma

## Sabiq nazirin şirkətlər qrupu bazardan tamamilə çıxmaqdadır



***Sabiq Vergilər naziri Fazil Məmmədova məxsus olan ”Synergy Group” şirkətlər qrupu ilə bağlı maraqlı vəziyyət yaranıb. Belə ki, holdinqin aktivliyi xeyli aşağı düşüb. bir zamanlar müxtəlif istiqamətlərdə çoxsaylı layihələrin icraçısı olan holdinqin fəaliyyəti zəifləyib. Üstəlik, bir çox məqamlarla bağlı qeyri-müəyyənlik hökm sürür.***

Bunu ”Synergy Group”un rəsmi internet saytına göz ataraq da görmək mümkündür.

Saytın ”Son xəbərlər” bölümündə şirkətlər qrupuna dair ən son informasiya 2018-ci ilin avqustuna aiddir. Həmin xəbərdə “Synergy Group” MMC-də Qurban bayramına həsr olunmuş toplantının baş tutduğu bildirilir. Belə çıxır ki, sabiq nazirə məxsus holdinqin fəaliyyətində hardasa iki il yarımdır hər hansı yenilik yoxdur.

Başqa bir maraqlı məqam isə holdinqin ”Rəhbərlik” bölümünün boş buraxılmasıdır. Halbuki ”İcraçı direktorun müraciəti” bölümündə Rauf Axundov barədə məlumata rast gəlinir. Məlumatdan onun əmək fəaliyyətinə 1995-ci ildə başladığı, 1998-ci ildə Azərbaycan Beynəlxalq Universitetinin “Hüquqşünaslıq” ixtisası üzrə, 2008-ci ildə Azərbaycan Dövlət İqtisad Universitetinin “Maliyyə və kredit” ixtisası üzrə, 2016-ci ildə isə London Business Schoolu - “Master of Science in leadership and strategy” ixtisası üzrə bitirdiyi qeyd olunur.

Sonda isə ””Synergy Group” MMC kollektivi adından Rauf müəllimi salamlayır, ona gələcək fəaliyyətində uğurlar arzu edir və uzunmüddətli əməkdaşlığa ümid bəsləyirik!” yazılıb. Belə aydın olur ki, həmin material Rauf Axundov icraçı direktor vəzifəsinə gətirilərkən yerləşdirilib. Axundov isə həmin vəzifəyə 2019-cu ilin fevralında gətirilib. Müəmmalı olan məqam başqadır: 2020-ci ilin dekabrında məlumat yayılıb ki, Rauf Axundov vəzifəsindən azad edilib. Bəs onda niyə hələ də ”İcraçı direktorun müraciəti” bölümündə məhz onunla bağlı məlumat saxlanılır, üstəlik, məlumatın sonunda ona gələcək fəaliyyətində uğurlar arzu edildiyi və uzunmüddətli əməkdaşlığa ümid bəslənildiyi halda?

Halbuki Axundovdan sonra holdinqə rəhbərlik Elnur İsgəndərova həvalə olunub. Yeri gəlmişkən, E.İsgəndərov F.Məmmədovun yeznəsi olan Binəqədi Rayon İcra Hakimiyyətinin sabiq başçısı Xaləddin İsgəndərovun oğludur.

Maraqlıdır: belə olan halda holdinqin rəsmi saytının ”Rəhbərlik” bölümünün niyə boş buraxılıb, nə üçün ”İcraçı direktorun ümraciəti” bölümündə Axundovla bağlı material İsgəndərovla bağlı materialla əvəzlənməyib?

Daha bir ilginc nüans: ”Synergy Group”un saytında holdinqin ən son 2015-ci ilə dair illik hesabatı yerləşdirilib. Sonrakı illərin illik hesabatları isə yerləşdirilməyib. Bunun da niyəsi qaranlıq qalır.

Bütün deyilənləri ümumiləşdirdikdə isə aydın olur ki, bir neçə il öncəyədək, daha doğrusu, Fazil Məmmədov nazir postunu tutduğu dönəmlərdə sürətlə böyüyən ”Synergy Group”un eyni sürətlə kiçildiyi, zəiflədiyi barədə yazdıqlarımızda həqiqət payı kifayət qədər çoxdur.

Onu da bir daha vurğulayaq ki, 2010-cu ildə təsis edilən, dörd il öncə isə sabiq ”vergilər şefi”nə aid başqa bir şirkətlər qrupunu - ”ATA Holdinq”i də öz tərkibinə keçirən ”Synergy Group ”MMC-nin Fazil Məmmədovun nazir olduğu, necə deyərlər, ”qılıncının dalının da, qabağının da kəsdiyi vaxtlarda” yaradılan adıçəkilən şirkətlər qrupu istehsalat, tikinti, kənd təsərrüfatı, İKT, hotelçilik, təhsil, səhiyyə və bank işi sahələri üzrə iri yatırımlar edib. Holdinq qısa vaxtda Azərbaycanda fəaliyyət göstərən ən iri özəl investisiya şirkətlərindən birinə çevrilib, qeyri-neft sektorunda müxtəlif və inkişaf yönümlü şirkətlərdən ibarət holdinq kimi tanıdılıb. İki-üç il öncəyədək qrupa daxil olan şirkətlərin böyük əksəriyyəti Bakıdan kənarda yerləşməklə, regionların sosial-iqtisadi inkişafında mühüm paya malik olduğu bildirilirdi.

Bir neçə il əvvələdək Şirkətlər qrupunda rəsmi olaraq, 30-a yaxın, qeyri-rəsmi isə 60-dan çox şirkətin birləşdiyi deyilir, həmin şirkətlərin bəzisində xarici kapitalın da iştirak etdiyi vurğulanırdı. “Synergy Group”un tərkibindəki “Excelsior Hotel Shamkir”, “AzAqro” qızılgül istixanaları, Zəyəm Texnologiyalar Parkı, “Zəka” Gənclər Mərkəzi kimi bəzi şirkətlərin uzun illər Fazil Məmmədovun kurasiyasında olduğu Şəmkirdə yerləşdiyi vurğulanırdı.Onu da deyək ki, Məmmədov nazir postunu itirdikdən bir müddət sonra onun hələ də bu rayonda söz sahibi olduğuna dair iddialar vardı. Lakin qəzetimizə daxil olan son iddialarda sabiq ”vergi şefi”nin Şəmkirdəki təsir imkanlarının da azaldığı deyilir. Bildirilir ki, F.Məmmədov vəzifədən getdikdən sonra, hər nə qədər səhhətində ciddi problemlər yaşasa da, öz ”biznes imperiyasının” idarəçiliyini birbaşa üzərinə götürüb. Lakin bu da onun şirkətlər qrupunun əvvəlki illərlə müqayisədə kəskin zəifləməsinin qarşısını ala bilməyib.

“Synergy Group”un ard-arda külli miqdarda zərər açıqladıqdan sonra axır bir-iki ildə bazarda ümumiyyətlə görünməməsi bu deyilənlərin bariz isbatından başqa bir şey deyil...

***Elvin Rüstəmov***

# Proses Prezidentin istəklərinə uyğun davam edir - Deputat

***Azərbaycan ərazi bütövlüyünü bərpa etməklə yanaşı, Cənubi Qafqaz regionunda tamam fərqli geosiyasi konfiqurasiya yaradıb. Ermənistanın uzun illərdir davam etdirdiyi işğalçı, separatçı hərəkətləri bütövlükdə regional təhlükəsizlik sistemini yaratmağa imkan vermirdi. Artıq belə bir imkan yaranıb. Azərbaycan dövlətinin, ölkə başçısının iradəsi sayəsində Cənubi Qafqaz regionunun yeni geoiqtisadi və geosiyasi obrazı formalaşmaqdadır. Müasir dünyamızın başlıca trendi ondan ibarətdir ki, təhlükəsiziyi təmin etmək üçün etibarlı əməkdaşlıq sistemi qurulmalıdır. Bu sübut edir ki, Azərbaycan Prezidenti olduqca unikal təşəbbüs irəli sürüb. Region ölkələrinin əməkdaşlıq platformalarının yaradılması təhlükəsizliyin və dayanıqlı sülhün təmin edilməsinin ən etibarlı yoludur.***



Bunu “Unikal”a Milli Məclisin deputatı, siyasi şərhçi Elşad Mirbəşir deyib. Onun fikrincə, regionda marağı olan istənilən ölkə burada səmimi olaraq təhlükəsizliyin və sülhün qorunmasını istəyir: “Ona görə də, cənab Prezidentin təşəbbüsü region ölkələri tərəfindən müsbət qarşılanıb. Qonşu İranın da bu əməkdaşlıq platformasında yaxından iştirak etmək arzusu göz önündədir. Xarici siyasətində qonşularla, digər dövlətlərlə münasibətlər qurmaq prinsipinə əsaslanan Azərbaycanın maraqlarına cavab verir. Olkəmiz daim digər region ölkələri kimi İranla da münasibətlərini ən yüksək səviyyədə inkişaf etdirməyə çalışıb. Əməkdaşlıq istiqamətlərində genişlənməsində təşəbbüslərlə çıxış edib. Ölkəmizin təşəbbüsü ilə Azərbaycan-Rusiya-İran əməkdaşlıq platforması formalaşıb. Şimal-Cənub nəqliyyat dəhlizi yaradılıb. Dövlətimizin yaratmış olduğu imkanlar sayəsində Şimal-Cənub nəqliyyat dəhlizini Cənub-Qərb istiqamətində inkişaf etdirmək mümkün olub”.

Deputat bildirib ki, Azərbaycan regionda inkişafın, sülhün və təhlükəsizliyin təmin olunmasına real töhvə vermək istəyində və imkanında olan dövlətdir: “Torpaqlarımız işğaldan azad edildikdən sonra Azərbaycan-İran münasibətlərində də yeni bir mərhələ başlayıb. Azərbaycan-İran dövlət sərhədinin əhəmiyyətli hissəsi erməni işğalında idi. Artıq dövlət sərhədinə özümüz nəzarət edirik. Bu da əməkdaşlığın yeni imkanlarının yaranmasını təmin edir. Xudafərin su anbarının birgə istismarı məsələsi müzakirə olunur. Ayrıca olaraq Araz çayı üzərindən yeni körpünün salınması gündəmdədir. Bütün bunlar Azərbaycan-İran əməkdaşlığının daha sürətlə geniş istiqamətlərdə inkişafı üçün real əsaslar yaradıb. Bu əsasları Azərbaycan öz gücü, iradəsi ilə yaradıb”.

Elşad Mirbəşiroğlu qeyd edib ki, region ölkələrinin yeni əməkdaşlıq platformasının yaranması bütövlükdə bütün iştirakçıların maraqlarına cavab verir: “Nəqliyyat kommunikasiyaların sistemli şəkildə inkişaf etdirilməsi regionun geosiyasi, geoiqtisadi vəziyyətini əhəmiyyətli dərəcədə artıracaq. Bu ilk olaraq Türk dünyasında kommunikasiya əlaqələrində ciddi keyfiyyət dəyişikliyi edəcək. 10 noyabr bəyanatında Naxçıvanla Azərbaycan arasında nəqliyyat kommunikasiyanın yaranması öz əksini tapıb. 11 yanvar bəyanatı da regionda nəqliyyat, iqtisadi layihələrin icrasını özündə ifadə edir. Bu, Azərbaycanın strateji maraqlarına tam uyğundur. Proseslər Azərbaycan dövlətinin və Prezidentinin istəklərinə uyğun və ölkəmizin nəzarəti altında davam edir”.

# Hakim partiyada gözlənilməz kadr dəyişiklikləri olacaq

## YAP-ın idarəçiliyində təmsil olunan qocaman komandanın gənclərlə əvəzlənməsi planlaşdırılır

***Məlum olduğu kimi, Prezident İlham Əliyev idarəçilikdə gəncləri önə çəkərək mühüm kadr siyasəti həyata keçirməkdədir. Son bir neçə il ərzində baş verən kadr dəyişikliklərinə nəzər yetirsək görərik ki, yaşlı nəsil gənclərlə əvəzlənir. Bunun səbəbi kimi idarəçilikdə müasir texnologiya və modern üsluba keçid göstərilir.***

"Unikal" qəzetinin əldə etdiyi məlumata görə, hakim Yeni Azərbaycan partiyasının vitrininin də dəyişdirilməsi qərarı verilib. Belə ki, ölkədə həyata keçirilən kadr siyasəti hakim partiyanın iərarxiyasında da başlanması qərarlaşdırılıb. YAP-ın İdarə Heyətində, Siyasi Şurasında və dirgər strukturlarında yeni simaların, xüsusən də gənclərin önə çəkilməsi istiqamətində addımları atılacaq.



Hakim siyasətin yönləndiriciləri hesab edirlər ki, dövlətimizin gənclərin malik olduğu imkanlardan maksimum istifadə istiqamətində atdığı addımların davamlılığı qəbul olunan və uğurla icra edilən Dövlət proqramlarından da aydın görünür.

Xatırlayırsınızsa, Prezident İlham Əliyev iki gənc icra başçısını qəbul edərkən gəncləşmə siyasətinin vacib və davamedici olacağını bəyan etmişdi: "Siz gəncsiniz, birinizin 37, digərinizin 38 yaşı var. İndi Azərbaycanda gəncləşmə siyasəti aparılır. Bu, təbiidir, nəsillər dəyişir, yeni təfəkkürlü insanlar irəli çəkilir. Bu, təbii prosesdir və biz bu prosesdən kənarda qala bilmərik. Ancaq onu da bildirməliyəm ki, bu, kampaniya xarakteri almamalıdır. Çünki mənə məlumat gəlir ki, bəziləri bunu kampaniyaya çevirmək istəyirlər və sınanmış, təcrübəli, bir qədər yaşlı insanlara qarşı bu kampaniyanı təşkil etmək istəyirlər. Mən buna yol verməyəcəyəm. Mən bilirəm kim nəyə qadirdir, kimin hansı xidmətləri olub əvvəlki dövrdə və bu gün. Ona görə Azərbaycanda təcrübə ilə gənclərin dinamizmi arasında vəhdət yaradılmalıdır. Bunun sintezi sayəsində biz gözəl nəticələrə çata bilərik. Bir də ki, yaşlı nəsil öz təcrübəsini bölüşməlidir. Ona görə hər kəs bilsin ki, mən bu kampaniyaya yol verə bilmərəm. Müəyyən dərəcədə xidmət göstərmiş insanlar, əlbəttə ki, dövlət tərəfindən də qiymətləndirilir və biz kampaniyaya yol verməyəcəyik. Eyni zamanda, təbii ki, gəncləşmə prosesi getməlidir və burada söhbət təkcə yaşda deyil, təfəkkürdədir, işə yanaşmadadır".

Bu siyasətin YAP müstəvisinə keçəcəyini bildirən müsahibimiz deyib ki, partiyanın bütün strukturlarında çevik və operativ mexanizmlər qurulmalıdır, o cümlədən, gəncləşmə siyasəti hakim partiyadan da yan keçməməlidir: "Prezident İlham Əliyev çıxışında bütün sahələrdə islahatların vacibliyini vurğulayaraq, ictimai-siyasi həyatda da yeni ab-havanın gəlməsinin çox zəruri olmasını işarə edib. Bu mənada prezident Yeni Azərbaycan Partiyasında hansısa formada islahatların getməsinin zəruri olduğu qeyd etdi. Yeni Azərbaycan Partiyasında gəncləşmə çox önəmlidir. Gənclərin partiyanın İdarə Heyətində, Siyasi Şurasında, Qadınlar Şurasında təmsil olunmasına çox böyük ehtiyac var. Bu mənada yetişməkdə olan nəsil, xaricdə təhsil almış, geniş vizyona malik olan, dünyanın bugünkü tələblərinə cavab verə biləcək və onunla addımlaya bilən gənclərin Yeni Azərbaycan Partiyasında təmsil olunması vacibdir. Hesab edirəm ki, partiyamızın qurucuları, ulu öndərimizin silahdaşları yeniləşməni və nəsillərin estafetini çox normal qəbul etməlidirlər. Bugünkü gənclər Yeni Azərbaycan Partiyasının sıravi üzvü olmaq istəmirlər. Onlar istəyirlər ki, Yeni Azərbaycan Partiyasının İdarə Heyətində, Siyasi Şurasında funksionerlər, rayon təşkilatlarının sədrləri olsunlar. Ona görə də bu gənclərin Yeni Azərbaycan Partiyasında qarşısı açılmalıdır. Onlar partiyanın idarə olunmasında, rəhbər heyətdə təmsil olunmalıdırlar. Möhtərəm prezidentimizin də demək istədiyi bu idi. Bəzən insanlar deyir ki, partiyanın qurulmasında rolum olub, toxunulmazam, xüsusi statusa, imtiyazlara malikəm. Bu, doğru deyil. Hesab edirəm ki, biz varislik prinsipinə əməl etməliyik. Çünki Heydər Əliyev irsini yaşatmağımız bizim bir nömrəli vəzifəmizdir. Bu irsi gələcək nəsillərə çatdırmalıyıq. Bu mənada gənclər partiyamızda yüksək səviyyədə təmsil olunmalıdırlar ki, istədiyimizə nail olaq".

YAP-çı deputat Naqif Həmzəyev "Unikal"a açıqlamasında bildirib ki, Yeni Azərbaycan Partiyasında ümumilikdə gəncləşmə siyasəti həyata keçirilir. "Mən özüm də bir gənc olaraq, Yeni Azərbaycan Partiyasının Gəncə şəhər təşkilatına sədrlik edirəm. Gənclər təşkilatlarında da xeyli könüllülərimiz və gənclərimiz var. Gənclərlə işləyirik, bu sahədə çalışırıq. YAP-ın sıralarında çoxlu sayda gənc var. Bu gənclər xeyli mühüm vəzifələrdə təmsil olunurlar. Elə hakimiyyətdə yüksək vəzifələr tutan gənclərin, gənc nazirlərin hər biri də Yeni Azərbaycan Partiyasının üzvüdürlər. Yəni, hökumətdə həyata keçirilən gəncləşmə siyasəti birbaşa partiyaya da aiddir. Mən düşünürəm ki, gələcəkdə də bu sahədə işlər görüləcək", - deyə N.Həmzəyev bildirib.

***Z.Məmmədli***



# Mehriban Əliyevanın tapşırığı ilə Rəmiş xəstəxanaya yerləşdirildi

***Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın tapşırığı ilə xalq artisti Rafiq Hüseynov (Rəmiş) xəstəxanaya yerləşdirilib.***

Bu barədə Unikal.org-a sənətkarın həyat yoldaşı Güllü Hüseynova məlumat verib:

"Sağ olsun Mehriban xanım göstəriş verdi. Rəmiş Bakı Sağlamlıq Mərkəzinə gətirildi. Hazırda o, reanimasiyadadır. Səhhəti ilə bağlı mənə hələlik məlumat verilməyib."

***Famil Fərhadoğlu***

# "YAŞAT" Fondu ilə media rəhbərləri arasında görüş keçirilib

***Yanvarın 28-də Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək üçün yaradılan "YAŞAT" Fondu ilə media rəhbərləri arasında görüş keçirilib.***

"Unikal" xəbər verir ki, görüşdə "YAŞAT" Fondunun fəaliyyəti, görüləcək işlər, həmçinin elektron hökumət quruculuğu sahəsində media rəhbərlərinin çoxsaylı sualları cavablandırılıb və təklifləri dinlənilib.

Qeyd edək ki, Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək fondu - "YAŞAT" Fondu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 8 dekabr 2020-ci il tarixli Fərmanı əsasında yaradılıb.

Fondun məqsədi şəhid ailələrinin və hərbi əməliyyatlar nəticəsində əlilliyi müəyyən olunmuş şəxslərin sosial müdafiəsi sahəsində dövlət tərəfindən həyata keçirilən tədbirlərə əlavə dəstək verilməsi istiqamətində vətəndaş cəmiyyəti təşəbbüslərinin reallaşdırılması üçün müvafiq platformanın yaradılması, bu sahədə şəffaflığın, hesabatlılığın və ictimai nəzarətin təmin edilməsidir.

Həmçinin Fond Fərmanla müəyyən edilmiş şəxslərin sosial müdafiəsi sahəsində dövlət tərəfindən həyata keçirilən tədbirlərə əlavə dəstək verilməsi üçün şəffaf, effektiv və əlçatan platformanın formalaşdırılması məqsədilə təsis olunub.

Xatırladaq ki, "YAŞAT" Fonduna müraciət prosesini daha da asanlaşdırmaq, mütəmadi hesabatlar təqdim etməklə şəffaflığa nail olmaq məqsədi ilə yashat.gov.az portalı istifadəyə verilib.

Onu da qeyd edək ki, "ASAN xidmət"in bütün rayonlar üzrə ayrılmış qrupları tərəfindən şəhid ailələrinə dair müvafiq məlumatlar tam toplanıb. Vətən müharibəsində yaralananlarla bağlı müraciətlər isə elektron qaydada Fondun rəsmi internet səhifəsi üzərindən qəbul edilir.

Qeydiyyat zamanı yaranan çətinlikləri aradan qaldırmaq, suallara aydınlıq gətirmək məqsədi ilə Fondun 8110 "Çağrı" Mərkəzi fəaliyyət göstərir.

Eyni zamanda "YAŞAT" Fonduna SMS vasitəsilə ianə etmək imkanı yaradılıb. Bütün mobil operatorlardan 8110 qısa nömrəsinə SMS göndərməklə Fonda 1 AZN-dən 50 AZN-dək ianə etmək mümkündür. SMS-in mətnində 1, 3, 5, 10, 20, 50 rəqəmlərini yazmaqla müvafiq olaraq, 1AZN, 3 AZN, 5 AZN, 10 AZN, 20 AZN və 50 AZN ianə etmək olar.

# Mehriban Əliyevanın təşəbbüsü İspaniyada mükafata layiq görülüb

***"LG Electronics" şirkətinin İspaniya üzrə baş ofisinin Madrid şəhərində yerləşən mənzil-qərargahında ətraf mühitin qorunmasına töhfə vermiş ölkələrin mükafatlandırılması mərasimi keçirilib.***

"LG Electronics" şirkətinin İspaniya üzrə baş ofisi Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə 2019-cu ildə Azərbaycanda elan olunmuş "Nəsimi ili" çərçivəsində bir gündə 650 min ağacın əkilməsi aksiyasını yüksək qiymətləndirərək, buna görə ölkəmizi mükafata layiq görüb. Təşkilatçılar Azərbaycan tərəfindən planetimizin yaşıllaşdırılmasına və karbon-dioksid qazının həcminin azaldılmasına verilən töhfəni təqdir ediblər.



Sözügedən mükafatı ölkəmiz adından qəbul edən səfir A.Məhərrəmov mükafata görə "LG Electronics" şirkətinin İspaniya üzrə baş ofisinin prezidenti Xayme de Xaraisə təşəkkür edib. O, respublikamızda ətraf mühitin, fauna və flora ehtiyatlarının qorunmasının əsas prioritet istiqamətlərdən biri olduğunu qeyd edib. Tədbirin təşkilatçılarına və iştirakçılara Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə ölkəmizdə bu sahədə həyata keçirilən layihə və aksiyalar barədə ətraflı məlumat verilib. Bu nəcib aksiyaların qlobal iqlim dəyişikliyinin təsirlərinin azaldılmasına, ölkəmizdə, eyni zamanda, dünyada yaşıllığın artmasına verdiyi əhəmiyyətli töhfədən bəhs edilib.

Mehriban Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondu tərəfindən hələ 2007-ci ildən etibarən ölkəmizdə ətraf mühitin mühafizəsi məqsədilə "Hərəmiz bir ağac əkək!" aksiyasının həyata keçirilməyə başlandığı qeyd olunaraq, sözügedən layihə çərçivəsində ölkə ərazisində bir milyondan çox yeni ağacın əkildiyi diqqətə çatdırılıb.

Respublikamızda ətraf mühitin qorunması ilə bağlı geniş məlumatlandırma kampaniyası aparan, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə 2011-ci ildə fəaliyyətə başlamış IDEA (Ətraf Mühitin Mühafizəsi naminə Beynəlxalq Dialoq) İctimai Birliyinin ölkəmizin yaşıllaşdırılmasında əhəmiyyəti rolundan bəhs olunaraq, IDEA-nın BMT-nin Ətraf Mühit Proqramı (UNEP) ilə birlikdə "Yaşıl həftə" təşəbbüsünün uğurla həyata keçirildiyi, IDEA tərəfindən müxtəlif ölkələrdən olan gənc ekoloqların şəbəkələşməsinin təmin edildiyi diqqətə çatdırılıb.

Tədbir zamanı Çili və Çex Respublikası da ətraf mühitin qorunmasına verdikləri töhfəyə görə müvafiq mükafata layiq görülüblər.

# Prezidentin yaratdığı Komissiyanın iclası keçirildi

***Azərbaycan Respublikası Prezidentinin "Bərpaolunan enerji mənbələrindən istifadə sahəsində pilot layihələrin həyata keçirilməsi tədbirləri haqqında" 2019-cu il 5 dekabr tarixli Sərəncamı ilə yaradılmış Komissiyanın beşinci iclası olub.***

Energetika Nazirliyindən "Unikal"a verilən məlumata görə, energetika naziri Pərviz Şahbazovun sədrliyi ilə videokonfrans formatında keçirilən iclasda Komissiyanın dördüncü iclasından ötən dövr ərzində pilot layihələrin icrası istiqamətində görülən işlər nəzərdən keçirilib, "Qoyuluş gücü 240 meqavat



olan külək elektrik stansiyasının tikintisi ilə bağlı pilot layihənin həyata keçirilməsi tədbirləri haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 28 dekabr tarixli Sərəncamının icrasının təmin edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 29 dekabr tarixli nömrəli Sərəncamının icrasının gedişi müzakirə olunub.

Komissiya sədri Prezident İlham Əliyev tərəfindən ölkəmizdə bərpaolunan enerji mənbələrindən istifadənin genişləndirilməsi ilə bağlı irəli sürülmüş vəzifələrin icrası məqsədilə ölkəmizdə külək enerjisi sahəsində özəl investisiya hesabına ilk pilot layihənin həyata keçirilməsi üçün "ACWA Power" şirkəti ilə müvafiq qurumlar arasında imzalanmış müqavilələrin əhəmiyyətini vurğulayıb.

Daha sonra iclasın gündəliyinə uyğun olaraq, komissiya üzvləri tərəfindən torpaqların istifadəsi və imzalanmış müqavilələrlə əlaqədar müvafiq qanunvericilik aktlarına dəyişiklik, investisiya təşviqi sənədi, imzalanmış müqavilələr üzrə öhdəliklərə dair müvafiq tədbirlərin həyata keçirilməsi, lisenziya və icazələrin alınması, eləcə də digər istiqamətlər üzrə aidiyyəti qurumlarla birgə görülmüş işlər və həyata keçiriləcək növbəti addımlar barədə məlumat verilib.

Eyni zamanda, Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkəti ilə qoyuluş gücü 230 meqavat olan günəş elektrik stansiyası pilot layihəsi üzrə danışıqların gedişi barədə məlumat verilib, müvafiq layihə sənədləri üzrə müzakirələrin son mərhələdə olduğu, yaxın gələcəkdə yekunlaşdırılacağı diqqətə çatdırılıb.

Videokonfransda Energetika, İqtisadiyyat, Maliyyə, Ədliyyə, Ekologiya və Təbii Sərvətlər, Fövqəladə Hallar nazirliklərinin, Şəhərsalma və Arxitektura Komitəsinin, Mərkəzi Bankın, "Azərenerji" və "Azərişıq" ASC-lərin nümayəndələri iştirak ediblər.

Baş redaktor:
Zaur Əhməd

"Turanbank" ASC Binəqədi filialı.
h/h AZ74TURA41040011963500110944
M/h AZ26NAB01350100000000027944
Kod: 50462
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:2500

# "Baku Steel Company"nin rəhbəri həbs EDİLDİ

**"Baku Steel Company"nin rəhbəri Rasim Məmmədov həbs edilib.**

Unikal.org-un əldə etdiyi məlumata görə, bir müddət əvvəl Rasim Məmmədovun rəhbəri olduğu "Baku Steel Company"də yoxlamalara başlanıb. Aparılan yoxlama nəticəsində qanunsuzluqlar aşkar edilib və R. Məmmədov həbs olunub.

# BMT Qarabağa qiymətləndirmə missiyası göndərəcək - Zaxarova

***Rusiya beynəlxalq strukturları Dağlıq Qarabağda humanitar yardım fəaliyyətinə qoşulmağa çağırıb.***

"Unikal" xəbər verir ki, bunu Rusiya XİN-in rəsmi nümayəndəsi Mariya Zaxarova bildirib.

Onun sözlərinə görə, hazırda Beynəlxalq Qırmızı Xaç Komitəsi Dağlıq Qarabağ və ona bitişik bölgələrdə fəal iş aparır.

Lavrov və Borell Qarabağdan danışacaqlar"BMT sisteminin ixtisaslaşmış qurumlarına gəlincə, təşkilat rəhbərliyi Azərbaycan və Ermənistan tərəfi ilə təmasdadır, Dağlıq Qarabağa hərtərəfli qiymətləndirmə missiyasının göndərilməsi üçün danışıqlar aparır.

Rusiya BMT-nin İrəvan və Bakı ilə humanitar məsələlərdə əməkdaşlığını dəstəkləyir. Moskva özü də Qarabağdakı vəziyyətin yaxşılaşdırılmasına töhfəsini verir", - deyə Zaxarova əlavə edib.

# Elton Məmmədova yeni vəzifə verildi

***Milli Məclisin keçmiş deputatı, texnika elmləri doktoru Elton Məmmədov AMEA-nın Radiasiya Problemləri İnstitutuna baş direktor təyin edilib.***

Unikal.org-un məlumatına görə, AMEA-nın Radiasiya Problemləri İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Oqtay Səmədov və ümumi işlər üzrə direktor müavini Hökmən Mahmudov işlərində yol verdikləri ciddi nöqsanlara görə vəzifələrindən azad ediliblər.

O, bu təyinata qədər AMEA-nın İşlər idarəsinin müdiri olub.

# Yoluxanların sayı azaldı

***Azərbaycanda bu gün koronavirus infeksiyasına 209 yeni yoluxma faktı qeydə alınıb, 437 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb.***

"Unikal" xəbər verir ki, bu barədə Nazirlər Kabineti yanında Operativ Qərargah məlumat yayıb.

Son sutkada 8 nəfər "COVID-19"dan vəfat edib.

# Qubadlıda mina və partlamamış hərbi sursatlar aşkarlanıb

***İşğaldan azad olunmuş ərazilərimizin minalardan təmizlənməsi işləri davam etdirilir.***

Unikal.org xəbər verir ki, Azərbaycan Minatəmizləmə Agentliyi tərəfindən Qubadlı rayonu, Xanlıq kəndi ərazisində əkin sahəsində düşmən tərəfindən basdırılmış minalar və səpələnmiş partlamamış hərbi sursatlar aşkarlanıb.

# Mərkəzi Bankdan problemli kreditlərlə bağlı açıqlama

***2021-ci ilin yanvar ayının 1-nə Azərbaycanda vaxtı keçmiş kreditlərin həcmi 893,1 mln. manat təşkil edib ki, bu da illik müqayisədə 29,8% azdır.***

Unikal.org Azərbaycan Mərkəzi Banka (AMB) istinadən xəbər verir ki, yanvarın 1-nə ölkədə problemli kreditlərin ümumi kredit portfelindəki payı 6,15% təşkil edib. Bu, 2015-ci ilin aprel ayından bəri (6,10%) ən aşağı göstəricidir. Bu müddət ərzində problemli kreditlərin payının maksimumu 2017-ci ilin noyabr ayında qeydə alınıb (ümumi portfelin 15,46%-i). Qeyd edək ki, problemli kreditlərin 26,8%-i xarici valyutadadır.

**ELAN**

**Gədəbəy rayon Çaldaş İƏD- in Səbədkeçməz kənd sakini Qulyev Vahid Qələbə oğluna məxsus hərbi bilet itdiyi üçün etibarsız sayılır.**

**ELAN**

**Abşeron rayonu, Novxanı kəndi ərazisində yerləşən 3 sot torpaq sahəsinin Qasımova Günay Kamal qızının adına verilmiş mülkiyyət haqqında çıxarışı (Seriya XH 1257864) itdiyi üçün etibarsız sayılır.**

# Prezident yenidən tikilən məktəblərə baş çəkdi



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 28-də paytaxtın Sabunçu rayonunda yenidən inşa olunan 90 saylı və Suraxanı rayonunda 97 saylı orta məktəblərdə yaradılan şəraitlə tanış olub.***

Prezident İlham Əliyev əvvəlcə Sabunçu rayonunun Ramana qəsəbəsində yerləşən 90 saylı məktəbdə yaradılan şəraitlə tanış oldu.

Dövlətimizin başçısına məlumat verildi ki, bu təhsil ocağının 1939-cu və 2002-ci illərdə inşa edilən iki korpusu sökülərək onların yerində 960 şagird yerlik yeni korpus tikilib. Məktəbin müasir tədris avadanlığı ilə təchiz olunan yeni korpusunda 40 sinif, 2 informatika, 4 əmək təlimi otağı, hərbi, musiqi kabinetləri, kimya, fizika, biologiya laboratoriyaları, kitabxana, idman və akt zalları, 2 yeməkxana yaradılıb. Bu təhsil ocağında 2006-cı ildə inşa edilən 288 şagird yerlik tədris korpusu və idman zalı da əsaslı təmir edilib.

Məktəb üçün yeni qazanxana, nasosxana, hər birinin tutumu 100 kubmetr olan 2 yeraltı su anbarı inşa edilib, həyətyanı sahədə abadlaşdırma, işıqlandırma və yaşıllaşdırma işləri görülüb.

Prezident İlham Əliyev Bakının Suraxanı rayonunun Əmircan qəsəbəsində yerləşən 97 saylı orta məktəbdə yaradılan şəraitlə də tanış oldu. Məlumat verildi ki, təhsil ocağının 1937-ci və 1970-ci illərdə inşa edilən iki korpusu sökülüb. Onların yerində 264 şagird yerlik dördmərtəbəli yeni müasir korpus tikilib. Eyni zamanda, 2007-ci ildə ibtidai siniflər üçün inşa edilən korpus əsaslı təmir olunub. Yeni tikilən və əsaslı təmir edilən korpuslarda zəruri tədris avadanlığı və vəsaiti ilə təchiz olunmuş sinif otaqları, fənn kabinetləri, laboratoriyalar, kitabxana, yeməkxana, idman və akt zalları var.

Həyətyanı sahəsində geniş abadlaşdırma, işıqlandırma və yaşıllaşdırma işləri aparılan məktəb üçün yeni qazanxana, nasosxana, və yeraltı su anbarları inşa edilib.

Qeyd edək ki, məktəblərin tikintisi və əsaslı təmiri Azərbaycanda həyata keçirilən sosial infrastruktur layihələri içərisində xüsusi yer tutur. Çünki, təhsil sahəsində keyfiyyət dəyişiklikləri üçün sistemli yanaşma var və maddi-texniki bazanın təkmilləşdirilməsi yenidənqurma işləri ilə paralel aparılır.

Görülən işlər bir daha sübut edir ki, hətta pandemiyanın dünya, o cümlədən Azərbaycan iqtisadiyyatına təsirlərinə baxmayaraq, ölkəmizdə heç bir sosial layihə təxirə salınmır.

# "Ermənilər Şuşadakı qəbiristanlıqları da dağıdıblar" - Şöbə müdiri

***"Yuxarı Gövhərağa məscidinin zirzəmisindən Şuşa Tarix-Diyarşünaslıq Muzeyinə məxsus eksponatlar tapdıq. Şəhər işğaldan azad olunanda ermənilər qaçdıqları üçün onları daşıyıb aparmaq imkanları olmayıb".***

Bunu Şuşa şəhər mədəniyyət və turizm şöbəsinin müdiri Zahid Abbasov deyib. Onun sözlərinə görə, ermənilər Şuşada dövlət tərəfindən mühafizə olunan 248 tarixi abidəni məhv ediblər.

"Üzeyir Hacıbəyovun və Xan Şuşinskinin evlərinin ancaq bünövrəsi qalıb. Əbdürrəhim bəy Haqverdiyevin, Nəcəf bəy Vəzirovun və Mir Mövsüm Nəvvabın evini düzəngaha çeviriblər. Xan qızı Natəvanın mülkindən ancaq divar qalıb.

O vaxtı Şuşa Tarix-Diyarşünaslıq Muzeyi Yuxarı Gövhər ağa məscidində yerləşirdi. 1991-ci ildə biz muzeyi boşaldıb, onu məscid kimi xalqın istifadəsinə verdik. 20 yanvarda şəhər camaatı ilk namazı qıldılar. Muzeyin eksponatlarını məscidin zirzəmisinə yığmışdıq. Şuşa 1992-ci ildə işğal olunanda muzeyin eksponatlarını zirzəmidən çıxara bilmədik. Şəhər azad olunandan sonra həmin eskponatları oradan tapanda çox sevindim. Ermənilər qaçdıqları üçün onları daşıyıb aparmaq imkanları olmamışdı".

Şöbə müdiri Şuşaya aid 1200-ə yaxın eksponat topladığını söyləyib:




"Qondarma rejimin tarix muzeyinə baş çəkdim. Bizə məxsus eksponatları orada gördüm. Daha sonra Şuşadakı evləri bir-bir gəzib 1200-ə yaxın eksponat topladım. Onların arasında bizə məxsus 78 qədimi xalça var. Digərləri isə tarixi əşyalardır.

Şuşada qəbiristanlıqlar da dağıdılıb. Atamın məzarı Cıdır düzündə Mir Mövsüm Nəvvabın məzarının yanında idi. Hər ikisinin baş daşını söküb aparıblar. İndi həmin qəbiristanlığı böyürtkən kolluğu basıb.

Məndə olan məlumata görə, Xan qızı Natəvanın Ağdamda yerləşən məzarını da söküblər. Mən belə yırtıcı, murdar, vəhşi xalqa rast gəlməmişəm. Mənim ölümün sümüyü sənin nəyinə lazımdır?

30 il Şuşada yaşayıblar, bir yenilik etməyiblər, təmizlik işləri aparmayıblar. Ancaq dağıtmaqla məşğul olublar. Şuşada 17 məhəllə olub. Hər məhəllənin öz məscidi, hamamı, bulağı, təndiri var idi. O vaxtı hansısa məhəllədə su olmayanda həmin məhəllənin kişilərinə pis baxırdılar. Deyirdilər, sən necə kişisən ki, sənin məhəllələndə bulaq, su yoxdur. Ermənilər bulaqları da qurudublar. Seyidli, Qurdlar, Culfalar məhəlləsində bulaq qalmayıb. Mamayı məhəlləsindəki bulağın üstünə xaç qoyublar. "Şirin su" adlı yeraltı hamam dağıdılsa da, onu bərpa etmək mümkündür. Gələcəkdə bu istiqamətdə işlərimiz çoxdur".



# Qanunsuz beynəlxalq pul köçürmələri ilə məşğul olan şəxs həbs edildi

***Ölkəmizdəki azad və rəqabətli biznes mühitindən sui-istifadə edən kölgə iqtisadiyyatı subyektləri və valyuta möhtəkirlərinin qanunsuz əməllərinə qarşı mübarizə istiqamətində prokurorluq orqanlarının ardıcıl tədbirləri davam etdirilir.***

Bu barədə Unikal.org-a Baş Prokurorluğun Mətbuat xidmətindən məlumat verilib. Bildirilib ki, belə tədbirlərdən biri kimi, Hüseynov Şahüseyn Qurban oğlunun qanunvericiliklə müəyyən edilmiş qaydada dövlət qeydiyyatına alınmadan və lisenziya almadan, beynəlxalq pul köçürmələri və sair qanunsuz maliyyə əməliyyatları ilə məşğul olmasına dair daxil olan məlumat əsasında həyata keçirilmiş təxirəsalınmaz əməliyyat-axtarış tədbirləri nəticəsində Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müvafiq maddəsi ilə cinayət işi başlanıb.

Aparılan əməliyyat-istintaq tədbirləri ilə Şahüseyn Hüseynovun 2017-ci ildən etibarən Bakı şəhəri ərazisində icarəyə götürdüyü ofisdə faktiki olaraq bank fəaliyyəti ilə məşğul olaraq pul vəsaitlərinin müəyyən faizi məbləğində xidmət haqqı müqabilində qanunsuz olaraq ayrı-ayrı şəxslərdən qəbul olunması və həmin şəxslərin sifarişi ilə üçüncü şəxslərə verilməsi üzrə xidmət göstərilməsindən ibarət sahibkarlıq fəaliyyəti göstərməsinə, xarici dövlətlərdə yaşayan şəxslərlə qabaqcadan əlbir olaraq, ayrı-ayrı şəxslərdən aldığı müxtəlif məbləğlərdə pul vəsaitini xarici dövlətlərə və əksinə istiqamətdə göndərməsinə və bu yolla ümumilikdə xüsusilə külli miqdarda pul vəsaitini gəlir qismində əldə etməsinə əsaslı şübhələr müəyyən edilib.

İş üzrə Şahüseyn Hüseynovun icarəyə götürdüyü ofisdə, o cümlədən yaşayış və digər aidiyyəti ünvanlarda aparılan axtarışlar zamanı 248 min ABŞ dolları və 1.450 manat məbləğində pul əskinasları, pul vəsaitlərinin köçürülməsinə dair qara mühasibatlıq sənədləri və iş üzrə əhəmiyyət kəsb edən digər sübutlar aşkar edilərək götürülüb.

Toplanan ilkin sübutlarla Şahüseyn Hüseynov Cinayət Məcəlləsinin 192.3.2-ci maddəsi (xüsusilə külli miqdarda gəlir əldə etməklə törədilən qanunsuz sahibkarlıq) ilə təqsirləndirilən şəxs qismində cəlb edilərək, barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

"Hazırda Şahüseyn Hüseynovun digər qanunsuz hərəkətlərinin aşkar edilməsi, valyuta mübadiləsi ilə bağlı maxinasiyalarda iştirak edən digər şəxslərin müəyyənləşdirilməsi və vurulan ziyanın tam həcminin müəyyən edilməsi istiqamətində tədbirlər davam etdirilir", - Mətbuat xidmətindən bildirilib.

# Nazirlik vətəndaşların qəbulunu dayandırır

***Ölkə ərazisində xüsusi karantin rejiminin müddətinin uzadılması barədə Nazirlər Kabinetinin müvafiq qərarına əsasən, Təhsil Nazirliyinin Vətəndaşların Qəbulu Mərkəzi 1 aprel 2021-ci il tarixinədək fəaliyyətini dayandırır.***

Nazirlikdən "Unikal"a bildirilib ki, bu müddətədək vətəndaşlar Təhsil Nazirliyinin Telefon Məlumat Mərkəzinin 146-1 nömrəli telefonuna zəng etməklə və ya nazirliyin rəsmi saytı (https://edu.gov.az/az/contacts/appeal) vasitəsilə müraciət edə bilər, yaxud nazirliyin elektron resurslarında (https://edu.gov.az, https://ict.edu.az) təqdim edilən müxtəlif xidmətlərdən yararlana bilərlər.

Təhsil Nazirliyinin rəsmi məlumatlarını nazirliyin rəsmi saytı, həmçinin sosial şəbəkələrdəki səhifələrindən (https://www.facebook.com/tehsil.gov.az, https://twitter.com/tehsilgovaz, <https://www.instagram.com/edugovaz/>, https://www.youtube.com/user/tehsilgovaz, @edugovaz) izləmək tövsiyə edilir.

# "Oğurlanmış pullar bir cibdən başqa cibə transfer edilir"

## Razi Nurullayev: "Onları ittiham edənlər, ittihamdan məhkəməyə qədər soğan kimi soyurlar, oğurladıqlarının yarısını alıb öz ciblərinə qoyurlar və onlar da tez zamanda azadlığa buraxılırlar"

***Vətən müharibəsindən sonra ölkədə korrupsiya və rüşvətxorluğa, vəzifəli şəxslərin qanunsuz əməllərinə qarşı mübarizə davam etdirilir. Eyni zamanda, kadr dəyişiklikləri istiqamətində addımlar atılmaqdadır. "Unikal" qəzetinə müsahibə verən Mili Cəbhə Partiyasının sədri, millət vəkili Razi Nurullayevlə bu məsələ ətrafında söhbətləşdik.***

***-Razi bəy, korrupsiya və rüşvətxorluğa qarşı mübarizə, eləcə də kadr dəyişiklikləri davam edir. Sizcə, islahat çərçivəsində həyata keçirilən tədbirləri qaneedici saymaq olarmı?***

-Görülən tədbirləri yüksək qiymətləndirirəm, amma qənaətbəxş hesab etmirəm. Məni bu nəticəyə gəlməyə vadar edən məsələ kütləvi narazılıqların artması, əvvəlki aylar və illərlə müqayisədə sosial şəbəkələr, bloqlar, ayrı-ayrı sadə narazı vətəndaşlar tərəfindən səslləndirilən və paylaşılan problemlərin çoxalmasını müşahidə etməyimizdir. Belə bir deyim var: dəyirman işin görür, çax-çax baş ağrıdır. Bilirsinizmi, məndən çox icra hakimiyyətlərini tənqid edən bəlkə də olmayıb. Indi etmirəm, çünki, onlar az qala səlahiyyətsiz quruma çevriliblər. Onları ağac kimi yonub, çılpaq buraxıblar. Təbii ki, mən icra hakimiyyəti başçılarının nə vəkiliyəm, nə də müdafiəçisi. Sadəcə, gördüyüm, müşahidə etdiyim həqiqətləri deyirəm və bilirəm ki, problemlərin kökü yerlərdə deyil, uzanıb Bakıya qədər çatır. Hər şey oradan başlayır. Bir neçə icra başçısı, xəstəxana müdiri, bələdiyyə sədri, icra nümayəndəsi, bir nəfər nazir müavinə bərabər şəxs və digərləri həbs edilib. Dəyişiklik varmı? Əminliklə deyirəm ki, ciddi dəyişiklik yoxdur. İstəyirsən bundan sonra 10 nəfər icra başçısını da tut, heç nə dəyişməz. İcra başçılarının iş prinsipi olub, onlara deyilib ki, "ye və yedizdir". Əgər bu sistemin yalnız icra hakimiyyətləri tərəfindən "ye" hissəsi olsaydı, vəziyyət kardinal dəyişərdi. Hələ də "yedizdir" hissəsi qalır. Digər tərəfdən, icra başçıları kiçik fiqurlardır. Onlar o qədər özbaşına da deyillər. Ölkə düşüb icra hakimiyyətlərinin üstünə ki, ölkəni sizdən başqa dağıdan yoxdur. İcra hakimiyyətlərinin də o qədər də səlahiyyətləri qalmayıb. Hər bir idarə yerli şöbəsinə müdiriyyəti özü müəyyən edir və heç icra hakimi ilə məsləhətləşmir də. Bəs icra hakimi o zaman onlar üzərində necə idarəetmə qursun? Az qala icra hakimiyyətləri təmizlik qurumuna icra hakimiyyətlərini, icra başçılarını bu şəkildə nüfuzdan salmağı çox təhlükəli hesab edirəm. İcra hakimiyytinin başçısını hörmətdən salandan sonra ona kim hörmət qoyacaq? Adi bir vətəndaş gələcək və ona kəllə atacaq ki, sən mənə xidmət etməlisən, niyə mənim cibimdə sosial kart yoxdur? Niyə qazım, suyum gəlmir? Yerli icra hakimiyyəti orqanlarında "Vətən müharibəsi iştirakçıları və şəhid ailələri ilə işin təşkili şöbəsi" yaradılıb. Bu şöbənin maliyyəsi yox, səlahiyyəti yox. İcra hakimiyyəti strukturunda ixtisar edilərək yeni şöbəyə iki nəfər təyin ediləcək. Onlar da problemləri götürüb başçının yanına gələcəklər. Nə dəyişəcək? Onsuz da birinci müavin və digər şöbələr bunu başçıya deyirdi. Gündə on dəfə, indi yeni şöbə 11-ci dəfə deyəndə məsələ həll olunacaq? Neçə "qaçqınkom" var idi, elə bir struktur, yaxud da müvafiq nazirliyin tərkibində maliyyəsi, səlahiyyəti olan analoji qurum formalaşdırılmalı, "Yaşat" fondu da onun tərkibində olmalı idi. Bu qədər dağınıqlıq olmaz. İcra hakimiyyətlərinə baxışımı dəyişən digər məsələ isə budur: Bakıdan, xaricdən saysız-hesabsız nümayəndələr rayonlara göndərilir və onlara da xərcləri qarşılamaq tapşırılır. Bununla bağlı rayonların xərc smetasında bölmə varmı? Elə icra hakimiyyətləri bilirəm ki, onların il ərzində gəlib-gedənləri qarşılamaq, yerləşdirmək, yola salmaq və xoşbəxt etmək üçün 30 min manatdan 80 min manata qədər xərci çıxır. Bu, sadəcə "qonaqpərvərlik" xərcidir. Başqa "hörmət", "paket" xərclərini isə mənə demirlər, amma elə zamanlar olub ki, bu yüz minlərlə, varlı rayonlarda isə milyon və on milyonlarla ölçülüb. Bu məsələnin bu şəkildə olmasında icra hakimiyyətinin başçısı günahkardır? Amma, yenə də yerində olmayan icra hakimiyyətləri var, işinin öhdəsindən gəlmək istəməyən, burnunu dik tutub gəzən, millət vəkillərinin haqlı tələb və çağırışlarına məhəl qoymayanlar da var. Onlar da yaxın zamanda tərəfimizdən ifşa olunacaq.

***- Son 5-6 ili nəzərdən keçirsək, oliqarx nazirlərdən sayılan məmurların böyük əksəriyyəri kənarlaşdırılıb. Köklü və ətrafı olan məmurlar komandada hələ də varmı?***

-Açığını deyim ki, mənim kimlərinsə pulunu saymaq həvəsim yoxdur. Məmurların pulunun miqdarını bilmədiyim üçün kimin oliqarx, kimin kiçik biznesmen, kimin də maaşla dolanan məmur olduğunu rəsmi bilmirəm. Qeyri-rəsmi bilmək də, faktsız da danışmaq millət vəkili üçün çətin məsələdir. Oliqarxlar dediyimiz şəxslərin də getməsindən sonra kardinal dəyişiklik olub demək də çətindir. Amma, heç nə dəyişməyib demək də yalan olar. Müsbət dinamika göstərən sahələr, nazirliklər, agentlik və komitələr var. Lakin, onlar da hazırkı korrupsiyalaşmış siyasi sistemin qurbanlarıdır və bu sistemin yaradılmasında bir çoxları həvəslə iştirak ediblər. Prezident İlham Əliyev bu sistemi dağıtmaq üçün çox addımlar atır və hiss edirəm ki, o da çox narazıdır. Axı ordusunun əsgər və zabitlərinin qələbə çaldığı, zəfər bayrağını başı üzərinə qaldıran bir Prezident niyə tənqid edilməlidir? Niyə onun müsbət yöndə atdığı gözəl işlərə kölgə salınmalı, niyə Prezident hədəfə gəlməlidir? Başqa ölkələrdə bu qədər çətin bir müharibədə zəfər çalan Prezidentə qızıldan heykəl qoyardılar. Bizdə nə baş verir? Narazılıq pik həddə çatır. Hərçənd ki, Prezident pul ayırmaqdan, dövlət qurumu yaratmaqdan, sadələşdirmə aparmaqdan deyərdim ki, yorulub və bezib. Amma, düzəlmir ki, düzəlmir. Onun üçün də sistem kökündən dəyişməlidir. Hesab edin ki, sovet dəmiryolu relslərinə təzə Avropa istehsalı qatarlar qoymaq istəyirsən. O qatar yeriməyəcək, gərək relsləri də dəyişəsən. Rels isə ayrı-ayrı məmurlar, oliqarxlar deyil. Siyasi sistemin özüdür. Əslində, siyasi sistem tam yenilənsə və elə o oliqarxlara deyilsə ki, indi yeni sistem ilə işləməliyik və sizlərə də maliyyə amnistiyası tətbiq edilir. Onların çoxu dəyişib yeni sistemlə işləyə biləcəklər. Siyasətdə dəyişkənlik mümkündür. Çünki, hələ ki, güclü ideoloji xəttə malik olmayan bir siyasi sistemdəyik. Dünən kommunist idi, bu gün demokrat ola bilər, necə ki, özünü demokrat adlandıranlar bir neçə dəqiqə içində çevrilib tiran ola bilirlər. Amnistiya və güclü cəza mexanizmi.

***- Bəzən böyük maddi imkanlara sahib olan məmurların vurulmasının təhlükəli olduğu bildirilir. Bu barədə Siz nə düşünürsünüz?***

-Mən bu yanaşmanı qətiyyətlə rədd edirəm. Azərbaycan elə ölkədir ki, qeyri-qanuni yolla pul qazanan və oliqarxa çevrilən şəxs təhlükə törətməyə çalışsın. Əgər o şəxs var-dövlətini xaricə çıxara bilibsə və orada oturuşubsa, o zaman bəlkə də mümkündür. Amma, kimsə buna cürət etməz. Indi dünyada sistem elədir ki, qazanılan pulun mənbəyini soruşurlar, izah edə bilməsən, tutub əlindən alırlar. Pulun saxlanması və çoxaldılması üçün Azərbaycna belə insanlar üçün əlverişlidir və onlar yanlış hərəkət etmek istərlərsə, bir neçə saatın içində ən hörmətsiz, ən kasıb, və hər kəsdən kömək istəyən bir şəxsə çevrilərlər. Bizim siyasi sistemimizdə bu cür hallara yol verənlər bağışlanılmır. Onlara imkan yaratmaq lazımdır ki, qeyri-qanuni yollarla qazandıqları pulları ölkəyə yatırsınlar. Onun üçün də maliyyə amnistiyası çox vacibdir. Biz bunu etməsək, ayrı-ayrı vəzifəli məmurlara imkan yaradacağıq ki, onları soğan kimi soysunlar və özləri varlansınlar. Onların pulu özlərini qorumaq və cəzadan qaçmaq üçün digərlərinin cibinə transfer edəcək. Bu isə nə xalqa, nə dövlətə, nə də hakimiyyətə sərf edən variantdır. Bu ayrı-ayrı şəxslərin cibinin doldurulmasıdır. Araşdırırlar, cinayət işi qaldırırlar, qorxudurlar və varlanırlar.

***-Bir məqam da var ki, adı cəmiyyətə yaxşı məlum olan oliqarx məmurlar var ki, ölkədə milyardlar çıxarıblar. Hətta hazırda da beləIəri vəzifədə qalır. Oğru məmurlara qarşı nə etmək lazımdır?***

-Dediyim kimi, onları tutub həbsə atmaq faydasız məsələdir. Onları ittiham edənlər, ittihamdan məhkəməyə qədər soğan kimi soyurlar, oğurladıqlarının yarısını alıb öz ciblərinə qoyurlar və onlar da tez zamanda azadlığa buraxılırlar. Oğurlanmış pullar bir cibdən başqa cibə transfer edilir. Ancaq və ancaq maliyyə amnistiyası. Qoy onlar özləri pullarını ölkə iqtisadiyyatına yatırsınlar və bizneslərini və pullarını leqallaşdırsınlar. Onları həbsə atmaqla nə vətəndaş, nə də dövlət qazanmır. Ayrı-ayrı şəxslər onları soğan kimi soyub özü qazanır. Onun üçün də o yazıqları həbsə atmaq yox, pullarını leqallaşdırmağa kömək etmək lazımdır ki, zavod, fabrik, istehsalat müəssisələri yaratsınlar və xalq da işləsin.

***- Maraqlısı odur ki, yeni təyin olunan gənc kadrlar da özlərini doğrultmurlar, kadr seçimi hansı əsasda olmalıdır ki, bu cür hallar yaşanmasın?***

-Kadra işləmək üçün imkan vermək lazımdır. Kadr təyin olunur, hərə bir tərəfdən çağırıb göstəriş verir, məsləhət verir və yeni kadrı özünə tabe etməyə çalışır. Yazıqlar gecə-gündüz dokumentasiya işi ilə məşğul olurlar. O kurator oradan, bu kurator buradan, o zəng burdan, o birisi oradan və gözümçıxdıya salırlar. Digər tərəfdən onlara köhnə üsullarla işləməmək tapşırılır, yeni sistem isə köhnə sistemə yamaqdır, tez-tez cırılır, ya da yamaq qopub düşür. Bəziləri var ki, özündən müştəbehə çevrilir və az qala Polat Alemdar kimi hərəkət edir. Paltosunu geyinmir, çiyninə atıb gəzir. Tragikomediya. Bu suala daha çox birinci sualınızda da ətraflı cavab vermişəm.

***- Müxalifət düşərgəsindən kimlərisə vəzifəyə təyin etmək olmazmı? Bu həm də müəyyən qədər siyasi rəngarəngliyin icraedici hakimiyyətə daşınması olar, elə deyilmi?***



-İki gün öncə bu barədə AzTv-də açıq danışdım. Birinci hissəsini verdilər və AzTv tarixində o çıxışı vermək özü də bir inqilab idi. Ikinci hissəsində isə bu məsələnin fəlsəfəsini açmağa çalışmışdım, onu da elə qayçılamışdılar ki, 100%-dən 1 %-i qalmışdı. Eyni fikirli, eyni maraqlara və eyni sistemə qulluq edən adamların bir yerdə olması inkişafa nail ola bilmir. Əksinə, korrupsiya və rüşvətxorluğun, cəzasızlığın artmasına gətirib çıxarır. Baxışlar və yanaşmalar eyni olanda çatışmazlıqlara göz yumulur. İnkişaf üçün bir-birinə antoqonist fikirlər olan debatlara, toplantılara və yanaşmalara ehtiyac var. Prezident qeyd etdi ki, problemlərin kökündə həm də nəzarətsizlik dayanır. O nəzarəti fərqli fikirli adamlar yerinə yetirə bilər. Onlar da hasarın çölündən hoppanıb hasarın içində baş verənlərə baxmaq istəyirlər. Belə nəzarət olur? "Korrupsiyaya qarşı komissiyada" müxalifət nümayəndəsi kimi niyə olmayım? "Yaşat" fondunun və digər qurumların Müşahidə Şurasında niyə olmayım, yaxud digər fərqli fikir iştirakçıları niyə olmasın? Dövlət qurumlarının yanında "İctimai şuralar" yaradılır və özlərinə uyğun şəxslər də ora seçilir. O toplantılarda nazirə, rəhbərə çətin suallar verən olurmu, onlarla mübahisə edib, onları cavab verməyə dəvət edənlər olurmu? Xərclərlə, tenderlərlə bağlı çətin suallar verilirmi? Yox, hamı nazir gələndə ayağa qalxır, salamlayır və o nə deyirsə, deyir "baş üstə". Bu cür mütiliyi, tabeçiliyi və ictimai nəzarəti rədd edirəm.

***Z.Məmmədli***

# Oqtay Şirəliyevin rüşvətə görə qandallanan kadrları...

## Şəhər və rayon mərkəzi xəstəxanalarının rüşvətə, korrupsiyaya görə həbs edilən direktorlarının çoxu məhz Səhiyyə naziri tərəfindən bu vəzifələrə təyin olunublar

***Son aylarda Azərbaycanda şəhər və rayon mərkəzi xəstəxanaları direktorlarının həbsi ilə bağlı xəbərlər intensivləşib. Təkcə başa çatmaqda olan yanvar ayında iki belə xəbər yayıldı.***

Öncə uzun müddət Masallı Rayon Mərkəzi Xəstəxanasının direktoru vəzifəsində işləyən Nəzərov Cəlil Oruc oğlunun həmin tibb müəssisəsinin həkim-məsləhət komissiyasının sədri kimi vətəndaşlardan əlillik dərəcəsinin müəyyən edilməsi üçün rüşvət qismində müxtəlif məbləğlərdə pul vəsaiti alması barədə daxil olmuş vətəndaş müraciətləri əsasında Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən təxirəsalınmaz əməliyyat-axtarış tədbirləri keçirildiyi məlum oldu. Bu barədə Baş Prokurorluqdan yayılan məlumatda deyilirdi ki, həyata keçirilən ilkin tədbirlərlə Cəlil Nəzərovun ona müraciət edən iki vətəndaşdan əlillik dərəcəsinin təyin edilməsi üçün tələb edilən xəstəlik tarixçələrinin hazırlanması və səhiyyə müəssisəsinin göndərişinin "Tibbi-sosial ekspert komissiyasına göndərişlərin reyestri"nə daxil edilməsi müqabilində onlardan tələb etdiyi cəmi 4 500 manat pul məbləği təkrarən rüşvət qismində alınmasına, habelə, işlədiyi dövr ərzində çox sayda digər sağlam və həqiqi xəstəliyi olan vətəndaşlara xəstəliklə bağlı saxta tibbi sənədlərin hazırlanması, həmin sənədlərin reyestrə daxil edilməsi müqabilində müxtəlif məbləğlərdə pul vəsaitini rüşvət qismində almasına dair əsaslı şübhələr müəyyən edilib. Bundan başqa, Cəlil Nəzərovun Masallı Rayon Mərkəzi Xəstəxanasının inzibati binasındakı xidməti otağında və digər aidiyyəti ünvanlarda axtarış aparılan zaman 2015-ci ilin əvvəllərindən başlayaraq pensiya təyinatı üzrə göndərişlərin verilməsi, xəstəliklər üzrə diaqnozların müəyyən olunması və sair təyinatlar üzrə çoxsaylı vətəndaşların adlı siyahısı və həmin vətəndaşlardan alınan müxtəlif məbləğlərdə pul vəsaitlərinə dair qeydlər olan dəftərçələr, milli və xarici valyutada olan pul vəsaitləri, xəstəxananın mühasibatlığından isə 49 ədəd plastik hesab kartı və müxtəlif tibbi sənədlər aşkarlanaraq götürülüb.

Bunun ardınca isə rayon prokurorluğuna daxil olmuş vətəndaş müraciəti əsasında aparılan araşdırma zamanı Qusar rayon Mərkəzi Xəstəxanasının direktoru Mübariz Zeynalovun, inzibati məsələlər üzrə direktor müavini Nəzakət Salmanovanın və maliyyə şöbəsinin müdiri Eldar Məhsimovun vəzifə səlahiyyətlərindən sui-istifadə edərək qulluq mövqeyinə qəsdən zidd olaraq xəstəxananın Təxirəsalınmaz Tibbi Yardım bölməsinin bir neçə əməkdaşına "COVİD-19" pandemiyası ilə bağlı mübarizə tədbirlərinə cəlb edilmələrinə görə ödənilməli olan müddətli əlavələri mənimsəmələrinə əsaslı şübhələr müəyyən edildiyi açıqlanıb.

Hər iki xəstəxana direktoru barədə həbs qətimkan tədbiri seçilib.

Qeyd etmək lazımdır ki, Azərbaycanda dövlət səhiyyə ocaqlarının, eləcə də, şəhər və rayon mərkəzi xəstəxanalarının bir çoxunun rüşvət, korrupsiya yuvasına çevrilməsi kimsəyə sirr deyil. Xüsusilə Oqtay Şirəliyevin Səhiyyə naziri postu tutduğu dövrdə bu kimi hallar daha da artıb. Düzdür, hazırda həmin xəstəxanalar publik şəxs kimi fəlaiyyət göstərir və Səhiyyə Nazirliyinin tabeliyindən çıxarılıb. Lakin araşdırmalar göstərir ki, son vaxtlar müxtəlif neqativ səbəblərlə işlərindən azad edilən, yaxud həbs olunan şəhər, rayon mərkəzi xəstəxanaları direktorlarının əksəriyyəti məhz Oqtay müəllimin vaxtında həmin vəzifələrə təyin olunublar.



Gözləmək olardı ki, sözügedən səhiyyə ocaqlarının idarəetməsindəki dəyişikliklər - onların publik hüquqi şəxsə çevrilməsi öz bərabərində keyfiyyət dəyişiklikləri də gətirəcək. Məsələn, şəhər və rayonların mərkəzi xəstəxanalarında rüşvət, korrupsiya halları keçmişdə qalacaq. Lakin görünən odur ki, bu səhiyyə müəssisələrinin idarəçilik baxımından yenilənməsi köhnə təfəkkürlü direktorların qanunlara etinasız, ölkədəki islahatlar dalğasına laqeyd münasibəti ucbatından effektiv nəticələr doğurmayıb. Belə kadrlarla yolların ayrılması qaçılmaz zərurətə çevrilib, bəzilərinin isə dəmir barmaqlıqlar arxasına göndərilməsindən başqa çıxış yolu qalmayıb.

İstisna deyil ki, biz oxşar həbslərin bundan sonra da şahidi olacağıq. Çünki başqa xəstəxana direktorları arasında da yeni dövrün çağırışlarını qulaq ardına vuran, vəzifəsini rüşvət və yeyinti üçün fürsətə çevirən şəxslərin mövcudluğu şübhə yaratmır. Onlar hələ də köhnə "prinsiplərlə" işləməyi üstün tuturlar - axı uzun illər belə görüb, belə çalışıblar. Buna görə isə Səhiyyə Nazirliyinin rəhbərliyindən onlara "gözün üstə qaşın var" deyən tapılmayıb. İndi isə vəziyyət dəyişib. Sözügedən sağlamlıq ocaqlarının rəhbərləri ya bu dəyişən situasiya ilə ayaqlaşmağı öyrənməli, ya da rüşbət, korrupsiya ilə həbsxana arasında seçim etməlidirlər...

*Elvin Rüstəmov*

# Nəcməddin Sadıkov vəzifəsindən azad edildi



***Müdafiə nazirinin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisi general-polkovnik Nəcməddin Sadıkov tutduğu vəzifədən azad olunub.***

Bu barədə Unikal.org-a Müdafiə Nazirliyinin Mətbuat Xidmətinin rəisi polkovnik Vaqif Dərgahlı bildirib:

"N.Sadıkov Silahlı Qüvvələrdən ehtiyata buraxılıb. O, artıq bir neçə müddətdir ki, vəzifəsindən çıxarılıb."

*Famil Fərhadoğlu*

# Həftəsonları kafe və restoranlar işləyəcək? - Nazirlər Kabineti açıqladı

***Azərbaycanda karantin rejimi növbəti dəfə yanvarın 25-dən yumşaldılıb. Belə ki, həmin tarixdən ticarət obyektləri, bərbərxanalar və gözəllik salonlarının fəaliyyəti bərpa edilib. Fevralın 1-dən isə kafe və restoranlar açılacaq.***

Həftəsonu ilə bağlı qadağaların tam siyahısı açıqlanmasa da, Operativ Qərargahın son məlumatında qeyd olunurdu ki, bütün ölkə ərazisində şənbə və bazar günləri ictimai nəqliyyatın fəaliyyətinə tətbiq olunan məhdudiyyət, eləcə də digər qadağalar isə xüsusi karantin rejiminin sonunadək tətbiq olunacaq.

Bəs bundan sonra həftəsonları restoranlar və digər iaşə obyektləri işləyəcəkmi?

Nazirlər Kabinetinin mətbuat katibi İbrahim Məmmədov bildirib ki, fevralın 1-dən sonra şənbə və bazar günləri ictimai iaşə müəssisələri yerində xidmət göstərə biləcək: "Həftəsonları ictimai nəqliyyatın fəaliyyəti ilə bağlı isə əlavə məlumat veriləcək".

# Azərbaycanda nazirliyin əməkdaşlarına silahlı hücum olundu

***Yanvarın 27-də Qızılağac Milli Parkının mühafizə yegerləri və mühafizə müfəttişinə qarşı zor tətbiq olunması ilə bağlı Lənkəran rayon prokurorluğuna məlumat daxil olub.***

Bu barədə Unikal.org-a Baş Prokurorluğun Mətbuat xidmətindən məlumat verilib.

Araşdırmalarla 27 yanvar 2021-ci il tarixdə saat 23 radələrində Qızılağac Milli Parkının mühafizə yegerləri Zahir Bəşirov, Ceyhun Mustafayev və mühafizə müfəttişi Natiq Rzazadənin qanunsuz ov edən şəxslərin müəyyən edilməsi məqsədilə qeyd edilən parkda xidməti vəzifələrini icra edərkən naməlum şəxs tərəfindən ov tüfəngindən atəş açaraq sonunculara xəsarət yetirilməsi müəyyən edilib.

Faktla bağlı Lənkəran rayon prokurorluğunda Cinayət Məcəlləsinin 315-ci (hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və ya zor tətbiq etmə) maddəsi ilə cinayət işi başlanıb.

İş üzrə hadisə yerinə baxış keçirilmiş, müvafiq ekspertizalar təyin olunmuş, şahidlər dindirilmiş və digər zəruri prosessual hərəkətlər yerinə yetirilib.

Hazırda cinayət işi üzrə təqsirli şəxslərin tam dairəsinin müəyyənləşdirilərək məsuliyyətə cəlb edilməsi istiqamətində zəruri istintaq-əməliyyat tədbirləri davam etdirilir.

"Ötən gecə Qızılağac Milli Parkının mühafizə yegerləri və mühafizə müfəttişinə qarşı zor tətbiq olunması nəticəsində yaralanan üç şəxsin müalicəsi davam etdirilir". Bunu Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Dövlət Ekoloji Təhlükəsizlik Xidmətinin rəisi Hikmət Əlizadə bildirib.

Onun sözlərinə görə, gecə saatlarında brakonyer Qızılağac Milli Parkının Kiçik Körfəz ərazisində qanunsuz balıq ovu üçün daxil olublar: "Onlar əməkdaşlarımıza atəş açıb. Üç nəfər yaralanıb. Onlar Lənkəran Rayon Mərkəzi Xəstəxanasına çatdırılıb".

O qeyd edib ki, nazirliyin əməkdaşları hadisə baş verən əraziyə ezam edilib: "Daha geniş məlumat veriləcək".

# Deputatdan erməni nümayəndəsinə cavab



***Azərbaycanın AŞPA-dakı nümayəndə heyətinin üzvü deputat Kamal Cəfərov Ermənistan nümayəndə heyətinin üzvü Vladimir Vardanyana dərs verib.***

"Unikal" xəbər verir ki, K. Cəfərov qeyd edib ki, Ermənistan nümayəndə heyəti AŞPA-nın plenar və komitə iclaslarında istənilən mövzuda "əsirlərlə" bağlı danışır və adekvat cavablarını alır: "Şuşa şəhərinin adıyla bağlı məsələdə bildirdim ki, şəhərin adı Şuşi deyil, Şuşadır! Erməni nümayəndə heyəti bu cür ritorika və davranışdan əl çəkməlidir. Əgər bir ölkənin seçilmiş nümayəndəsi bu cür davranırsa, regionda sadə vətəndaşdan necə sülh gözləmək olar?! Münaqişə bitib, irəli baxmaq lazımdır".

Deputat həmçinin qeyd edib ki, hesabatda 8 ölkə ilə bağlı mənfi rəy qeyd edilib: "Lakin girişdə 3 ölkəyə (Azərbaycan, Türkiyə və Rusiya) xüsusi istinad edilir. Ya bütün ölkələrin adı yazılsın, ya da heç bir ölkənin adı yazılmasın. Bundan əlavə, komitə iclaslarında layihələrə bəzən vacib və faydalı əlavələr təqdim edilir. Lakin həmin əlavəni təklif edən ölkənin bəzi ölkələrlə maraqlar toqquşması varsa, həmin ölkələr əlavənin faydalı olmasından asılı olmayaraq, həmin əlavənin əleyhinə səs verir. Bu cür davranış inkişafa dəstək olmur".

# "Gəncə Hava Limanına Nizaminin adı verilsin" - Deputat

***Milli Məclisin deputatı Naqif Həmzəyev Gəncə Beynəlxalq Hava Limanına dünya bədii mədəniyyət tarixinin möcüzələrindən olan Nizami Gəncəvinin adı verilməsini təklif edib.***

Deputat bildirib ki, dövlət başçısı İlham Əliyev tərəfindən bu ilin "Nizami Gəncəvi İli" elan edilməsi dahi Azərbaycan şairinin dünyaya daha geniş təbliğ edilməsinə növbəti töhfədir: "Gəncə Beynəlxalq Hava Limanının adının Azərbaycanın bəşəriyyət tarixinə bəxş etdiyi dahi şəxsiyyətin adına uyğun kodlaşdırılması "Nizami Gəncəvi ili"nə daha bir ərməğan olardı.

Eyni zamanda, şəhərə gələn və gedən qonaqların, turistlərin aldıqları biletlərin üzərində və uçuş tablolarında Gəncə Beynəlxalq Hava Limanını KVD (Kirovabad) olaraq deyil, Gəncənin və Nizami Gəncəvinin adına uyğun GNJ qeyd edilərdi.

Qeyd edim ki, Türkiyənin İstanbul şəhərindəki Atatürk Hava Limanının kodu şəhərin adına uyğun olaraq İST, Moskvadakı Domodedovo aeroportunun kodu Domodedovo sözünə uyğun olaraq DME, Bakıdakı Heydər Əliyev adına hava limanının kodu Heydər Əliyev sözünün ingilis dili variantına uyğun olaraq GYD-dir".

# Gömrükdə külli miqdarda qızıl-zinət əşyaları aşkar edildi

***Qərb Ərazi Baş Gömrük İdarəsinin Əməliyyat və Təhqiqat İdarəsinə qaçaqmalçılıq yolu ilə qızıl-zinət əşyalarının gətiriləcəyi barədə əməliyyat məlumatı daxil olub.***

"Unikal" xəbər verir ki, aparılan ilkin araşdırma nəticəsində sözügedən qaçaqmalçılıq predmetlərinin Türkiyə Respublikasından ölkəmizə yük daşıyan "Mersedes-Benz Actros" markalı nəqliyyat vasitəsində gətiriləcəyi müəyyənləşdirilib.

"Mazımçay" gömrük postu vasitəsilə ölkə ərazisinə daxil olan Azərbaycan Respublikası vətəndaşının idarə etdiyi yük nəqliyyat vasitəsi gömrük nəzarətindən keçdikdən sonra saxlanılıb və şifahi sorğu-sual zamanı sürücü nəqliyyat vasitəsində gömrük nəzarətindən gizlədilən və mütləq bəyan edilməli hər hansı predmetin olmadığını bildirib.

Stasionar rentgen qurğusunda aparılan yoxlama zamanı nəqliyyat vasitəsinin dartıcısında yerləşən hava balonunun içərisində şübhəli cizgilər müşahidə olunduğundan yük avtomobili ətraflı yoxlamaya cəlb olunub. Bu zaman hava balonunun içərisindən müxtəlif rəngli falqalara bükülən, üzəri yapışqan lentlə sarınmış bağlamalarda 1400 ədəddən çox, ümumi çəkisi 5397 qram qızıl-zinət əşyaları aşkar olunub.

Faktla bağlı araşdırma aparılır.

# Cahangir Əsgərovsayağı nonsens...

## AZAL-ın borcu ildən-ilə atrır, onun rəhbərinin ailə biznesi isə getdikcə böyüyür



***Budur, yerli media xəbər verir ki, "Azərbaycan Hava Yolları" konserninin (AZAL) prezidenti Cahangir Əsgərovun qızı Cəmilə Əsgərova Londonda daha bir şirkət açıb.***

Belə ki, 1983-cü il avqust təvəllüdlü, Bakı şəhəri, Bülbül prospekti 18 ünvanında qeydiyyatda olan Cəmilə Əsgərovaya aid SOROKA LIMITED bu ilin yanvarın 16-da qeydiyyatdan keçib və 11770826 saylı lisenziya alıb. Qeydiyyat ünvanı 15 Bury Walk, London, United Kingdom, SW3 6QD göstərilir.

Şirkətin xüsusi ticari fəaliyyətlə məşğul olacağı qeyd olunur.

Bildirilir ki, Cəmilə Əsgərovanın Londondakı digər şirkəti "Gazelli İnternational Limited" (qeydiyyat nömrəsi 06401786) hələ 2007-ci ilin 17 oktyabrından fəaliyyətdədir və baş ofisi eyni ünvanda (15 Bury Walk, London, SW3 6QD) yerləşir. Bu şirkət ətriyyat və kosmetik vasitələrin topdan satışı, reklam fəaliyyəti ilə məşğuldur. Onun reyestrə daxil olan 31 oktyabr 2017-ci ilə aid maliyyə hesabatına görə, şirkətin ümumi aktivlərinin həcmi 14 milyon 141 min 159 funt sterlinq və ya 18.4 milyon dollar təşkil edib.

AZAL rəhbərinin 1987-ci il təvəllüdlü digər qızı Mələhət (Mila) Əsgərovanın da Londonda şirkətləri var. Onun rəhbərlik etdiyi "Gazelli Art House Limited" (qeydiyyat nömrəsi 07319737) şirkəti 20 iyul 2010-cu ildən fəaliyyətdədir. Qeydiyyat ünvanı: 52 New Town, Uckfield, East Sussex, United Kingdom, TN22 5DE. Şirkətin 1 oktyabr 2018-ci ildə reyestrə daxil olan maliyyə sənədlərinə görə, qarışıq aktivlərinin həcmi 31 milyon 495 min 464 funt sterlinq və ya 41 milyon dollar olub. Bunun 19 milyon 586 min 380 funt sterlinqini daşınmaz əmlaka yatırılan investisiya təşkil edib.

Məlumdur ki, Cahangir müəllimin həyat yoldaşı Zərifə Həmzəyeva "Gazelli" şirkətlər qrupuna rəhbərlik edir, onun Tiflisdəki və Batumi şəhərində tikdirdiyi 31 milyon dollarlıq otel barədə son illərdə mediada geniş yazılıb.

Bundan başqa, AZAL "şef"inin ispan və ingilis əsilli kürəkənlərinin də adlarına çoxsaylı şirkətlər olduğu bildirilir. Üstəlik, diqqətçəkici məqamdır ki, onlar kürəkən statusu qazandıqdan sonra bu şirkətləri açıblar.

O da maraqlıdır ki, bütün bu yazılanlar isə indiyədək qarşı tərəfdən rəsmi olaraq təsdiqlənməsə də, təkzib də edilməyib.

Əlbəttə, Cahangir müəllimin ailə biznesinin getdikcə böyüməsinə və çiçəklənməsinə deyiləcək sözümüz yoxdur. Halbuki istənilən məmurun belə iri gəlir qaynaqlarına sahib olmasının dünyanın hər yerində cəmiyyətin də, mətbuatın müzakirə predmetinə çevrilməsi çox təbiidir. Lakin bizim mövzuya toxunmağımızın səbəbi başqadır.

"Unikal" qəzeti də daxil olmaqla, Azərbaycanın yerli mediası bir neçə ildir "Azərbaycan Hava Yolları"nın borc bataqlığına yuvarlandığı, bu dövlət şirkətinin zərərlərinin və borclarının ilbəil artdığı barədə məqalələr, xəbərlər, təhlillər, müsahibələr, rəylər dərc edir. Ən qəribəsi, anlaşılmazı isə odur ki, bu zərər və borc artımı AZAL dünyanın ən bahalı aviaşirkətlərindən biri olduğu, eyni zamanda hər il dövlət büdcəsindən külli miqdarda dotasiya aldığı, bu da azmış kimi, ölkənin hava nəqliyyatında inhisarçı mövqe tutduğu halda baş verir! Məsələn, Əsgərov ailəsinin biznes sektorunda ciddi "uğurlar" qazandığı bir vaxtda - 2018-ci ildə "Azərbaycan Hava Yolları" QSC nə az, nə çox düz 208 milyon manat ziyan etmişdi. Bir sözlə, əndrabadi situasiya yaranıb: AZAL ilbəil ziyan edir, lakin bunun əvəzində AZAL "şef"inin ailəsi biznesini böyüdür, həm ölkə daxilində, həm də ölkə xaricində ciddi kapital tələb edən sərmayələr yönəlir. Bu sərmayələrin qaynağı nədir? Həmin suala isə yerli KİV heç cür ağlabatan cavab ala bilmir.

Hazırda AZAL-ın ümumi borcunun 1,5 milyard civarında olduğu deyilir. Bu qədər borcun necə yarandığı həqiqətən maraq doğurur: adın dünyanın ən bahalı aviaşirkətlərindən biri kimi hallansın, hər il dövlət büdcəsindən on milyonlarca dotasiya alasan, ölkənin hava nəqliyyatında inhisarçı mövqelərə malik olasan və... zərər edəsən?! Ötən saylarımızdan birində yazdığımız kimi, burada iki nüans ortaya çıxır. Birinci, qurumda qeyri-şəffaflıq hökm sürür, hesabatlılıq zəifdir, nəticədə gəlirlər nəinki xərcləri qarşılamır, üstəlik, borca meydan açır. İkinci, AZAL doğru idarə edilmir. Müasir idarəçilik prinsiplərindən uzaqdır, bu halda da nəticə dəyişmir: gəlirlərin xərcləri ödəməməsi azmış kimi rəqəmlərlərlə ifadəsi ağır borclara gətirib çıxarır.

Bəlkə başqa səbəblər də sadalamaq olar. Lakin bütün hallarda sonluq eynidir: AZAL borc bataqlığında çapalayır, üstəlik, bu borc bataqlığı ilbəil dərinləşir. Ancaq ilgincdir ki, qurum rəhbərinin ailə biznesi həmin borclara, ildən ilə artan zərərə baxmayaraq böyüyür, genişlənir. Niyə? Necə? Hansı məntiqlə? Nədir Cahangir Əsgərovsayağı bu nonsensin, absurdun, təzadın sirri? Bilən yoxdur. Ya da var, sadəcə, artıq bu sualların cavablarının cəmiyyətə, mediaya da açıqlanması lazımdır...

**Sənan Mirzə**

# "Azəriqaz"ın yeni sayğacları ilə bağlı müəmmanın pərdəarxası...

## Bu qədər çox abonentin eyni vaxtda narazılığını bildirməsi doğrudanmı əsassızdır?

***Son günlər “Azəriqaz” İstehsalat Birliyinin Smart tipli qaz sayğaclarını mexaniki qaz sayğacları ilə əvəz etməsi bir çox istehlakçının narazılığı ilə qarşılanıb. Bir sıra abonentlər yeni mexaniki sayğacların sərfiyyatı olduğundan artıq qeydə aldığını bildirir. Ekspertlər də mexaniki sayğaclara keçidi tənqidlə qarşılayıb.***

Sosial şəbəkələrdə yeni mexaniki sayğacların çox pul yazmasından gileylənənlərin siyahısı kifayət qədər genişdir. Məsələn, abonent Fimar Asimqızı yazır ki, “bir gün belə işlətmədiyimiz halda “Azəriqaz”ın 433 manat qaz pulu yazmasını bu qurumun rəhbəri necə izah edə bilər. Dərəbəylikdir bəyəm?”




Abonent Şəhriyar Maqsudov da “Azəriqaz”dan təcili olaraq mexaniki sayğacı dəyişməsini tələb edib. “Yeni sayğaclar sərfiyyatı həddindən artıq yüksək yazır. Vətəndaşla “Azəriqaz” işçisi arasında xoşagəlməz hallara görə “Azəriqaz” cavab verməli olacaq” - o qeyd edib.

“Deyəsən yeni sayğaclara Bugatti sürət ölçəni quraşdırıblar. Ayın ortası olmayıb artıq 450 kub yazıb” - bunu isə Təbriz adlı abonent “Azəriqaz” İstehsalat Birliyinin Facebook səhifəsində yazıb.

Tədqirəlayiqdir ki, adıçəkilən İstehsalat Birliyi vətəndaşların narazılığına operativ reaksiya verib. Ancaq reaksiyanın məzmunu düşündürücüdür. Qurum bildirib ki, son vaxtlar əhali abonent qrupunun istifadəsində olan, dövlət yoxlama müddəti başa çatmış smart-kart tipli sayğacların mexaniki-elektron sayğaclarla əvəz edilməsindən sonra guya yeni quraşdırılan qurğuların təbii qazın sərfiyyatını çox qeydiyyata alması barədə fikirlər dolaşır. Bunları nəzərə alaraq adıçəkilən İstehsalat Birliyi “Açıq qapı” günləri elan edib. Bu açıqlamadakı ”guya” ifadəsindən anlaşılan odur ki, ”Azəriqaz” vətəndaşların iddiaları ilə razılaşmır, onu dolayısı ilə əsassız sayır.

Halbuki mütəxəssislərin özləri belə sözügedən qurumdan fərqli fikirdədirlər. Məsələn, Azərbaycan İnternet Forumunun prezidenti Osman Gündüz hesab edir ki, belə yanaşma doğru deyil: “Cəmiyyətin narahatçılığı ondan ibarətdir ki, bütövlükdə “Azəriqaz”ın qaz sərfiyyatını hesablamaqla bağlı qurduğu nəhəng sistem-infrastruktur üzərində dövlət və ictimai nəzarət təkmilləşdirilməlidir.”

O hesab edir ki, hazırdakı situasiya maraqların toqquşması baxımından çox risklidir və istehlakçının aldadılacağından şübhələnməsi üçün ciddi əsaslar var: “Xidməti təqdim edən özü sərfiyyatı ölçmək üçün xaricdən istədiyi sayğacı alır. Sayğaca əlavə qurğuları özü qoşur, ”Ölçmələrin vəhdəti haqqında” qanuna uyğun olaraq sayğacların ölçmə sınaqlarında maraqlı tərəflər təmsil olunmur, aidiyyatı qurum və özü iştirak edir. Məlumatları sayğacdan özü oxuyur. Toplanan informasiyaları özü öz kanalları ilə öz mərkəzinə ötürür. Bu informasiyanı özünün özəl proqram təminatı ilə yenidən öz mərkəzində, öz serverlərində emal edir. Bütün bunların sonunda istehlakçıya bildiriş verir”.

Osman Gündüzün fikrincə, təbii inhisar subyekti üçün bütün sadalanan pillələr üzrə mövcud idarəetmə forması yolverilməzdir: “Gərək hökumət, aidiyyatı dövlət qurumları, Antiinhisar Dövlət Xidməti, Energetika Nazirliyinin Enerji Məsələlərini Tənzimləmə Agentliyi bu sahədə tənzimləməni təkmilləşdirsin. Bütün səlahiyyətləri eyni bir quruma, xüsusilə də təbii inhisarçıya vermək risklər, maraq toqquşmaları yaradır. Ən azından sayğaclara nəzarət, sayğaclardakı məlumatların oxunması, ötürülməsi və emalı başqa quruma verilməlidir”.

Neft Araşdırmaları Mərkəzinin rəhbəri İlham Şaban isə bildirib ki, istehlakçı öncədən pul ödəməklə Smart-sayğac vasitəsi ilə qaz alırdı: “Bu zaman müdaxilə edə biləcək bir subyekt yox idi. Əgər belə mexanizm vardısa, hansı məqsədlə Smart -sayğacları mexaniki sayğaclara dəyişirsən? Bundan sonra da əməkdaşları göndərirsən ki, get bax, gör filankəs nə qədər işlədib. O da gəlib qapı-qapı düşüb yazır. Sonra rayon idarəsinə gəlib bir başqasına yazdıqlarını deyir, o da orada kompütərə vurur. Sonra onun vurduqlarını Baş İdarədə təftiş-qeydə alan olur. Beləliklə istehlakçıda inamsızlıq yaranır. İnamsızlıq yaradan məsələləri aradan qaldırmaq lazımdır”.

Ekspert maraqlı nüansa da diqqət çəkib. Deyib ki, bir nəfər məmur məntiqə müraciət edib Smart-sayğacların mexaniki sayğaclarla əvəz edilməsinin səbəbini izah etmək istəmir: “Elə bil ki, bu ölkədə Sovet sistemi 30 ildə dağılmayıb, hər yerdə satan doğrudur, istehlakçının dinib-danışmağa hüququ yoxdur”.

Hətta mütəxəssislərin də yeni mexaniki sayğaclarla, ümumiyyətlə isə, abonent haqları ilə bağlı bu cür tənqidi fikirlər səsləndirdiyi bir vaxtda ”Azəriqaz”ın elə ilk vəhddəncə problemi inkar yolu tutması anlaşılmazdır. Üstəlik, bir halda ki, qurumun ”Açıq qapı” günləri elan edib, olmazmı, öncə istehlakçılar dinlənilsin, onların şikayətləri araşdırılsın, yekunda konkret münasibət ifadə edilsin? Axı bəzi məmurlar niyə həmişə elə təəssürat yaratmağa çalışırlar ki, hansısa məsələdə yüzlərlə, minlərlə vətəndaşın narazılığı mütləq əsassızdır, ancaq bir qurumun açıqlaması doğrudur, hamı mütləq həmin açıqlamada deyilənlərə inanmalıdır?

Bir məqamı da qeyd edək. ”Azəriqaz” uzun illərdir fəaliyyəti ilə medianın, cəmiyyətin tənqid hədəfində olan qurumların ön sırasında dayanır. İstehsalat Birliyində rəhbərliklər dəyişir, ancaq vətəndaşların giley-güzarı dəyişmir - nə səngiyir, nə də azalır.

Elə isə qurum rəhbərliyi hər narazılıqda abonenti haqsız çıxarmağa çalışanadək olmazmı bir dəfə də öz fəaliyyətlərinə tənqidi yanaşsın? Axı davamlı şəkildə inkar, təkzib yolu tutmaqla heç bir işdə, heç bir sahədə irəliləyiş əldə etmək mümkün deyil!

***Toğrul Əliyev***

# ÜST-dən daha bir pandemiya barədə xəbərdarlıq



***Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) 1999-cu ildə Malayziyada aşkarlanmış “Nipah”, yaxud “NiV” adlı virusun pandemiyası ilə bağlı xəbərdarlıq edib.***

Unikal.org “Rossiyskaya qazeta”ya istinadən xəbər verir ki, “Nipah” Nipah çayı sahilində yaşayan donuzçuluqla məşğul olan fermerlərdə aşkarlanıb.

Onun vəhşi təbiətdəki daşıyıcıları Cənubi Çin, Cənub-Şərqi Asiya, Yeni Qvineya və Avstraliyada geniş yayılmış yarasalar və yarasalar dəstəsinə aid uçan tülkülərdir. Bu virusa Afrikada uçan tülkülərdə də rast gəlinib. Həmin heyvanlar bu virusdan heç vaxt xəstələnmirlər.

“Nipah” insanlara virusa yoluxan xəstə donuzlarla təmasdan keçir. Virusdan ölüm halları 40-75 faiz təşkil edir. Xəstəlik ölümcül ensefalit (baş beyinin iltihabı) yaradır, eləcə də simptomsuz mövcud olur. “Nipah”a qarşı hələlik dərman taplmayıb.

Ümumdünya Səhiyyə Təşkilatı profilaktika üçün yarasalar və onun kimilərlə əlaqəni azaltmağı, virusa yoluxan adamlarla fiziki təmaslardan yayınmağı, əlləri yumaq və fərdi qorunma vasitələrindən istifadə etməyi məsləhət görür.

# İşğaldan azad edilən ərazilərdə 87 yeni abidə aşkarlandı



***“İşğaldan azad edilən ərazilərdə monitorinqlər aparmaqla oradakı abidələrimizin durumu, mədəniyyət müəssisələrinin hazırkı vəziyyətini təftiş edirik”.***

“Unikal” xəbər verir ki, bunu Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin rəsi vəzifəsini icra edən Azad Cəfərli deyib.

O bildirib ki, bu günə kimi 303 tarix və mədəniyyət abidəsi monitorinq edilib: “Onların əksəriyyəti tamamilə dağıdılıb. Bundan əlavə tarixilik və memarlıq xüsusiyyəti olan 87 yeni abidə aşkarlamışıq. 461 sayda mədəniyyət müssisəsi, muzey, mədəniyyət evləri, kitabxanalar təftiş olunub. Onlardan 212-si kitabxana, 199-u mədəniyyət evi olmaqla tamamilə dağıdılıb. Bu hələ bütün qeydə alınmış abidələr deyil və proses davam edir. Bu günə qədər 1 000-ə yaxın abidənin qeydiyyatı aparılıb. Onların tam əksəriyyətinin tamamilə dağıdılması Ermənistanın vandallıq siyasətindən xəbər verir. Onlar bizim mədəni irsimizi ərazidən tamamilə silmək, adibədələrin bizə məxsus olması ilə bağlı bütün faktları aradan göstürmək istəyiblər”.

# Samux və Sabirabad sakinlərindən narkotik götürüldü



***Samux və Sabirabad sakinlərindən narkotik götürülüb.***

Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən Unikal.org-a verilən məlumata görə, Baş Narkotiklərlə Mübarizə İdarəsinin Qərb Bölgəsində Regional Şöbəsi əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat tədbiri nəticəsində əvvəllər məhkum olunmuş A.Məmmədov Samux rayonu ərazisində saxlanılmışdır. Şəxsi axtarış zamanı ondan 6 qramdan artıq, yaşadığı Qarabalar kəndindəki evin zirzəmisindən isə 9 kiloqram 200 qram marixuana aşkar edilərək götürülüb.

Sabirabad polisi tərəfindən keçirilən əməliyyat-axtarış tədbiri nəticəsində isə Qalaqayın kəndində yaşayan Q.Orucovun evinin həyətinə baxış zamanı oradan 3 kiloqram 175 qram marixuana aşkar edilib.



## Latviya səfirliyi NATO-nun Azərbaycandakı əlaqələndiricisi oldu

***Latviya səfirliyi NATO-nun Azərbaycanda əlaqələndiricisi funksiyasını yerinə yetirməyə başlayıb.***

"Unikal" xəbər verir ki, bu barədə Latviyanın Azərbaycandakı səfiri Daynis Qarançs bildirib.

Səfirin açıqlamasında deyilir: "NATO-nun Bakıdakı əlaqələndirici səfirliyinin rəhbəri olaraq, Qadınlar, sülh və təhlükəsizlik qətnaməsinin həyata keçirilməsində Azərbaycan ilə NATO arasındakı səmərəli əməkdaşlığı vurğulamaq istərdim. Avro-Atlantik Tərəfdaşlıq Şurası çərçivəsində bu mövzularda dialoqa kömək məqsədilə 2018-ci ilin sentyabr ayında Azərbaycan qadınlar, sülh və təhlükəsizlik mövzusunda ilk NATO /EAPC yüksək səviyyəli konfransının təşəbbüskarı oldu və tədbirə ev sahibliyi etdi.

Bu məsələlər, sülhün dəstəklənməsi, mülki-hərbi əməkdaşlıq və vacib infrastrukturla birlikdə önümüzdəki iki il ərzində diqqətimizdə olacaq".

Xatırladaq ki, bu ilin yanvar ayından 31 dekabr 2022-ci ilə kimi Latviyanın Azərbaycandakı səfirliyi NATO-da əlaqələndirici səfirliyi funksiyasını yerinə yetirəcək.

Bundan əvvəl əlaqələndirici Macarıstan səfirliyi olub.

## AŞPA Rusiya nümayəndə heyətinin səlahiyyətlərini təsdiqlədi

***Avropa Şurası Parlament Assambleyasında (AŞPA) "Rusiya Federasiyası nümayəndə heyətinin hələ təsdiqlənməmiş etimadnaməsinin substantiv əsaslarla araşdırılması" adlı hesabat qəbul olunub.***



Unikal.org-un xəbərinə görə, sənəddə Rusiya Federasiyasında demokratiya, qanunun aliliyi və insan hüquqları ilə əlaqəli bir sıra mənfi tendensiyalara diqqət çəkilib.

Həmçinin müxalif bloqqer Aleksey Navalnının dərhal sərbəst buraxılması və Kimyəvi Silahların Qadağan edilməsi Təşkilatından onun zəhərlənməsi ilə bağlı araşdırma aparılması tələb edilib.

Hesabatı hazırlayan məruzəçi Stefan Şennak uzun müddətli həllərə çatma vasitəsi olaraq dialoq qurmağın əhəmiyyətinə toxunub. Buna görə o, hesabatda Assambleyanın Rusiya Federasiyasının nümayəndə heyətinin səlahiyyətlərini təsdiq etməsini və ilin sonunda monitorinq hesabatı təqdim edildiyi zaman əldə edilən irəliləyişin qiymətləndirilməsini təklif edib.

Beləliklə AŞPA-nın qış sessiyası çərçivəsində keçirilən səsvermə zamanı Rusiya nümayəndə heyətinin səlahiyyətləri təsdiqlənib. Qərarın lehinə 107 nəfər, əleyhinə 36 nəfər səs verib.

# Elman Rüstəmovun bankı bir az da böyüdü

### "Bank Respublika"nın 2020-ci ildəki göstəriciləri göz qamaşdırdı

***Azərbaycanda bir çox bankların böhranlı vəziyyətdə olduğu kimsəyə sirr deyil. Nəticədə son bir neçə ildə bir sıra bankların bağlanmasına qərar verilib.***

Lakin durumu xeyli dərəcədə yaxşı olan banklarımız da yetərincədir. Bunların ön sırasında isə Azərbaycan Mərkəzi Bankının (AMB) İdarə Heyətinin sədri Elman Rüstəmova bağlı olduğu deyilən "Bank Respublika" gəlir.

Dünən yayılan bir məlumat da bu söylənilənlərin doğruluğuna şübhə qoymur. Belə ki, Bank Respublika, 2020-ci ildəki fəaliyyət nəticələrini elan edib.

Bankdan verilən məlumatda bildirilir ki, xarici çağırışlara baxmayaraq, Bank yaxşı maliyyə nəticələri nümayiş etdirərək Azərbaycanın bank xidmətləri bazarında lider mövqeyini möhkəmləndirib. 1 yanvar 2021-ci il tarixinə bankın aktivləri 1,03 milyard manat təşkil etmişdir ki, bu da banka ölkənin aparıcı beş bankı sırasında yerini qoruyub saxlamağa imkan vermişdir.

Məlumatda deyilir: "Açıqlanmış hesabatdan həmçinin görünür ki, Bank davamlı inkişaf üçün kifayət qədər yüksək kapital ehtiyatına malikdir. Belə ki, bankın məcmu kapitalı 7% artaraq 83,9 milyon manat olmuş və minimum məcmu kapital normasını (50 mln. manat) 68% üstələmişdir...

COVID-19 pandemiyası ilə əlaqədar tətbiq olunan karantin tədbirlərinə baxmayaraq, Bank 2020-ci ildə müsbət dinamikanı davam etdirə bilmiş və ilin sonunda bankın xalis mənfəəti 6,02 milyon manat təşkil etmişdir. 2019-cu ilə nisbətən xalis faiz gəliri 10% -dən çox artaraq 45,5 milyon manata çatmışdır. 12 ay ərzində Bank tərəfindən verilmiş kreditlərin ümumi həcmi 369 milyon manatdan çox olmuşdur ki, bunun da əsas hissəsi real sektorun dəstəklənməsinə yönəldilmişdir...



Göründüyü kimi, bir sıra bankların ürəkaçan vəziyyətdə olmadığı bir vaxtda "Bank Respublika" güclənməkdədir. Əlbəttə, hər birimizin arzusu ölkənin bank sektorunun sağlamlaşması, son illərdə müşahidə edilən bütün çətinlikləri həll edərək yoluna əmin addımlar atmasıdır. Bu, milli iqtisadiyyatımızın da güclənməsi, böyüməsi baxımından həlledici faktorlardan biridir. Lakin bir sıra bankların bağlandığı, yaxud eyni riski bu və ya digər dərəcədə daşıdığı bir vaxtda adıçəkilən bankın göstəricilərinin mütəmadi olaraq yaxşılaşması bəziləri düşündürücü sayır. İddia edilir ki, səbəb onun baş bankir tərəfindən qeyri-rəsmi himayə edilməsidir.

Bir daha vurğulayaq ki, dövri mətbuatda "Bank Respublika" ASC-nin Azərbaycan Mərkəzi Bankının (AMB) İdarə Heyətinin sədri Elman Rüstəmova bağlılığı ilə bağlı mütəmadi məlumatlar yayılıb.

2017-ci ildə isə bankın rəsmi sahibi olan Natiq Quliyev (hazırda Müşahidə Şurasının üzvüdür) KİV-ə bildirib ki, Elman Rüstəmovla uzun illərdir peşəkar münasibətləri mövcuddur: "Məni sevindirir ki, Bank Respublika o qədər cəlbedicidir ki, onun adını belə tanınmış şəxslərlə əlaqələdirirlər. Elman Rüstəmov mənim çox hörmət etdiyim şəxs və peşəkar dövlət xadimlərindən biridir. Elman müəllimlə, hər bir bank səhmdarı kimi, uzun illər ərzində çox səmimi peşəkar münasibətlərimiz yaranıb. Lakin, Bank Respublikanın sahibi kimi, bir daha qeyd etmək istərdim ki, bank yalnız rəsmi hesabatlarda qeyd olunan səhmdarlara məxsusdur. Bu hesabatlardan göründüyü kimi, mənim əsas tərəfdaşlarım Almaniyanın iki tanınmış maliyyə institutlarıdır. Bunlardan biri, KfW (Almaniyanın Dövlət Bankı) bank qrupunun üzvü DEG İnvestisiya Şirkəti, digəri isə Sparkassen-Finanzgruppe maliyyə qrupunun üzvü Sparkassen International Development Trust".

Bununla belə, yerli KİV adıçəkilən bankın ölkənin baş bankirinə qeyri-rəsmi bağlılığında israr edir. Bundan başqa, hətta 2015-ci ildəki iki devalvasiyadan az sonra belə ölkədəki əksər bankların vəziyyətinin qeyri-qənaətbəxş olduğu bir vaxtda, "Bank Respublika"nın, demək olar, bütün göstəricilər üzrə gözqamaşdırıcı nəticələr əldə etməsinin sirri də məhz bununla əsaslandırılırdı.

Onu da deyək ki, Rüstəmov adıçəkilən bankın qeyri-rəsmi şəkildə ona bağlılığına dair iddialarla əlaqədar indiyədək hər hansı münasibət bildirməyib.

Ekspertlərin fikrincə, Azərbaycanda müəyyən banklar bir-birinin ardınca bağlandığı halda iri məmurlara məxsus bankların sürətlə böyüməsi bu sektorun maraqlı və düşündürücü nüanslardan biridir...

***Elvin Rüstəmov***

# Ermənilərin dağıtdıqları bütün mədəniyyət, tarixi abidələri, məscidləri yenidən bərpa edəcəyik

### Ceyhun Məmmədov: "Tezliklə konkret layihələrin icrasına başlanılacaq"

***"30 ilə yaxın işğal altında olan digər bölgələrimiz kimi, Cəbrayıl rayonunda da ermənilər bütün infrastrukturu məhv ediblər. Abad şəhərin yalnız qalıqları qalıb, şəhərdən əsər-əlamət yoxdur. Onlar bununla kifayətlənməyərək Cəbrayıldakı qəbirstanlıqları da dağıdıblar. Diriləri vəhşicəsinə qətlə yetirən zəhərli ideologiya və xəstə təxəyyül sahibləri ölüləri də qəbirlərində rahat uyumağa qoymayıblar. Qəbirləri eşərək əcdadlarımızın sümüklərini çıxarıb təhqir ediblər".***

Bu fikirləri Milli Məclisin deputatı Ceyhun Məmmədov deyib.

Ceyhun Məmmədov bildirib ki, ermənilərin vəhşiliyi və amansızlığı bununla bitməyib. Onlar Cəbrayıl rayonunun məscidlərini də dağıdıblar. Ermənilər Cəbrayıl rayonunun mərkəzində isə kilsə tikiblər. Əslində bütün dinlərdə məscid, kilsə və sinaqoq Allahın evi sayılır. Ermənilər üçün isə müqəddəs heç nə yoxdur. Bir tərəfdən müsəlman məscidlərini dağıdır, digər tərəfdən Allaha ibadət üçün kilsə tikirlər. Əslində isə hər ikisi Allah evidir, Allaha dua və ibadət etmək üçün inşa olunur.

İşğala qədər Cəbrayıl rayonunda 5 tarixi məscidin olduğunu deyən millət vəkilinin sözlərinə görə, həmin məscidlər Daşkəsən, Süleymanlı, Məzrə, Çələbilər və Papı kəndlərində yerləşirdi. Həmin məscidlərdən yalnız Papı və Süleymanlı kəndlərindəki ibadətgahların qalıqları qalıb. Ermənilər bu məscidləri də yerlə yeksan ediblər. Bu, bir daha bu xalqın hansı mənəviyyat, əxlaq və tərbiyə sahibi olduğunu göstərir.

Deputat xatırladıb ki, Ermənilərdən fərqli olaraq dövlətimiz Bakının mərkəzindəki erməni kilsəsini və içərisindəki erməni dilində olan 5 minə yaxın ədəbiyyatı qoruyub saxlayır: "Budur, iki xalq arasındakı böyük fərq. Bu eyni zamanda, Azərbaycan xalqının böyüklüyündən, yüksək mədəniyyətindən digər din və mədəniyyətlərə dözümlü münasibətindən xəbər verir. Çünki Azərbaycan xalqı zəngin tarixə və multikultural dəyərlərə malik xalqdır, gözü toxdur, heç kimə qarşı torpaq iddiası yoxdur. Prezident İlham Əliyevin çıxışlarında dəfələrlə qeyd edildiyi kimi, Azərbaycan ermənilərin dağıtdıqları bütün mədəniyyət abidələrini, ibadət ocaqlarını, məscidləri yenidən bərpa edəcək, onlara tarixi əzəmətini qaytaracaq. Artıq Mehriban xanım Əliyevanın rəhbərliyi ilə Heydər Əliyev Fondu layihələndirmə işlərinə başlayıb. Tezliklə konkret layihələrin icrasına başlanılacaq".



# Evi tam dağıdılmış və qəzalı vəziyyətə düşmüş vətəndaşlara yardımların verilməsi yekunlaşır

***"Prezident İlham Əliyevin 14 dekabr 2020-ci il tarixli sərəncamının icrasını təmin etmək məqsədilə Nazirlər Kabinetinin verdiyi "2020-ci il sentyabrın 27-dən başlayaraq Ermənistan Respublikası silahlı qüvvələrinin Azərbaycan Respublikasının ərazisinə təcavüzü nəticəsində mülki əhaliyə dəymiş ziyanla bağlı maddi yardımın ödənilməsi barədə" sərəncamda nəzərdə tutulan yardımın vətəndaşlara çatdırılması 98.2% yerinə yetirilib. Sənədləri itmiş və sənədlərində problemlər olan vətəndaşlar və ölkədən kənarda olanlarla bağlı məsələlər də həll olunur".***

"Unikal" xəbər verir ki, bunu Nazirlər Kabinetinin mətbuat xidmətinin rəhbəri İbrahim Məmmədov deyib.

O bildirib ki, əhalinin sonradan olan müraciətləri əsasında Gəncə və Tərtərdə daha 2 000-ə qədər obyektə baxış keçirilib, məlumatlar toplanıb, hesablamalar aparılır.

"Dövlət Arxitektura və Şəhərsalma Komitəsi artıq təmir-bərpa və tikinti işlərini aparacaq şirkətləri müəyyənləşdirib, yerlərdə ilkin hazırlıq işləri aparılır", - deyə İ. Məmmədov əlavə edib.

Qeyd edək ki, Prezident İlham Əliyevin imzaladığı "2020-ci il sentyabrın 27-dən başlayaraq Ermənistan Respublikası silahlı qüvvələrinin Azərbaycan Respublikasının ərazisinə təcavüzü nəticəsində mülki əhaliyə dəymiş ziyanın ödənilməsi ilə bağlı əlavə tədbirlər haqqında" 14 dekabr 2020-ci il tarixli sərəncamına əsasən, 2020-ci il sentyabrın 27-dən başlayaraq Ermənistan Respublikası silahlı qüvvələrinin Azərbaycan Respublikasının ərazisinə təcavüzü nəticəsində mülki əhalinin əmlakına dəymiş ziyanla bağlı aşağıdakı məbləğdə maddi yardım ödənilməlidir:

- dağıdılmış və ya qəzalı vəziyyətə düşmüş yaşayış evləri üzrə məişət əşyalarına dəymiş ziyanla bağlı hər bir ailəyə 6000 (altı min) manat, şəxsi əşyalara dəymiş ziyanla bağlı hər bir ailə üzvünə 1500 (min beş yüz) manat məbləğində;
- digər ziyan dəymiş yaşayış evləri üzrə hər bir ailəyə 1000 (bir min) manat məbləğində.

Sərəncama əsasən, Nazirlər Kabinetinə Sərəncama uyğun olaraq maliyyələşməni təşkil etmək tapşırılıb.

Bu sərəncamın icrasını təmin etmək üçün Nazirlər Kabineti "2020-ci il sentyabrın 27-dən başlayaraq Ermənistan Respublikası silahlı qüvvələrinin Azərbaycan Respublikasının ərazisinə təcavüzü nəticəsində mülki əhaliyə dəymiş ziyanla bağlı maddi yardımın ödənilməsi barədə" sərəncam verib.

Sərəncama əsasən, Maliyyə Nazirliyinə tapşırılıb ki, mülki əhalinin əmlakına dəymiş ziyanla bağlı maddi yardımın ödənilməsi məqsədilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 11 noyabr tarixli 612s nömrəli Sərəncamı ilə yaradılmış işçi qrupları tərəfindən təqdim edilən siyahılar əsasında hesablanmış ilkin olaraq 9 068 128 (doqquz milyon altmış səkkiz min yüz iyirmi səkkiz) manat (bank xidməti ödənişləri də daxil olmaqla) məbləğində vəsaitin 2020-ci il üçün Azərbaycan Respublikasının dövlət büdcəsində nəzərdə tutulmuş Ehtiyat Fondunun vəsaiti hesabına maliyyələşdirilməsini təmin etsin və göstərilən vəsaitin 2 920 500 (iki milyon doqquz yüz iyirmi min beş yüz) manatının Gəncə Şəhər İcra Hakimiyyətinin, 67 000 (altmış yeddi min) manatının Mingəçevir Şəhər İcra Hakimiyyətinin, 1 848 500 (bir milyon səkkiz yüz qırx səkkiz min beş yüz) manatının Ağdam Rayon İcra Hakimiyyətinin, 586 000 (beş yüz səksən altı min) manatının Ağcabədi Rayon İcra Hakimiyyətinin, 233 000 (iki yüz otuz üç min) manatının Bərdə Rayon İcra Hakimiyyətinin, 124 000 (bir yüz iyirmi dörd min) manatının Beyləqan Rayon İcra Hakimiyyətinin, 41 000 (qırx bir min) manatının Cəbrayıl Rayon İcra Hakimiyyətinin, 4 000 (dörd min) manatının Naftalan Rayon İcra Hakimiyyətinin, 2 296 500 (iki milyon iki yüz doxsan altı min beş yüz) manatının Tərtər Rayon İcra Hakimiyyətinin, 494 500 (dörd yüz doxsan dörd min beş yüz) manatının Füzuli Rayon İcra Hakimiyyətinin və 421 500 (dörd yüz iyirmi bir min beş yüz) manatının Goranboy Rayon İcra Hakimiyyətinin müvafiq xəzinə hesabına ödənilməsini təmin etsin.

# Xocavənddə faşistə heykəl qoyanların cavabı veriləcək

***Qarabağdakı Rusiya sülhməramlılarının himayəsində olan erməni terrorçuların təxribatları davam edir. Onlar Xocavənd rayonun mərkəzində erməni faşist lideri, azərbaycanlılara qarşı 1918-1920-ci illərdə soyqırımı törətmiş Qaregin Nijdeyə heykəl qoyublar.***



Ermənilərin Qarabağdakı bu hərəkətini necə qiymətləndirmək olar? Terrorçular bu qıcıqlandırıcı hərəkətlə nə etmək istəyirlər?..

Milli Məclisin Qarabağdan olan deputatı Elman Məmmədov Modern.az-a bildirib ki, ermənilər islaholunmaz millətdirlər:

"Mən quldurlarla, yaramazlarla bağlı fikirlərimi dəfələrlə ifadə etmişəm. Belə bir misal çəkim: görürsən ki, ailədə uşaqlardan biri nadinc olur. Həmin uşaqla valideynləri, uşaq bağçasında və məktəbdə müəllimləri məşğul olub onu tərbiyə edirlər. Nadinc uşaq tədricən düzəlir, pis hərəkətlərini unudur.

Cəmiyyətdə də müəyyən cinayətlər törətmiş insanlar olar. Onlar törətdiyi cinayətə görə həbs olunurlar. Həbsdə məhkum olduğu zaman düzgün yola qayıdır və bir daha cinayətə əl atmır.

Lakin elələri də var ki, onlar islaholunmazdırlar. Ermənilərə millət demək də günahdır, çünki onların kökləri belə məlum deyil. Ermənilər başlarına gələn müsibətdən nəticə çıxarmırlar. Belələrinin quyruğunu tapdalayıb, başını sağ qoymaq olmaz".

E.Məmmədov qeyd edib ki, ermənilər İkinci Qarabağ savaşında 10 min nəfərə qədər itki, elə bu qədər də yaralı verdilər. Hələ də döyüş bölgəsindən onların meyitləri tapılır:

"Bəziləri elə fikirləşirlər ki, 44 günlük müharibədə ermənilər bizim gücümüzü gördülər, ağır zərbələr aldılar və bu, onlara dərs oldu. Lakin mən elə düşünmürəm. Onlar yenə də fürsət axtarırlar ki, kimlərinsə əli ilə Qarabağda qanlı hadisələr törətsinlər. Bütün təxribatlarının cavabı qəti şəkildə, güzəştə gedilmədən verilməlidir. Hətta kökü kəsilməlidir. Nə qədər ki, ermənilər Azərbaycan torpaqlarındadırlar, silahlı qruplaşmaları, quldur dəstələri Qarabağda mövcuddur, onlar ağıllarına gələni edəcəklər.

Azərbaycan rəsmən etiraz etsə belə, erməni rəsmiləri Qarabağa hələ də gəlib-gedirlər. Onlara etiraz təsir etmir. Quldurun, faşistinin heykəlini gətirib, Xocavəndin mərkəzində qoyublar. Bu Azərbaycana yenidən meydan oxumaqdır. "Yəni biz öz bildiyimizi edirik, bura bizimdir, nə istəsək edə bilərik". Mən hesab edirəm ki, yaxın vaxtlarda həmin heykəl və o heykəli ora qoyanlar da öz cəzalarını alacaqlar. Azərbaycan əsgəri onların cavabını verəcək".

Deputat bildirib ki, işğaldan azad olunan rayonlarımızda Azərbaycanın milli-mənəvi dəyərlərini, tarixini əks etdirən mədəniyyət ocaqları, məscidlər yüksək səviyyədə bərpa edilməlidir:

"Azərbaycanın görkəmli şəxsiyyətlərinə, vətən uğrunda canını fəda edən igidlərimizin adına küçələr, abidələr, xatirə kompleksləri hazırlanmalıdır. Məscidlərimizin əksəriyyətinin inşası sovet dövründən əvvələ təsadüf edib. Cənab prezident Şuşa, Ağdam, Zəngilan və Füzulidəki dağıdılmış məscidlərdə olarkən dedi ki, onlar İslam dəyərlərinə uyğun ən yüksək səviyyədə tikilcək, bərpa ediləcək.

Biz elə etməliyik ki, ermənilər Qarabağın hər yerində islam mədəniyyətini, Azərbaycan tarixini əks etdirən abidələri, abad yaşayış məntəqələrimizi görsünlər. Bərpa işləri aparıldıqdan sonra həmin ərazilərin əvvəlki halında olan fotoşəkilləri lövhələrə vurulmalıdı. Bu ona görə ediləcək ki, dünya erməni vəhşiliyini görsün və bilsinlər ki, onlar ərazilərimizi nə günə qoyublar".

***Nəzrin Vahid***

# Yusif Abdullayev: "Xarici investorların cəlbi üçün srtategiya hazırlanır"

***2020-ci il ərzində AZPROMO-nun dəstəyi ilə Azərbaycan şirkətləri Almaniyada "Beynəlxalq Yaşıl Həftə 2020", Rusiyada "Prodexpo 2020" və "WorldFood Moscow 2020", BƏƏ-də "Gulfood 2020" və Çində "3-cü Çin Beynəlxalq İdxal" sərgilərində iştirak edib, Azərbaycan məhsulları "Made in Azerbaijan" vahid ölkə stendində nümayiş olunub. 2021-ci ildə də Azərbaycan sahibkarlarının beynəlxalq sərgilərdə iştirakı nəzərdə tutulur.***



Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) fəaliyyəti, "Made in Azerbaijan" brendinin təşviqi istiqamətində görülən işlər və qarşıda duran vəzifələrə dair onlayn formatda mətbuat konfransında AZPROMO-nun rəhbəri vəzifəsini icra edən Yusif Abdullayev bildirib.

Y.Abdullayevq eyd edib ki, "Made in Azerbaijan" brendinin təşviqi məqsədilə indiyədək Azərbaycan şirkətlərinin xarci ölkələrə 33 ixrac missiyası təşkil olunub, məhsullarımız 33 beynəlxalq sərgidə vahid ölkə stendində təqdim edilib:

"2020-ci ildə ixrac təşviqinin ödənilməsi ilə bağlı daxil olan müraciətlər əsasında 97 sahibkarlıq subyektinə 9,6 milyon manatdan çox ixrac təşviqi ödənilib. "Made in Azerbaijan" brendinin təşviqi istiqamətində önəmli mexanizmlərdən olan "ixrac təşviqinin geri ödənilməsi" mexanizminin tətbiqi 2020-ci ilin 31 dekabr tarixindən başa çatdırılıb. Ümumilikdə indiyədək daxil olan 3297 müraciət əsasında, 3214 məktub-sərəncam verilib, 153 sahibkarlıq subyektinə 27 mln manatadək ixrac təşviqi ödənilib".

Ölkə iqtisadiyyatına birbaşa xarici investisiyaların cəlb edilməsinin AZPROMO-nun əsas fəaliyyət istiqamətlərindən olduğunu vurğulayan Yusif Abdullayev bu sahədə görülən işlər, həyata keçirilən tədbirlər barədə məlumat verib. Bildirib ki, Beynəlxalq Maliyyə Korporasiyası ilə birgə "Birbaşa xarici investisiyaların təşviqinə dair 2021-2025-ci illər üçün Strategiya" hazırlanır və strategiyada investorlara xüsusi fərdi xidmətlərin göstərilməsi nəzərdə tutulur.



# Təhsil naziri pakistanlı səfirlə görüşdü

***Təhsil naziri Emin Əmrullayev Pakistan İslam Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Bilal Haye ilə görüşüb.***

"Unikal" xəbər verir ki, o, bu barədə özünün "Facebook" sosial şəbəkə hesabında paylaşım edib. "Görüşdə Azərbaycan ilə Pakistan arasında təhsil sahəsində əlaqələrin hazırkı vəziyyəti və gələcək inkişaf perspektivləri müzakirə edildi. Ali təhsil müəssisələri arasında tələbə və müəllim mübadiləsi, təqaüd imkanlarının artırılması və müsbət təcrübələrin mübadiləsinin əhəmiyyəti vurğulandı", - deyə o qeyd edib.

# Məktəb direktorları ilə onlayn görüş keçirildi



***Bakı Şəhəri üzrə Təhsil İdarəsinin (BŞTİ) tabeliyindəki ümumi təhsil müəssisələrinin rəhbərləri ilə onlayn görüş keçirilib.***

İdarədən "Unikal"a bildirilib ki, 2020-2021-ci tədris ilinin I yarımilinin yekunlarına həsr olunmuş onlayn görüşdə BŞTİ-nin müvafiq struktur bölmə rəhbərləri və məktəb direktorları iştirak ediblər.

Görüşdə I yarımil ərzində distant təhsilin təşkili sahəsində görülən işlər, məktəbdaxili qiymətləndirmələrin və fənn olimpiadalarının nəticələri, IX və XI siniflər üzrə buraxılış imtahanlarına hazırlıq, şagirdlərin elektron yerdəyişməsi, müəllim-şagird-valideyn münasibətlərinin düzgün formalaşması, qarşıda duran digər vəzifələr ətrafında müzakirələr aparılıb.

Onlayn görüşdə fevralın 1-dən başlayaraq ümumi təhsilin məktəbəhazırlıq qrupları və ibtidai təhsil üzrə tədris prosesinin bərpası ilə bağlı təhsil müəssisələrində görülən hazırlıq işlərindən də söhbət açılıb. Tədrisin təşkilində məktəb direktorlarının üzərinə düşən məsuliyyətin düzgün dəyərləndirilməsinin vacibliyindən bəhs olunub.

# Ötən il əmək qanunvericiliyi 955 dəfə pozulub

***2020-ci ildə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidmətinə vətəndaşlar tərəfindən ərizə formasında daxil olan 10 102 müraciət araşdırılaraq cavablandırılıb.***




Nazirlikdən "Unikal"a verilən məlumata görə, vətəndaşlar əsasən emal, tikinti, topdan və pərakəndə ticarət, avtomobillərin təmiri, ictimai iaşə və s. sahələrdə əmək münasibətləri ilə bağlı müraciət ediblər:

"Müraciətlərin araşdırılması zamanı 955 halda əmək qanunvericiliyinin tələblərinin yerinə yetirilməməsi faktı aşkar edilib. Aşkar edilmiş hüquq pozuntularının aradan qaldırılması üçün Xidmət tərəfindən qanunvericiliyə uyğun tədbirlər görülüb, həmçinin işəgötürənlərə əmək qanunvericiliyinin müvafiq məsələlərlə bağlı tələblərinə dair ətraflı məlumatlar verilib".

# Məktəblərin açılmasını reallaşdıran vacib amillər - Məsul katibdən geniş təhlil




***"Valideyinlər təbii hal olaraq, bu məsələyə münasibətdə qruplaşırlar: Bəziləri məktəblərin açılması və ənənəvi təhsilin bərpa edilməsini, bəziləri isə bu məsələdə bir qədər ehtiyatlı olmağı düşünürlər. Ümüd edirəm ki, bununla bağlı narahatlıq yaşanmayacaq".***

"Unikal" xəbər verir ki, bunu AzEdu.az-a açıqlamasında Təhsil Nazirliyi yanında İctimai Şuranın məsul katibi, fəlsəfə doktoru İlqar Orucov bildirib.

O qeyd edib ki, Təhsil Nazirliyi bu məsələ ilə bağlı mütəmadi olaraq aidiyyatı qurumlarla təhlillər aparacaq, həll yolları istiqamətində işlər həyata keçiriləcək: "Fevralın 1-dən etibarən Azərbaycanda hibrid formada təhsilə keçid təmin olunacaq. Bu gün ölkəmizdə koronavirusa yoluxma sayının azlığı, sanitar - epidemioloji vəziyyətin nəzarət altında olması bizə imkan verir ki, artıq çoxdan gözlədiyimiz ənənəvi təhsil formasına keçidi təmin edə bilək. Təhsil Nazirliyi mütəmadi olaraq aidiyyatı qurumlarla, xüsusi ilə də Operativ Qərargahla məsələni təhlil edəcək. Hər hansı məktəbdə yoluxma qeydə alınacağı halda həmin təhsil müəssisəsi ilə bağlı lokal xarakterli qərarlar qəbul ediləcək".



### Yoluxma məktəblərdə deyil, cəmiyyətdə və ailələrdədir

"Mən bütün hallarda məktəblərin açılmasının tərəfdarıyam. Bir neçə müddət öncə də bu proses baş vermiş, ənənəvi tədris qismən də olsa bərpa edilmişdi. O zaman şagird və müəllimlər arasında yoluxma halları qeydə alında vurğulamışdıq ki, bunan səbəb məktəblər deyil; yoluxma prosesi daha çox cəmiyyətdə, ailələr daxilində yaşanır . Bu səbəbdən, ailələr mütləq şəkildə ehtiyatlı olmalıdırlar; təhlükə hələ qalmaqdadır.

Şagirdlərin məktəbə gəlməsi ilə bağlı hazırda hər hansı məcburiyyət yoxdur. Əgər şübhəli bir hal müşahidə olunarsa, bu zaman ailələr aidiyyəti üzrə test verib məsələni nəzarətdə saxlasalar, daha yaxşı olar. Bu qəbildən olan ailələrdə şagirdlərin məktəbə buraxılmaması yoluxmanın artmamasına gətirib çıxaracaq.

Məsul katib hazırda məktəblərdə görülən tədbirlərdən danışıb: "Məktəblərdə sanitar - epidemioloji vəziyyət ən yüksək şəkildə nəzarətdə saxlanılır. Məktəblərin dezinfeksiya edilməsi, xüsusi ilə siniflərdə sıxlığın aradan qaldırılması, sosial məsafənin gözlənilməsi, şagirdlərin sinfə daxil olarkən dezinfeksiyaedici məhsullardan istifadə etməsi ilə bağlı lazımı imkanlar yaradılıb.

Müəllimlərin təhlükəsizliyinin təmin edilməsi məqsədi ilə onların sinifə qoruyucu maska ilə daxil olması tələb olunur.

Demək olar hər gün bu məsələlərlə bağlı sanitar - epidemioloji tədbirlər həyata keçiriləcək. Şagird və müəllimlərin temperaturunun nəzarətdə saxlanılacaq, hər hansı şübhəli vəziyyət müşahidə ediləcəyi halda həmin təhsilalan yaxud təhsilverənin tədrisdən uzaqlaşdırılması ilə bağlı dərhal tədbir görüləcək".

### Məktəblərlə yanaşı valideyinlərin də üzərinə xeyli məsuliyyət düşür

İ. Orucov ümumilikdə bu mövzuda insanlarda vahimə, narahatlıq yaradacaq məsələləri birmənalı şəkildə qəbul etmədiyini, lakin qaydalara riayət olunmasının vacibliyini vurğulayıb:

Bu məsələlərlə bağlı dünyanın müxtəlif ölkələrində hansı görülən səmərəli işlər Azərbaycan məktəblərində də uyğun şəkildə tətbiq ediləcək.

Ümumilikdə bu mövzuda insanlarda vahimə, narahatlıq yaradacaq məsələləri birmənalı şəkildə qəbul etmirəm. Düşünürəm ki, bununla bağlı məktəblərin üzərinə düşən vəzifələr aydındır və məktəb rəhbərləri aidiyyatı qurumlar, eyni zamanda Təhsil Nazirliyi nə mümkündürsə onu edəcək.

Ancaq bu zaman valideyinlərin də üzərinə xeyli məsuliyyət düşür. Şagird günün müəyyən saatı məktəbdə olur, dərsdən qayıtdıqdan sonra onun sağlamlığının təhlükəsizliyi, xəstəliyə yoluxmaması məqsədi ilə, mütləq şəkildə Operativ Qərərgahın tələb etdiyi qaydalara əməl edilməsi lazımdır.

Azərbaycanda dövlət səviyyəsində pandemiyanın geniş yayılmaması, yaxud yayıldığı arealın lokallaşdırılması istiqamətində görülən işlər bu gün bizə əsas yaradıb ki, məktəbləri aça bilək. Ancaq yenə də diqqətli olmalıyıq.

Əlbəttə ki, məktəblərin açılması bütövlükdə cəmiyyətin təhsilsizlik mühitinin ortadan qaldırılmasına gətirib çıxaran faktordur. Doğrudur, məktəblər bağlandığı zamanda da tədrisin fasiləsizliyini təmin etmək üçün mümkün olan tədbirlər həyata keçirildi. Amma hər halda biz fikirləşirik ki, ənənəvi təhsilə keçidin proqram mövzularının mənimsənilməsi istiqamətində keyfiyyət göstəricisi daha üstündür. Ümid edirəm ki, həm şagirdlər, həm də valideyinlər məsuliyyət nümayiş etdirəcəklər. Bütövlükdə cəmiyyət pandemiyanın daha geniş yayılmaması, eyni zamanda məktəblərin yenidən qapadılmaması istiqamətində məsuliyyət nümayiş etdirəcək.

### "Durumu elə idarə etmək lazımdır ki, yuxarı siniflərdə də ənənəvi tədris bərpa olsun"

"İlk olaraq ibtidai siniflərdə, növbəti mərhələlərdə isə daha yuxarı siniflərdə məktəblərin açılması gözlənilir. Mövcud durumu elə idarə etmək lazımdır ki, biz növbəti mərhələdə yuxarı sinif şagirdlərini ənənəvi təhsilə qovuşdura biləк. Hazırda pandemiya təhlükəsi bütün dünyada qalmaqda davam edir. Sadəcə Azərbaycanda vəziyyətin nəzarət altında olması səbəbi ilə tədrisin bərpası mümkün olur.

Bir daha ümüd edirəm ki, cəmiyyətimiz məsuliyyət nümayiş etdirərək idarəolunan vəziyyəti idarəolunmaz hala gətirib çıxarmayacaqlar və biz planlarşdırılmış şəkildə təhsil müəssisələrində ənənəvi təhsilin bərpasını həyata keçirə biləcəyik".

Qeyd edək ki, fevral ayının 1-dən etibarən məktəblərdə ənənvi təhsil hibrid formada bərpa ediləcək. Ali təhsil müəssisələrində ənənəvi təhsil bərpası ilə bağlı isə hələ ki, bir qərar yoxdur.

# Bizim əsgər: Şəhidin anası Xankəndidə yaşamaq, atası Azərbaycan vətəndaşlığı almaq istəyir

***"Bizim əsgər" rubrikası davam edir. Budəfəki qonağımız şəhid anası Maya Quliyevadır. O, bizə oğlu, şəhid Xalid Mahmud oğlu Hassan haqqında danışacaq. Qeyd edək ki, şəhidimizin atası əslən Misirdəndir. Şəhid Xalid Mahmud oğlu Hassan 26 yanvar 1995-ci ildə anadan olub. Doğulandan 6 ay sonra ailəsi atasının işi ilə əlaqədar Qazaxıstana köçüb. Sonra yenidən Azərbaycana qayıdıblar.***

Anası Maya Quliyeva: - Böyük oğlum Xalid birinci sinifə gedən ərəfələrdə mən onu da götürüb sənəd almaq üçün Azərbaycana gəlmişdim. O, birinci sinfə Bərdə şəhərində köçkünlərin məskunlaşdığı çadır şəhərciyində yerləşən 2 nömrəli Ağdam məktəbində gedib.

Xalid orta məktəbin 10-cu sinfini Qazaxıstanın Almatı şəhərində bitirib. 11-ci sinfi yenə Azərbaycanda - Ağdamın 2 nömrəli məktəbində başa vurub.

2014-cü aprelində həqiqi hərbi xidmətə gedib. Tovuz istiqamətində yerləşən N saylı hərbi hissədə qulluq edib.

Xalid hərbi xidmətdə kəşfiyyatçı olmaq istəmişdi, amma atası xarici ölkə vətəndaşı olduğundan bu, mümkün olmamışdı .

Həqiqi hərbi xidməti başa vurandan bir neçə il sonra - 2020-ci ilin iyulunda baş verən Tovuz döyüşləri oğlumu da səfərbərliyə müraciətə sövq etdi.

Lakin onu çağırmadıqlarından yenə iki dəfə Ağdam "hərbi komisarlığına" müraciət etdi.

Nəhayət 2020-ci il oktyabrın 8-də Xalidi səfərbərliyə çağırdılar. O, təlimlərdə olan zaman kəşfiyyat bölüyünün komandirindən dəstəyə götürülməsini istəmişdi.

Xalid Vətən müharibəsində ürəklə iştirak edib. 2020-ci il noyabrın 4-də Kəlbəcərdən Şuşaya gedən yolda şəhid olub.

- Xalid hansı bölgələrimiz uğrunda gedən döyüşlərdə iştirak etdi?

- Ağdərə, Talış, Suqovuşan istiqamətlərindəki döyüşlərdə iştirak edib.

Dediyim kimi, Tovuz döyüşlərindən sonra səfərbərliyə yazılmışdı, amma çağırmırdılar. 27 sentyabrda Vətən müharibəsi başlayan gün Ağdamda ilk şəhidimizi dəfn edəndən sonra yenə "hərbi komissarlığa" gedib könüllü yazıldı.

Sentyabrın 27-dən biz bir qrup yaradıb ön cəbhəyə yardımlar aparırdıq. Ərzaq, siqaret, su, tibbi ləvazimatlar çatdırırdıq. Bu işdə Xalid də mənimlə bərabər idi.

Dostlar sağ olsun. Onların sayəsində bunları edə bilirdik. Bizim evimiz ön cəbhəyə yaxın olduğundan toplanış yeri kimi istifadə edirdik. Həmən vaxt evimiz sanki bir ərzaq bazası idi.

Xalid hardasa oktyabrın 5-6-da bir dəfə də "hərbi komissarlığa" getdi. Nəhayət oktyabrın 8-də onu da çağırdılar.

Məni də özü ilə götürüb "hərbi komissarlığa" apardı. Üstündündəki şeylərini mənə təhvil verib oradan təlimlərə, təlimlərdən isə döyüşlərə yollandı.

Noyabrın 4-də Kəlbəcər-Şuşa yolunda şəhid oldu. Qəlpə düz alnının ortasından dəymişdi.

Oğlumun şəhid olması mənim onu vətənpərvərlik ruhunda böyütməyimin nəticəsiydi. Atası ərəb olan bir uşağı azərbaycanlı etmək, həm də görmədiyi torpaqlar uğrunda şəhid olması ... Anlatılmayacaq qədər çətindir..

- Əgər sağ qalsaydı bu il yanvarın 26-sında 26 yaşı olacaqdı. Ona ürəyinizdə hansısa deməədiyiniz sözlər qalıbmı?

- Ürəyimdə qalan bir sözüm var. Bilmirəm onu deməyim nə qədər doğru olacaq.

Bir dəfə nənəsi dedi: "Xalid, sən ərəbsən, Qarabağ sənin Vətənin deyil axı". (Anam onunla zarafat edirdi. Bilmirəm bəlkə də ona bir şey olmasın deyə, bunu deyirdi. Anam bilirdi ki, müharibə başlasa, Xalidi heç kim saxlaya bilməyəcək).

Dedi ki, - nənə, mən Saybalı kəndinin havasını almaq istəyirəm. Səni də aparacam kəndinizə. Görüm tapacaqsan evini...

Noyabrın 8-də gecə Qələbə xəbərini eşidən kimi saat 03:00 Bərdədən Ağdama - Şəhidlər Xiyabanına gəldik.

İlk dəfə o zaman ürəyimdə - "Xalidim sağ olsaydı, bu yollarda maşını necə sürərdi, onu bayrağımızla necə bəzəyərdi, Qələbəni birlikdə necə yaşayardıq?.." deyə fikirləşdim.

- Xalid evli idi, onun azyaşlı övladına atasını gələcəkdə necə təqdim edəcəksiniz?

- O, körpə qızını - Məryəmini çox sevirdi. Təlimlərdə olduğu vaxt bir gün mənə zəng edib dedi ki, "ana qızımı qucaqlayıb, qoxusunu içimə çəkmək istəyirəm". Dedim ki, "onu öpməyə və qucaqlamağa hələ çox vaxtın olacaq".

Amma ürəyim dözmədi. Uşağı götürüb təlim keçdiyi hərbi hissəyə apardım. Beş dəqiqəliyə gəlib uşağını qucaqladı və çox təəssüf ki, bu, onun övladını qucaqladığı son görüş oldu.

Mən Xalidimə Vətən sevgisini nə qədər ötürdüyümü oğlumun sentyabrın 27-də həyat yoldaşı və körpə qızını Sabirabadda qayınatasının evinə qoyanda bildim. Bu da Xallımda - Xalidi öz aramızda belə adlandırırdım - vətənpərvərlik hisslərinin necə qabarıq olmasından irəli gəlirdi. O, məhz Vətən sevgisinə görə bütün sevgilərinin üstündən xətt çəkdi.

Xalid bir də evlərə şəhid gəlməsin, uşaqlar atasız, qadınlar dul qalmasın deyə, 10 aylıq Məryəmini atasız, amma ən əsası övladı üçün azad vətən qoyub getdi.

Nəvəmə atasının gördüyü işlər, yüksəldiyi şəhidlik zirvəsi barədə ətraflı danışacam, Xalidi ona ən mükəmməl şəkildə tanıtdıracam. Əminəm ki, balaca Məryəm həmişə öz atası ilə fəxr edəcək.

- Söylədiniz ki, şəhidimizin atası əcnəbi vətəndaşıdır və deyəsən Azərbaycan pasportu almaq istəyir...

- Bəli, Xalidin atası Misir Ərəb Respublikasının vətəndaşıdır. 1992-1993-cü illərdə ölkəmizə gələn "İslam Nicat Təşkilatı"nın vasitəsi ilə məcburi köçkünlərə yardım göstərdi. Həmin təşkilat Bərdə şəhərində yerləşən çadır şəhərciyinə sığınmış yüzlərlə məcburi köçkünə himayədarlıq edirdi. Bizim də tanışlığımız məhz oradan başladı. Mən o zaman Ağdamın Saybalı kəndindən olan köçkün idim. "Bu gün-sabah qayıdarıq" deyə-deyə, düz 28 il Ağdamsız yaşadıq.

1995-ci ilin sentyabr ayında həyat yoldaşımın işini Qazaxıstana dəyişdilər. Biz də onunla getdik.

2010-cu ildə yenidən Azərbaycana qayıtdıq. Həyat yoldaşımın burada bizdən başqa kimsəsi yoxdur və o, Azərbaycanı öz vətəni bilir. Ona görə də buranı tərk etmir.

Bir oğlunu bu dövlət uğrunda Şəhid verən və ikinci oğluna sığınıb Azərbaycanda qalan əlil ata vətəndaşlıq almaq istəyir. Dəfələrlə bununla bağlı Dövlət Miqrasiya Xidmətinə müraciət etsək də, məsələ hələ ki həllini tapmayıb.

- Hazırda Vətənimizi qoruyan əsgərlərimizə nə deyərdiniz.

- Mən Birinci Qarabağ müharibəsindən demək olar ki, Ordumuzun yanında, içində olmuşam. Mənim anam Şamama İsa qızı Quliyeva Birinci Qarabağ müharibəsinin veteranıdır. Gəncliyim demək olar ki, çadır şəhərciklərində keçdi.

Sonra da bir müddət qürbətdə yaşamaq məni Vətənimə daha çox bağlayıb. İndi şəhadətə ucalan oğlum da körpəlikdən mənim çəkdiyim vətən nisgilini hiss edirdi. "Vətən" deyib ağladığım vaxtlar mənə heç bir kömək edə bilməyən, balaca əlləri ilə göz yaşlarımı silən oğlum Xalid, indi İkinci Qarabağ müharibəsində silah tutan əli ilə düşməndən qisas aldı.

Allah bir də xalqıma biz yaşadığımız köçkünlük həyatını yaşatmasın. Allah qan yaddaşımızı qorusun. Qorusun ki, biz keçmişimizdən ibrət alıb yenidən o səhvləri təkrarlamayaq.

Allah Azərbaycanımı və bu gün Azərbaycanı qoruyan əsgərlərimizi, igidlərimizi qorusun!

- Qarabağla bağlı hansısa bir arzunuz varmı?..

- Şəhid anası kimi bir arzum var: əgər yaxın gələcəkdə azərbaycanlı ailələri yaşamaq üçün Xankəndiyə köçürəcəklərsə, mən də o siyahıda olmaq istəyirəmg

Təbii ki, heç bir kin-küdurətə görə yox. Sadəcə, ermənilərin gözünün qarşısında - bəli, oğlumu məhz buna görə şəhid verdim deyib başıuca yaşamaq üçün(modern.az).





## "Vikipediya"nın polyak dili bölməsinə Azərbaycana həsr olunmuş məqalələr daxil edilib

AZƏRBAYCAN RESPUBLİKASININ DİASPORLA İŞ ÜZRƏ DÖVLƏT KOMİTƏSİ
www.diaspor.gov.az

***Polşa Azərbaycanlıları Şurasının üzvü, Varşava İqtisadiyyat və Humanitar Elmlər Universitetinin magistri Fəridə Əliyevanın təşəbbüsü ilə "Vikipediya"nın polyak dili bölməsinə Azərbaycana həsr olunmuş məqalələr daxil edilib.***

Qeyd edək ki, soydaşımız bu fəaliyyəti həm də "Qorqud" Vikipediya Metodik Mərkəzinin könüllüsü olaraq yerinə yetirir. O, artıq bir müddətdir ki, "Vikipediya"nın polyak dili bölməsi üçün məqalələr yazır və redaktələr edir, ölkəmizlə bağlı boşluqların aradan qaldırılmasına çalışır. Azərbaycan ordusunun general-mayoru Hikmət Həsənov, Xankəndi talanları, Tovuz döyüşləri, Gəncənin bombalanması haqqında məqalələr polyak oxucuların nəzərinə çatdırılıb.

Polşa Azərbaycanlıları Şurasının rəhbəri Fərid Cəfərlinin sözlərinə görə, soydaşlarımız Polşa-Azərbaycan Vikipediya Klubunun yaradılmasını planlaşdırırlar. Əsas məqsəd "Vikipediya"nın polyak dili bölməsində Azərbaycanla bağlı düzgün məlumatları əks etdirən məqalələrin yerləşdirilməsini təmin etməkdir. Klub üzvlərinə Milli Məclisin üzvü Elnur Allahverdiyevin təşəbbüsü ilə yaradılan "Qorqud" Vikipediya Metodik Klubunun təlimçiləri tərəfindən təlimlərin keçirilməsi də nəzərdə tutulur.




# Rusiya XİN ABŞ-a etiraz notası verib

***"Rusiyadakı etiraz aksiyaları ilə bağlı saxta məlumatların yayılması ilə əlaqədar ABŞ səfirliyinin nümayəndəsinə nota təqdim edilib".***

Bu barədə Rusiya Xarici İşlər Nazirliyinin (XİN) bəyanatında deyilir.

"Təxribat xarakterli mətnin sistemli şəkildə tirajlandığı Amerika rəqəmsal platformalarında Rusiya haqqında etibarsız "saxta" məlumatların kütləvi şəkildə yayımlanması, öz növbəsində bu məlumatların ABŞ-ın Moskvadakı səfirliyi tərəfindən də koordinasiyalı şəkildə yayılması qeydə alınıb", - sənəddə belə deyilir.

"Bu il 27 yanvar tarixində Xarici İşlər Nazirliyinə çağırılan ABŞ nümayəndəsinə etiraz notası təqdim olunaraq xəbərdar edilib ki, Rusiya tərəfi cavab tədbirləri görmək hüququnu özündə saxlayır", - deyə Rusiya XİN-in saytında yerləşdirilən bəyanatda vurğulanıb.

# ABŞ bu ölkələrə silah satışını dayandırıb

## Bayden administrasiyası silah sazişlərinə yenidən baxır

***ABŞ prezidenti Co Bayden administrasiyası Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ) və Səudiyyə Ərəbistanına silah satışına müvəqqəti qadağa qoyub.***



Bu barədə "The Wall Street Journal" Vaşinqtondakı rəsmi dairələrə istinadən məlumat yayıb.

Məlumata görə, Baydenin köməkçiləri keçmiş prezident Donald Trampın dövründə təsdiqlənmiş "milyardlarla dollarlıq silah tədarükünə dair əməliyyatların dəyərləndirmələrini aparırlar". Səudiyyə Ərəbistanına yüksək dəqiqlikli döyüş sursatlarının və BƏƏ-yə beşinci nəsil "F-35" qırıcılarının satışı ilə bağlı hissələr xüsusi olaraq nəzərdən keçirilir.

Qəzet qeyd edir ki, Vaşinqton İsraillə BƏƏ arasında ikitərəfli münasibətlərin tam normallaşdırılmasına dair razılaşmanın əldə edilməsi ilə əlaqədar olaraq göstərilən silahların Əbu-Dabiyə tədarükünə razılıq verib.

Qəzetin mənbələri bildirir ki, yeni administrasiya tərəfindən əvvəllər bağlanmış silah sazişlərinə təkrar baxılması təcrübəsində "qeyri-adi heç nə yoxdur" və "gecikmələrə baxmayaraq, əməliyyatların əksəriyyəti, çox güman ki, icra olunacaq".

Materialda qeyd olunur ki, Vaşinqton sözügedən silahların Yəməndə istifadə edilməyəcəyinə tam əmin olmaq istəyir.

# ZƏRİFİN UNUTQANLIĞI VƏ "ƏZİZ DOST"

## İrəvanda "Uran İslam Respublikası" naziri qədər nikbin deyillər

***İran xarici işlər naziri Məhəmməd Cavad Zərifin Moskvaya səfəri Cənubi Qafqaz, eləcə də Dağlıq Qarabağdakı münaqişənin həllində vasitəçi ölkələrə etdiyi turnenin bir hissəsi olub. Həm iqtisadi əlaqələrin möhkəmlənməsi naminə, həm də geosiyasi mövqeləri baxımından Tehranın bölgənin gələcək inkişafında iştirak etməsi çox vacibdir. Rusiyaya səfəri zamanı Vaşinqtona yeni prezident administrasiyasının gəlişi işığında İranla nüvə sazişi və perspektivləri qorumaq ənənəvi mövzusundan kənar qalmayıb.***

Məhəmməd Cavad Zərif Rusiyaya o qədər tez-tez gələn qonaq olub ki, özü son "koronavirus" ilində Moskvaya səfərlərin sayını itirib. Ümumiyyətlə, elə he-



sablamalarla "əziz dost" adlandırdığı Rusiya xarici işlər naziri Sergey Lavrovla danışıqlara başlayır.

"Neçə il dost olduğumuzu desək, deməli, yaşımızı təxmin edə bilərik", - deyə Zərif zarafat edib.

Mətbuat konfransında Rusiya və İran arasında bir sıra beynəlxalq problemlər üzrə tam qarşılıqlı anlaşmanın mövcudluğu vurğulanıb: Suriya, Yəmən, Əfqanıstan, Livan, Fars körfəzi bölgəsindəki təhlükəsizlik və əlbəttə ki, nüvə sazişi.

İranlı nazir qəsdən mətbuat konfransındakı açılış nitqində son mövzudan bəhs etməyib. Yalnız BMT Təhlükəsizlik Şurasının 5 daimi üzvü və Almaniyanın İranla 2015-ci ildə imzaladığı Birgə Hərtərəfli Fəaliyyət Planının (JCPOA) qorunub saxlanılmasının mümkün olacağına ümid etdiyini söyləyən Sergey Lavrovla tam razılaşdığını qeyd edib.

Rusiya XİN rəhbərinin sözlərinə görə, ilk növbədə, "İslam Respublikası tərəfindən nüvə sazişinin bütün tələblərinə əməl olunmasına şərait yaradacaq ABŞ-ın İrana qarşı sanksiyalarını ləğv etməsindən danışırıq".

Nüvə məsələsindən bəhs edən Sergey Lavrov mövzuya o qədər aludə olub ki, dili çaşıb, ölkəni "Uran İslam Respublikası" adlandırıb.

Xatırladaq ki, ABŞ-ın JCPOA-dan çəkilməsi və Tehrana qarşı sanksiyaların qaytarılmasından sonra İran rəhbərliyi nüvə sazişindəki öhdəliklərindən tədricən imtina etmək qərarına gəlib. Dekabrın əvvəlində İran parlamenti hökumətə uranın zənginləşdirmə dərəcəsini artırmağı və MAQATE ilə əlavə protokolun tətbiqindən imtina etmək barədə qərar qəbul edib.

Cənab Zərifin sözlərinə görə, parlamentarilərin qərarının icrası fevralın 21-23-də başlayacaq və bu, Tehranın anti-İran sanksiyalarını ləğv etmək üçün addımlar görmədiyi təqdirdə baş verəcək.

ABŞ prezidenti Co Bayden administrasiyası dəfələrlə İranla dialoq planları və müəyyən şərtlərlə JCPOA-ya qayıtmaq barədə danışıb, lakin bu, Tehranı planlarını dəyişdirməyə məcbur etməyib. İranlı nazir bildirib: "İndiyə qədər yalnız sözlər eşitdik, ancaq hərəkətlərə cavab verəcəyik". Həm o, həm də Sergey Lavrov, Fars körfəzi bölgəsindəki regional təhlükəsizlik problemi ilə əlaqələndirmək də daxil olmaqla, JCPOA parametrlərinin dəyişdirilməsinə qarşı olduqlarını bir daha açıq şəkildə göstəriblər.

"Xaricdən təhlükəsizlik almaq mümkün deyil, o yalnız əməkdaşlıq və dostluq yolu ilə təmin edilə bilər", - deyən Zərif İran əleyhinə siyasət yürüdən Fars körfəzindəki ərəb ölkələrinin Birləşmiş Ştatların dəstəyini cəlb etmək cəhdlərinə eyham vurub.

Bir gün əvvəl məlum olub ki, Vaşinqton Tehranın bölgədəki əsas rəqibi olan Səudiyyə Ərəbistanı ərazisində əlavə hərbi bazalar yaratmaq imkanlarını nəzərdən keçirir.

"İran Qərbin qapısını döyməyi dayandırıb və regional təhlükəsizliyə diqqət ayırmağa başlayıb və bu yalnız Fars körfəzi bölgəsindəki vəziyyətə aid deyil". Bunu "Kommersant"a Rusiya Beynəlxalq Məsələlər Şurası eksperti Polina Vasilenko bildirib.

Məhəmməd Cəfad Zərif Moskvaya Bakıdan gəlib, növbəti dayanacağı İrəvandır. Sonra onun Gürcüstan və Türkiyəyə səfərlər gözlənilir.

Səfərin əsas mövzusu Dağlıq Qarabağda atəşkəs barədə razılaşmaların imzalanmasından sonra regional əməkdaşlıq layihələrinin müzakirəsidir. İran həm Azərbaycan, həm də Ermənistanla həmsərhəddir, Dağlıq Qarabağdakı son döyüşlər zamanı ərazisinə 70-dən çox raket və mərmi düşüb, itkilər olub. Bundan əlavə, azərbaycanlılar İranın ikinci böyük etnik qrupudur (müxtəlif mənbələrə görə, 15 milyondan 20 milyona qədər insan), erməni diasporu 200 min nəfərdir, lakin xüsusi rol oynayır.

Polina Vasilenko deyib: "Hərbi əməliyyatlar dayandırıldıqdan sonra İran Türkiyənin nüfuzunun artması və sərhədlərindəki hərbi varlığı, pantürkist duyğuların güclənməsi və qaz sahəsində rəqabətlə qarşılaşıb, çünki ötən ilin dekabr ayında Türkiyə və Azərbaycanın enerji nazirləri Türkiyədən Naxçıvana təbii qaz tədarükünə dair anlaşma memorandumu imzalayıblar. Bütün bu amillər İran-Azərbaycan münasibətlərinin dinamikasına təsir göstərə bilər".

Buna baxmayaraq, İran həm Bakı, həm də İrəvanla faydalı əməkdaşlığı davam etdirməyə çalışır. Ekspert Azərbaycan və İranın ümidverici Şimal-Cənub nəqliyyat dəhlizinin inkişafı ilə bağlı işlərini, ortaq şiə gündəmini xatırladıb.

Polina Vasilenko bildirib: "Ermənistanın Avrasiya İqtisadi İttifaqında (AİI) İran maraqlarını lobbiçilik etməsini unutmamalıyıq ki, bu da 2018-ci ildə sərbəst ticarət zonasının yaradılması barədə müvəqqəti razılaşmanın imzalanmasına səbəb olub. Pandemiyaya baxmayaraq, 2020-ci ildə AİI ilə İran arasında ticarət dövriyyəsi 2% artıb və bu, ABŞ-ın sanksiya təzyiqi altında olan Tehrana kömək edib".

Bir gün əvvəl Bakıya səfəri zamanı cənab Zərif İran şirkətlərinin Dağlıq Qarabağdakı zədələnmiş obyektlərin yenidən qurulmasında iştirak etməyə hazır olduğunu söyləyib.

Tehranın prioritetləri enerji, tikinti, kənd təsərrüfatı və nəqliyyat dəhlizləridir.

İran özünü "Bakı və İrəvan üçün Fars və Oman körfəzlərinə açılan qapı" kimi təqdim edir. "Valday" beynəlxalq müzakirə klubunun eksperti Fərhad Məmmədov deyib: "Müharibədən əvvəl Bakı iranlı iş adamlarının Qarabağa səfərlərini görüb və təbii ki, bundan narazı qalıb, baxmayaraq ki, rəsmi olaraq İran Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyib".

Geri qaytarılan ərazilərin bərpasına gəldikdə, Məmmədovun fikrincə, "İran üçün yaşıl işıq yandırılır" və hətta Qərb ölkələri tərəfindən Tehrana tətbiq olunan sanksiyalar maneə olmayacaq. "Artıq bu cür çətinliklərlə qarşılaşdıq və alternativ həllər tapmağı öyrəndik".

"Kommersant"ın İrəvandakı həmsöhbətləri elə də nikbin deyil. "Əlbəttə, Zərifin İrəvana səfəri zamanı, Bakıda olduğu kimi, eyni sözlər eşidiləcək", - deyən İrəvan Qafqaz İnstitutunun direktoru Aleksandr İskandaryan "Kommersant"a açıqlamasında bildirib: "Ancaq bundan sonra aktiv iqtisadi qarşılıqlı əlaqə çətin ki, başlasın".

Mütəxəssis bölgədəki bəzi nəqliyyat marşrutlarının iqtisadi deyil, siyasi əhəmiyyət daşıdığını xatırladıb. Xüsusilə, Ermənistan və İranı birləşdirə bilən Naxçıvan ərazisindən keçən dəmir yolu. Ekspertin fikrincə, layihənin perspektivlərini qiymətləndirmə həddindən artıq suallar doğurur.

***Marianna Belenkaya,***
***Kirill Krivoşeyev***
***"Kommersant", 27.01.2021***

**Ermənistan-Azərbaycan, ərazilərin işğaldan azad olunması haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi.**



Azərbaycan Respublikası
Medianın İnkişafı Agentliyi

# Dağlıq Qarabağ həqiqətləri-Özümüz deyib-özümüz eşitməməliyik!

## Elçin Mirzəbəyli: "Dağlıq Qarabağ həqiqətlərinin dünyaya çatdırılması, Azərbaycan mediası ilə xarici media təsisatlarının, xüsusilə etibarlı hesab olunan media təsisatlarının arasında əməkdaşlığın qurulması və genişləndirilməsi nəticəsində baş verə bilər"

***Azərbaycan öz torpaqlarını işğaldan azad etməsi ilə dünyaya bu torpaqların əsl sahibinin məhz Azərbaycan xalqı olduğunu əyani sübut etmiş olsa da, politoloqlar əsl müharibənin bundan sonra başladığını söyləyirlər. Çünki, işğalçı dövlət olan Ermənistan 30 ilə yaxın müddətdə Azərbaycanın torpaqlarında tarixin xalqımıza məxsus izlərini silmək üçün hər cür vandallıq törədiblər. İşğaldan azad edilmiş torpaqlarımızın görüntüləri, xarabalığı xatırladan kənd və şəhərlərimiz, dağıdılmış abidələrimiz mənfur düşmənin əsl simasını üzə çıxartdı. İşğal altında saxlanılan torpaqlarımızda daşı-daş üstündə qoymayan düşmənin iç üzü Azərbaycanın bu işğalçılığa son qoyması ilə üzə çıxdı.***

Artıq dünya Azərbaycanın hansı bir dövlətlə qonşu olduğunu, işğalçılıq siyasətindən əziyyət çəkdiyini görmüş oldu. Bu günlərdə fransız fotoqraf Reza Deqqatinin Şuşadan çəkdiyi şəkillər isə işğalçı Ermənistanın simasının olduğu kimi ortaya qoydu. Düşmən insanlığa sığmayan əməl törədərək xan qızı Xurşudbanu Natəvanın məzarından sümüklərini çıxardaraq aparıb. Azərbaycan əsilli fransız fotoqraf Reza Deqati bu dəfə işğaldan azad edilən Ağdamda Xan qızı Natəvanın dağıdılmış məzarından fotolar və video paylaşıb. "Facebook" səhifəsində sözügedən məzardan danışan Deqati bildirib ki, Xurşudbanu Natəvanın sümükləri məzarından çıxarılaraq aparılıb: "Hər şeyin, ehtimal ki, şairin çəkdirdiyi su kəmərindən su içmiş insanlar tərəfindən qəsdən məhv edildiyini, Natəvanın məzarına hücumu və hətta bütün sümüklərinin aparıldığını görüb böyük şok keçirdim. Şairdən qorxan kimdir?" deyə soruşub.

Deqati öz səhifəsində şairə haqqında məlumatlar da verib: "Azərbaycanın bütün dövrlərinin görkəmli şairi, Pənahəli xan soyundan olan Xurşudbanu Natəvan 1832-ci il avqustun 15-də Şuşada anadan olub. O, Qarabağın son hökmdarının varisi idi və ailə sərvətinin böyük bir hissəsini humanitar fəaliyyətə, o cümlədən, mühəndislik sənətinin şah əsəri olan tarixi Şuşa su kəmərinin çəkilməsinə xərcləmişdi. Natəvan atası və digər ailə üzvləri ilə birlikdə Ağdam şəhərinin 18-ci əsrə aid kompleksində



dəfn edilmişdi".

"1992-ci ildə şəhər ermənilər tərəfindən ələ keçirilməzdən əvvəl mən bu mədəni mərkəzə baş çəkmiş və məzar daşının və üzərində ucaldılmış heykəlin memarlıq üslubuna heyran olmuşdum. 2020-ci ilin noyabrında şəhər işğaldan azad edildikdən sonra mən yenidən həmin yerə qayıtdım", - deyə Deqati bildirib.

Düşmənin işğal dövründə o torpaqlarda qalan məzarlıqlara divan tutması fotoqrafın obyektivində dünyaya işğalçı Ermənistanın əsl simasını göstərmiş oldu. Politoloqların fikrincə, işğalçı dövlətin bu əməllərindən dünya ictimaiyyəti xəbərsiz qalmamalıdır.

Politoloq, jurnalist Elçin Mirzəbəyli deyir ki, Azərbaycan işğal altında saxlanılan torpaqlarımızın mənzərəsini dünyaya, haqq-ədaləti qoruyan beynəlxalq təşkilatların diqqətinə çatdırmalı, bunu törədənlərin cəzalandırılmasını tələb etməlidir. Ekspertin fikrincə, bu məsələdə dünya mediasının imkanlarından geniş istifadə etmək lazımdır: "Dağlıq Qarabağ həqiqətlərinin dünyaya çatdırılması, Azərbaycan mediası ilə xarici media təsisatlarının, xüsusilə etibarlı hesab olunan media təsisatlarının arasında əməkdaşlığın qurulması və genişləndirilməsi nəticəsində baş verə bilər. Azərbaycanda bunun üçün hansısa resursların hazırlanaraq regional miqyasa çıxardılmasının tezliklə baş tutması mümkün deyil. Çünki, buna vaxt lazımdır. Düşünürəm ki, indiki şəraitdə xaricdə əlaqələri genişləndirmək və qarşılıqlı iş birliyi yaratmaqla bu sahədə irəliləyişlər əldə etmək mümkündür".

Politoloq jurnalist bildirir ki, yerli KİV -də bu məsələni diqqətdən kənarda saxlamamalıdır: "Söhbət azərbaycandilli mediadan gedirsə, bunu ölkə çərçivəsində etmək mümkündür. Biz ən yaxşı halda Türkiyə arealına çıxa bilərik. Bu prosesin Türkiyə üzərindən həyata keçirilməsi vacib şərtlərdən biridir. Ona qədər də Azərbaycan mediası aparılacaq islahatlar nəticəsində xarici media təsisatları ilə qarşılıqlı əlaqələrin qurulmasına nail ola bilər. Bu istiqamətdə də artıq müəyyən işlərə başlanılıb. Türkiyə ilə yaradılan media platforması buna imkan verəcək. Əslində bu platforma mahiyyət etibarilə də bunu etiva edir".

Bir sözlə ekspert hesab edir ki, dünya media vasitəsilə Dağlıq Qarabağ həqiqətləri, işğalın nəticəsi, mənfur düşmənin əsl siması göstərilməlidir.

Qeyd edək ki, Erməni lobbisinin xüsusi mövqeyə malik olduğu xarici kütləvi informasiya vasitələrində nə qədər ikili standartlar, qərəzli yanaşma olsa da, internetin, innovativ informasiya texnologiyalarının sayəsində baş verən hadisələr anındaca dünya mediasının gündəminə düşür. Ekspertlərin fikrincə Azərbaycan müharibə dövründə aparılan informasiya müharibəsindən də qalib çıxdı. Bu işdə Cənab Prezidentin birmənalı rolu oldu. Həmin dövrdə Prezident İlham Əliyevin müsahibələri təkcə ölkə mediasının deyil, dünya kütləvi informasiya vasitələrinin də diqqət mərkəzində oldu. Moldovanın "NOİ.md" informasiya portalında Prezident İlham Əliyevin Rusiyanın TASS informasiya agentliyinə müsahibəsində səsləndirdiyi fikirləri dərc edildi. Gəncədə baş verən erməni terroru Almaniya mediasının da diqqət mərkəzində oldu. Bu ölkənin "TRT Deutsch" xəbər portalında dərc olunan məqalədə Azərbaycan ilə Ermənistan arasında razılaşdırılmış atəşkəsin Ermənistan tərəfindən pozulduğu vurğulandı. Sevindirici haldır ki, xarici kütləvi informasiya vasitələrində Azərbaycan- Ermənistan müharibəsi zəminində yayımlanan məlumatlar təkcə xəbərdən ibarət olmadı. Qətərin kütləvi informasiya vasitələrində də ermənilərin dinc əhaliyə terror xarakterli hərbi hücumlarına dair informasiyalar verildi. Bu ölkənin ərəb dilində nəşr olunan "Əl-Raya" qəzetində Ermənistanın Gəncə şəhərinə raket hücumu nəticəsində şəhərin mərkəzində yaşayış binalarının dağıdılması, mülki əhalinin məhv edilməsi ilə bağlı xəbər dərc edildi. Prezidentimiz dəfələrlə nüfuzlu dünya kanallarına Qarabağ müharibəsi, erməni işğalçılığı, ordumuzun qələbələri haqqında müsahibələr verdi.

14 oktyabr 2020 - ci il Prezidentimiz Haber türk kanalına müsahibə verdi. Müsahibəsində ermənilərin mülki şəxslərə, əliyalın insanlara qarşı qəddarlığını bir daha vurğuladı. O həmçinin qeyd etdi ki, erməniləri bütün cəhdləri boşdur, nə xalqımız bu təxribatlardan qorxmur, nə də ordumuz əsla geri çəkilməyəcək. Prezidentimiz qətiyyətlə bildirdi ki, münaqişə Ermənistan və Azərbayacan arasında gedir, qondarma "Dağlıq Qarabağ Respublikası" əsla tərəf kimi iştirak edə bilməz. Həmçinin Minsk qrupunun dəyişdirilməsinin, Türkiyənin də bu masada olmasının mütləq olduğunu vurğuladı. Azərbaycan dövləti də informasiya müharibəsində də ardıcıl, prinsipial, davamlı mübarizə apardı, informasiya texnologiyalarının verdiyi imkanlarla xarici media nümayəndələrini, jurnalistləri Qarabağ həqiqətləri ilə operativ məlumatlandırdı. Hətta xarici KİV-lərin işğaldan azad olmuş torpaqlara səfəri təşkil olundu. Xarici media nümayəndələrinə işğalçı dövlətin iç üzünü görmək, bunu təmsil olunduqları KİV-lərdə işıqlandırmaq fürsəti yaradılıb.

Ekspertlər hesab edir ki, bu istiqamətdə iş bundan sonra da davam etdirilməlidir. Mütəmadi olaraq təhlükəsizlik tədbirləri görülən yerlərdə, minalardan təmizlənmiş ərazilərdə düşmənin işğal altında saxladığı torpaqlarımızda apardığı mədəni, tarixi, ekoloji və mənəvi terror xarici KİV-lərdə işıqlandırılmalıdır. İşğaldan azad edilmiş torpaqlarımıza jurnalistlərin səfərlərini təşkil etməklə xarabalığa çevrilmiş yurd yerlərimizdən reportajlar beynəlxalq auditoriyaya çatdırılmalıdır. Eyni zamanda sosial platformalar üzərindən Dağlıq Qarabağ həqiqətləri, işğalın iç üzü dünyaya bəyan edilməlidir.

***Mələk Eyvazlı***

**Səhifə Azərbaycan Respublikası Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**

# Bakıda idarə rəisinə hökm oxundu



***"Baklift-1" İxtisaslaşdırılmış İstehsalat İdarəsinin rəisi olmuş Taryel Qasımovun cinayət işi üzrə məhkəmə baxışı üzrə məhkəmə prosesi başa çatıb.***

Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Ramella Allahverdiyevanın sədrlik etdiyi iclasda hökm oxunub. Taryel Qasımova il 5 il 6 ay şərti azadlıqdan məhrumetmə cəzası verilib və Cinayət Məcəlləsinin 70-ci (şərti məhkumetmə) maddəsi tətbiq edilib.

Onun cəzası 1 il sınaq müddəti ilə şərti hesab edilib.

Taryel Qasımovun barəsində cinayət işi Baş Prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində cinayət işi açılıb.

Ona Cinayət Məcəlləsinin 179.3.2-ci (külli miqdarda ziyan vurmaqla mənimsəmə) maddəsi ilə ittiham verilib.

# Daha bir korona xəstəsinin məhkəməsi başlayır



***Hacıqabul rayonunda koronavirus xəstəsi olan daha bir şəxsin barəsində olan cinayət işi üzrə ibtidai istintaq başa çatıb.***

Teleqraf.com-un xəbərinə görə, Əvəz İsmayılzadənin barəsində olan cinayət işi baxılması üçün Hacıqabul rayon Məhkəməsinə göndərilib.

İş araşdırılması üçün hakim Həmid Əzizovun icraatına verilib.

Yaxın günlərdə məhkəmə başlanacaq.

İttihama görə, Hacıqabul rayon polis şöbəsinin (RPŞ) əməkdaşları ilə TƏBİB "Hacıqabul rayon mərkəzi xəstəxanası" publik hüquqi şəxsin həkim briqadası birgə COVID-19 virusuna yoluxan və evində müalicə alan şəxslərlə bağlı reyd keçirib.

Reyd zamanı koronavirus testinin nəticəsi pozitiv çıxan Həmidov küçəsi ev 76 ünvanında müalicə alan 1980-ci il təvəllüdlü Əviz İsmayılzadənin evində olmadığı aşkar edilib.

Koronavirus xəstəsi ilə əlaqə saxlanılıb və onun Astara rayonunda olduğu müəyyən edilib.

Karantin qaydalarını kobud şəkildə pozaraq, yaşadığı ünvanı tərk edən şəxs müəyyən edilmiş tibbi prosedurlar gözlənilməklə yaşadığı evə qaytarılıb.

Onun barəsində Hacıqabul rayon polis şöbəsinin istintaq və təhqiqat bölməsində Cinayət Məcəlləsinin 139-1.1 maddəsi ilə cinayət işi başlanılıb.

# Cəlilabadda narkotacirlər saxlanıldı

***Cəlilabad rayon polis şöbəsinin əməkdaşlarının keçiridiyi ardıcıl əməliyyat tədbirləri ilə narkotiklərin qanunsuz dövriyyəsi ilə məşğul olan rayon sakinləri saxlanılıb.***

Bu barədə Daxili İşlər Nazirliyinin mətbuat xidmətinin Lənkəran regional qrupundan bildirilib.

Cəlilabad rayon polis şöbəsi əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat tədbiri nəticəsində narkotiklərin qanunsuz dövriyyəsində şübhəli bilinən rayon sakini Y.Əliyev saxlanılıb.

Onun üzərinə keçirilən baxış zamanı 3 bükümdə ümumi çəkisi 12 qramdan artıq narkotik vasitə heroin və 1 ədəd "beşbarmaq" aşkar olunaraq götürülüb.

Aparılan araşdırmalarla Y.Əliyevə narkotik vasitəni satan şəxsin Cəlilabad şəhər sakini A.Nağıyev olduğu müəyyən edilib və o saxlanılıb.

Sonuncunun üzərinə keçirilən baxış zamanı ondan 1 büküm psixotrop maddə metamfetamin aşkarlanıb.

Keçirilən əməliyyat-axtarış tədbirlərinin davamı olaraq narkotiklərin qanunsuz dövriyyəsində A.Nağıyevlə əlbir olan rayon sakini F.Abbasov da müəyyən edilərək saxlanılıb və onun üzərinə keçirilən baxış zamanı 167 qramdan artıq narkotik vasitə heroin aşkarlanaraq götürülüb.

Faktlarla bağlı araşdırma aparılır.

# Arvadından şübhələndi, amma qardaşı arvadının qanını tökdü - Şok olay

***Xaçmaz rayonunda qardaşı arvadını bıçaqlamaqda ittiham olunan 1977-ci il təvəllüdlü Ramiz Mirzəyevin cinayət işi üzrə məhkəmə prosesi başa çatıb.***



Teleqraf.com-un xəbərinə görə, Ramiz Mirzəyev arvadı Rənanın ona xəyanət etdiyini düşünüb.

O, yaşadığı evin həyətində arvadı ilə mübahisə edib və bıçaqla onun üzərinə yeriyib. Rəna həyətdəki birmərtəbəli tikiliyə daxil olub. Ramiz arvadının gizləndiyi tikilinin qapısını açmaq məqsədi ilə bıçağı yaxınlıqdakı soyuducunun üstünə qoyub.

Bu zaman Ramiz Mirzəyevin qardaşı arvadı Şərəfnaz Rənanı qorumaq üçün ona kömək məqsədi ilə soyuducunun üstündə olan bıçağı götürüb və qaçıb.

Ramiz Mirzəyev bıçağı qardaşı arvadını əlindən alıb, onun kürək və qarın nahiyələrinə vurub.

İstintaq orqanı tərəfindən Ramiz Mirzəyevin barəsində Cinayət Məcəlləsinin 126.2.2-ci (zərərçəkmiş şəxsin xidməti vəzifəsini və ya ictimai borcunu yerinə yetirməsi ilə əlaqədar onun özü və ya yaxın qohumları barəsində qəsdən sağlamlığa ağır zərərvurma) maddəsi ilə ittiham elan edilib.

Cinayət işi üzrə təqsirləndirilən şəxs qismində ifadə verən Ramiz Mirzəyev elan olunmuş ittiham üzrə özünü təqsirli bilməyib. O, qeyd edib ki, ailə başçısıdır, 12 yaşlı övladı var, yoldaşı evdar qadındır, ata və anası vəfat edib.

Ailəsini yalnız fəhləlik etməklə dolandırdığını söyləyən Ramiz Mirzəyev deyib ki, əsəb xəstəsi olub. Arvadının xəyanət etdiyini düşündüyünü deyən Ramiz Mirzəyevin sözlərinə görə, bu səbəbdən onunla mübahisə edib.

Qeyd edib ki, arvadını bıçaqla vurmaq istəyib, bu zaman qardaşı arvadı köməyə gəlib: "Qardaşım arvadı bıçağı götürüb qaçdı, mən isə onun arxasınca düşdüm. Bağda onu tutaraq əlindən bıçağı aldım. Bıçaq onun kürək nahiyəsinə dəydi".

Ramiz Mirzəyevin ifadəsinə görə, qardaşı arvadını vurmaq istəməyib: "Ona bıçaqla xəsarətin hansı şəraitdə yetirməsini xatırlamıram. Çünki həmin vaxt özümdə olmamışam. Hadisədən sonra əsəbi vəziyyətdə bir neçə dəfə özümə də xəsarət yetirmək istəmişəm".

Cinayət işi üzrə zərərçəkmiş şəxs qismində ifadə verən Sərfinaz Mirzəyeva bildirib ki, təqsirləndirilən şəxs spirtli içki içdikdə çox əsəbi olur: "Bu halda arvadı Rəna ilə mübahisələr edib, ona görə də Ramizin arvadı evdən olan bıçaqları gizlədib.

Hadisə günü Rəna Ramizin əlində bıçağı gördükdən sonra dayandığı yerdən qaçaraq həyətdəki evə girdi, otağın qapısını içəridən bağladı. Ramiz onun dalınca gedərək bağlı qapını əlləri ilə döyərək, açmağı tələb etdi.

Bu vaxt əlindəki bıçağını qapının ağzında soyuducunun üzərinə qoydu. Mən də bıçağı götürərək bağa tərəf getdim. Ramiz dalımca qaçdı. Əlimdəki bıçağı yerə atdım və yenə də qaçdım. Bu zaman o, götürdüyü bıçağı kürək nahiyəmdən vurdu".

Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə Ramiz Mirzəyev 7 il müddətinə azadlıqdan məhrum edilib.

Hökmdən narazı qalan Ramiz Mirzəyev apelyasiya şikayəti verib. Ramiz Mirzəyev şikayətində barəsində humanist addım atılmasını xahiş edib.

Ramiz Mirzəyev əməlini Cinayət Məcəlləsinin 126.1-ci (qəsdən sağlamlığa ağır xəsarət yetirmə) maddəsinə tövsif edilməsini, barəsində həbs olmayan cəza növünün tətbiq edilməsini istəyib.

Ramiz Mirzəyevin şikayəti araşdırılması üçün Sumqayıt Apelyasiya Məhkəməsinə göndərilib. Şikayət hakim Ruhiyyə Əsgərovanın sədrlik etdiyi kollegiyada araşdırılıb.

Apelyasiya şikayətinin dəlillərini araşdıran hakim heyəti sonda qərar elan edib. Qərara görə, apelyasiya şikayəti qismən təmin edilib, Ramiz Mirzəyevin cəzası 6 ilə endirilib.

Ramiz Mirzəyev kasasiya şikayəti verib. O, barəsində daha yüngül cəznın təyin olunmasını istəyib.

Ramiz Mirzəyevin şikayəti araşdırılması üçün Ali Məhkəməyə göndərilib. Hafiz Nəsibovun sədrliyi ilə baş tutan iclasda kasasiya şikayətinin dəlilləri araşdırılıb, sonda qərar elan edilib.

Ramiz Mirzəyevin kasasiya şikayəti təmin olunmayıb.

# Bakıda gəlini öldürən qayınata həbs edildi

***Bakının Nəsimi rayonunda baş verən dəhşətli qətlin üstü açılıb.***

Yanvarın 27-də Nəsimi rayon ərazisində zibil qutusunda tapılan meyitin 1989-cu il təvəllüdlü Banu Məmmədova olduğu müəyyən edilib.

Hüquq-mühafizə orqanları əməkdaşlarının keçirdiyi əməliyyat nəticəsində Banu Məmmədovanı qətlə yetirən qayınatası İdris Məhərrəmov müəyyən olunaraq saxlanılıb.

Qeyd edək ki, yanvarın 27-də saat 01 radələrində Nəsimi rayonu 4-cü mikrorayon, Əlisgəndər İsgəndərov küçəsində məişət tullantılarının atılması üçün nəzərdə tutulmuş zibil qutularında 4 ədəd kisədə və 1 ədəd selofan torbada doğranmış vəziyyətdə naməlum qadın



meyitinin hissələrinin aşkar edilməsi barədə rayon prokurorluğuna məlumat daxil olub.

Cinayət prosessual qanunvericiliyinin tələblərinə əsasən, prokurorluq əməkdaşları tərəfindən məhkəmə-tibb ekspertinin iştirakı ilə hadisə yerinə və meyitə baxış keçirilib, digər prosessual hərəkətlər yerinə yetirilib.

Faktla bağlı Nəsimi rayon prokurorluğunda Cinayət Məcəlləsinin 120.1-ci (qəsdən adam öldürmə) maddəsi ilə cinayət işi başlanıb, müvafiq ekspertizalar təyin edilib.

# Yeni qaz sayğacları artıq sərfiyyat hesablayır? - “Azəriqaz”ın Baş direktoru danışdı



***Son günlər ölkə ərazisində abonentlərin yeni qaz sayğaclarının dəyişdirilməsi ilə bağlı ictimaiyyətdə müəyyən şayiələr yayılıb. Yeni quraşdırılan qaz sayğaclarının artıq sərfiyyat hesablaması, abonentlərin artıq xərc ödəməsi ilə bağlı yayılan məlumatlar vətəndaşlar arasında çaşqınlıq yaradıb.***

“Unikal” xəbər verir ki, “Azəriqaz” İstehsalat Birliyinin baş direktoru Ruslan Əliyev Trend-ə müsahibəsində bu və digər suallara aydınlıq gətirib.

***- Ruslan müəllim, son günlər sosial şəbəkələrdə belə bir məlumat yayılıb ki, guya “Azəriqaz” tərəfindən abonentlərə quraşdırılan yeni mexaniki sayğaclar əsassız olaraq artıq sərfiyyat yazır. Bu barədə nə deyə bilərsiniz?***

- “Azəriqaz” İstehsalat Birliyi bununla bağlı “Açıq qapı” günləri təşkil edir. Yeni gətirilən sayğaclarla bağlı yaranmış sualları cavablandırmaq məqsədilə hər həftənin 2-ci və 4-cü günləri saat 15:00-dan 17:00-a kimi vətəndaşlar onları maraqlandıran suallara cavab ala bilərlər.

Sayğacların dəyişdirilməsinə gəlincə isə bildirmək istəyirəm ki, biz son 10 ildə 2 növ sayğacdan istifadə edirik. Bunlar elektron tipli mexaniki sayğaclar və əvvəl ödənişli (Smart) sayğaclar. Bu gün də həmin növ sayğaclardan istifadə edilir. Yenə də mexaniki və smart sayğaclardan istifadə edirik. Yeni gətirilən sayğaclar da smart və mexaniki sayğaclardır. Artıq ən müasir smart sayğacları Bakıya gətirilib və 200 ədədi sınaqdan keçirilib. Həmin sayğaclardan artıq 30 min ədədini gətirmişik. Gələn ayın əvvəli əlavə olaraq 60 min smart sayğac Bakıya gətiriləcək. Bundan sonra həmin sayğacların quraşdırılmasına başlanacaq. Bu sayğaclar əvvəlkilərdən bir çox funksiyası ilə fərqlənir. Bu sayğaclara nəzarət və onun idarə edilməsi daha asandır. Həmin smart sayğaclarda əvvəlki sayğaclar kimi koda düşmə, bloklanma, kartın oxunmaması problemləri yoxdur.



Yeni quraşdırılan mexaniki elektron tipli sayğaclar isə sadəcə mexaniki sayğaclar kimi fəaliyyət göstərməyəcək. Bu sayğaclarda əlavə xüsusi qurğular quraşdırılır ki, bu qurğu vasitəsilə sərfiyyat kənardan görünəcək, klapan vasitəsilə borclu abonentlərin qazı mərkəzdən açılıb bağlanacaq. Həmin sayğaclar onlayn rejimdə işləyəcək. Biz hər hansı bir ərazidə, hər hansı bir binada köhnə smart tipli sayğaclarda sərfiyyatı görə bilmirdik. Abonent qaz yükləyib istifadə etməyincə biz onun sərf etdiyi qazı müəyyən edə bilmirdik. Biz xüsusi balansımızı həyata keçirə və aylıq itkiləri, ərazidən yığım səviyyəsini hesablaya bilmirdik. Amma indi quraşdırılan sayğaclar onlayn rejimdə olduğu üçün bu prosesə nəzarət etmək mümkün olacaq.

Sayğacların artıq pul yazmasına gəlincə isə “Azəriqaz” İstehsalat Birliyi olaraq abonentlərin hər birinin şikayətlərini araşdırmağa borcluyuq və hazırıq. Hazırda müraciətlər əsasən qaz sərfiyyatının çox olması və vətəndaşların artıq pul ödəməsi ilə bağlıdır. Bu müraciətlər əsasən noyabr-dekabr aylarında qaz sərfiyyatının çoxluğu ilə bağlıdır. Bilirsiniz ki, hazırda qazın bir kubmetri 20 qəpikdir. Cənab Prezidentin vətəndaşlara olan dəstəyi nəticəsində əhali abonentinə xüsusi limit verilib. Əhali abonerntində 2200 kubmetr qaz sərfiyyatı üçün qazın bir kubmetri 10 qəpikdən hesablanır. 2200 kubmetrdən sonra hər kubmetrə görə əhali üçün bir kubmetr 20 qəpikdən hesablanır.

***- Mexaniki sayğaclardan imtina edən abonentlər Smart sayğaclarla təmin edilə bilərmi?***

-Bəli. Abonentlərin təklif və şikayətlərini dinləməyə hazırıq. Biz əvvəlki sayğaclardan imtina etməmişik. Əgər kimsə müraciət etsə ki, onun evinə əvvəldən ödəniş (Smart) sayğacı quraşdırılsın, onun xahişi nəzərə alınacaq və abonentə yeni Smart sayğac quraşdırılacaq.

***- Yeni sayğacların quraşdırılması prosesi nə yerdədir?***

- Artıq müxaniki sayğacların quraşdırılmasına başlanılıb. Hazırda bu proses davam etdirilir. Bu günə qədər 17 yaşayış binasında sayğaclar xüsusi qurğular əlavə edilməklə quraşdırılıb. Qeyd edim ki, bu sayğaclar quraşdırılan əlavə qurğu vasitəsilə mərkəzdən idarə olunacaq. Abonentə istifadə etdiyi qaz sərfiyyatına görə sms-bildiriş gələcək və həmin bildiriş gələn gündən sonra abonentə bir ay vaxt veriləcək. Bir ay müddətinə qədər biz həmin abonentin qazını kəsməyəcəyik. Bir aydan sonra abonent borcunu ödəməsə, onun qazı avtomatik kəsiləcək.

***- İşğaldan azad olunan ərazilərin qazlaşdırılması ilə bağlı vəziyyət nə yerdədir?***

- İşğaldan azad olunan ərazilərdə qaz xətlərinin çəkilməsi ilə bağlı ilkin layihə işlərinə başlanılıb. Dövlətin müəyyən etdiyi proqram üzrə işlər davam etdirilir. Həmin ərazilərə magistral qaz kəməri çəkilməlidir. Bununla bağlı hələ ki, layihə axtarış işləri gedir. Konkret hansısa işlərə başlanması vaxtı hələlik məlum deyil. İlkin mərhələdə Araz çayı boyunca magistral xəttin çəkilməsi nəzərdə tutulur. Oradan isə Qarabağ rayonlarına və Dağlıq Qarabağa qaz xətləri paylanacaq. Bu ilkin layihədir və ola bilər ki, layihə dəyişsin.

Artıq işğaldan azad olunan ərazidə köhnə qaz xətləri keçən yerlər müəyyən edilib və inventarlaşdırılıb. Magistral xətt çəkiləndən sonra tələbat müəyyənləşdiriləcək, hansı ərazidə sənaye müəssisələrinin olacağı dəqiqləşdiriləcək. Əhalinin yerləşdiriləcəyi ərazilər və bu ərazilərə görə tələbat müəyyən edilməlidir.

***- “Azəristiliktəchizat” Açıq Səhmdar Cəmiyyətinin “Azəriqaz” İstehsalat Birliyinə olan borc məsələsi bir müddət gündəmdə oldu. Bu məsələ həllini tapdımı?***

- Bəli, bu məsələ həllini tapdı. Hazırda “Azəristiliktəchizat” ASC-nin bizə çox az borcu var. Çünki bu qurumun bizə olan 30 milyon manat borcu ötən ilin sonlarında dövlət tərəfindən ödənildi. Bu günə olan borc isə yalnız bu il istifadə edilən sərfiyyat borcudur.

***- Ölkə üzrə ümumi qazlaşma səviyyəsi neçə faizdir və yeni layihələr varmı?***

- Ümumi ölkə üzrə qazlaşma hazırda 92 faizdir. Qazlaşma xüsusi Dövlət Proqramı ilə həyata keçirilir. İlkin qazlaşma zamanı abonentdən heç bir ödəniş tələb olunmur, qaz xətləri çəkilir, sayğaclaşdırılır və abonentə təhvil verilir. Biz Dövlət Proqramının icraçılarıyıq.

Bakı şəhəri üzrə qazlaşma isə 100 faizdir. Bakının elə bir ərazisi yoxdur ki, orada qazlaşma olmasın. Ola bilər ki, hansısa qəsəbədə yeni tikililər olar, tikinti başa çatdırılmadığı üçün qazlaşdırılmayıb. Həmin ərazilərə isə biz kömək edirik. Ötən il Bakının bir neçə rayonunda yeni tikilən evlərin müəyyən hissəsinə köməklik etmişik. Həmin yeni tikilən evlər yerləşən küçələrə qaz xətti çəkirik, qalan hissəni isə vətəndaş ASAN xidmətə müraciət etməklə qaz xəttini çəkdirir.

***- Qaz itkisinin və sayğacdankənar qaz xətlərinin çəkilməsinin qarşısını almaq üçün hansı işlər görülür?***

- Bu məsələ əsas problemlərdəndir. Bununla bağlı monitorinq qruplarımız mütəmadi yoxlamalar keçirir. Aşkarlanan faktlarla bağlı sənədlər tərtib edilir və hüquq mühafizə orqanlarına müraciət olunur. Həm Enerji Məsələlərini Tənzimləmə Agentliyi, həm Daxili İşlər Nazirliyi, həm də prokurorluğa bu barədə hər ay müraciətlər edirik. “Azəriqaz” aşkarlanan fakt üzrə dəymiş ziyanı hesablayır və bununla bağlı aidiyyəti qurumlara müraciət olunur.

2019-cu illə müqayisədə sayğacdankənar qaz xətlərinin çəkilməsi faizi xeyli azalıb.

# Alim Quliyev: “Kart əməliyyatlarında nağdsız hesablaşmaların payı artıb”



***“IV sənaye inqilabı maliyyə sektorunda göstərilən xidmətlərə köklü təsir göstərib”.***

Bunu onlayn keçirilən Maliyyə və Texnologiyalar Sammitində (“Fintex Summit”) Azərbaycan Mərkəzi Bankının (AMB) sədrinin I müavini Alim Quliyev deyib.

Bundan başqa, onun sözlərinə görə, koronavirus pandemiyası rəqəmsallaşmaya və innovasiyalara tələbatı daha da artırıb: “Pandemiya elektron ödənişlərə müsbət təsir edib. Belə ki, EY şirkətinin araşdırmasına görə, 2020-ci ilin ilk 8 ayında Avropa ölkələri üzrə təmassız ödənişlər 2,5 dəfə, mobil bankçılıq üçün qeydiyyatdan keçmiş müştərilərin sayı 3 dəfə, mobil bankçılıqdan istifadə üçün internet trafiki 85% artıb. Həmçinin B2B ödənişləri üzrə istifadəçilərin təxminən 60%-i elektron ödənişlərdən istifadəyə başlayıb. "Makkenzi" təşkilatının apardığı araşdırmalara görə isə, 2020-ci ilin ilk 6 ayında bankomatlardan istifadə 47% azalıb. Ani ödənişlər sistemlərindən istifadə isə 10% artıb”.

AMB rəsmisi pandemiyanın Azərbaycan bank sektoruna da təsirini şərh edib: “Pandemiya dövründə Azərbaycanda da rəqəmsallaşma səviyyəsi əhəmiyyətli artıb, innovativ ödənişlərdə göstəricilər kəskin yüksəlib. Belə ki, ödəniş kartları ilə aparılmış əməliyyatlarda nağdsız hesablaşmaların çəkisi 34%, elektron ticarət əməliyyatlarının sayı 56%, həcmi isə 23% artıb. Əlbəttə, bu göstəricilər AMB-nin bank sektoru və digər qurumlarla birlikdə Azərbaycanda rəqəmsal ödənişlərdən istifadənin genişləndirilməsi istiqamətində həyata keçirdiyi silsilə tədbirlərin məntiqi nəticəsidir. Ötən il biz ani ödənişlər sistemini və QR ödənişləri təqdim etdik. AMB üçün cari ildə əsas məqsəd QR və NFC ödənişləri genişləndirməkdir”.

A.Quliyev təmsil etdiyi qurumun hazırladığı yeni qanun layihəsi barədə də danışıb: ”Hökumətə göndərdiyimiz yeni qanun layihəsi bank olmayan ödəniş xidməti təchizatçılarının ödəniş xidməti bazarına daxil olması üçün hüquqi əsaslar yaradır”.

# Doğma ana həsrəti ilə yaşamış şəhid - Mahmud Xudaverdiyev

***Bildirdiyimiz kimi, bu Qarabağ Savaşında Zaqatalanın bütün kəndlərindən olduğu kimi Göyəm kənd icra nümayəndəliyinin Dardoqqaz kəndindən də onlarla avar el oğullarımız iştirak edib, şəhid və qazi olublar. Onlar əsil igidlər kimi, ağır döyüşlərdə cəbhənin qaynar nöqtələrində iştirak edərək gələcək nəsillərə nümunə oldular.***

Məhz, Sumaylı kənd tam orta məktəbinin pedaqoji kollektivini Vətən Savaşı başlayan gündən məktəblilərə vətənpərvərlik ruhunda müharibədə gənc hərbiçilərimizin göstərikləri şücaətdən qorxu bilmədən torpaqlarımızın azğın düşməndən təmizlənməsini, bu məqamlarda xalqın birliyindən, Ali Baş Komandanın əmrindən sonra Şanlı Ordumuzun 30 ilə yaxın müddət ərzində müharibəyə hazırlaşan, düşmənin üstünə necə hücuma keçməsindən onlayın vasitəsi ilə təbliğ ediblər. Dardoqqaz kəndindəki şəhid ailələri ilə görüşəndən əvvəl Sumaylı kənd məktəbinin direktoru təcrübəli pedaqoq Rəsmiyyə Mustafayeva, tədris işləri üzrə dərs hissə müdiri Xuraman Əhmədova və hərbi rəhbər Qəzənfər Yahudovla söhbət zamanı məlum oldu ki, məktəbdə şəhidlərə həsr edilmiş xüsusi güşə yaradılıb, məktəbin pedaqoji və şagird kollektivi tez-tez Dardoqqaz kəndində olan - Vətən Müharibəsində qəhrəmanlıq göstərərək həlak olan - şəhidləri, böyük təcrübəli zabit mayor Abakar Məhəmməd oğlu Hacıyev və cəsur əsgər şəhidimiz Mahmud Əhməd oğlu Xudaverdiyevin məzarını ehtiramla ziyarət edir və onların ailələri ilə əlaqədə olurlar. Şəhidlərin keçdiyi ömür yolları və müharibədə göstərdikləri şücaətləri barədə məktəbliləri məlumatlandırılırlar. Əlbəttə ki, bu tədbirlər gələcək nəslin vətənpərvərlik ruhda inkişafında xüsusi rol oynayır. Bu günlər Göyəm, Dardoqqaz, Sumaylı və Çökək - bütün Zaqatalanın böyüklü, kiçikli sakinləri bu Vətən fədailəri fəxr edirlər, onları örnək sayırlar...

O, mənə doğma balam kimi idi...

...Ananın gözlərindən yaş yağış kimi süzülürdü. Gilə-gilə axan yaşı silə-silə bir igidin uşaq yaşlarından başlanan keçməkeşli həyat hekayəsini danışdıqca, biz və ətrafdakılar üzüntülü, təsir edici bu söhbətə çox-çox həyəcanla qulaq asırdıq. Bu hekayəni dinlədikcə bu iradəli, cəsarətli, əsil analıq duyğulara malik qadına "əhsən", "min alqış", "halal olsun" deyə pıçıldayırdım. Yanımda oturan övladın doğma atası xəyallara dalaraq, çox fikirli, qüssəli görünürdü...

"Bu ailənin yükünü üzərimə götürəndə Mahmud 2 yaş yarımlıq, çox zəif, cılız uşaq idi. Doğma anasını erkən itirdiyindən ana südündən yarımçıq qalmışdı. Tez-tez ağlayır, anasını axtarırdı. Uşağın nələr keçirdiyini çox yaxşı başa düşürdüm. İlk günlərdən bu körpəyə, ondan yaşca böyük qardaşlarına əsil analıq etməyə başladım. Bir müddət keçmiş bu zavallı körpə mənə sığınmağa başladı, onu öz doğma balam kimi əzizlədikcə o, mənim qucağıma sığınmağa başladı. Körpə quş balası kimi dirçəlib, ayaq açdı və ona qayğı göstərdikcə məni doğma anası kimi əzizləməyə, istəməyə başladı. Mənə sıx bağlandı, yuxudan ayılan kimi məni axtarmağa başladı. Çünki, onlara mən ögeylik hiss etdirmədim. Atası Əhmədlə birlikdə onları, ələlxüsusda Mahmudu böyütmək üçün çox əziyyətlərə, çətinliklərə qatlaşdıq. Çəkdiyimiz zəhmət hədər olmadı... Sonradan dünyaya gətirdiyim qardaş və bacı ilə də doğmalaşdılar... Mahmudun uşaqlığı yadıma düşəndə bilirsiz canımdan necə sızıltılar keçir. Böyüdü, yeniyetmə gənc oldu, hərbi xidmət yaşına çatdı. Sevindik, fərəhləndik... Lakin!..."



Nailə ana bir anlıq susdu, selləmə göz yaşlarını saxlaya bilmədi, qəhər yenə onu boğdu. Ama, çox çətinliklə olsa da "Axı, mən onu hərbiyə yola salandan onun yolunu səbirsizliklə gözləyirdim. Mən, oğul dağını, belə sağalmaz yaranı heç bir anaya arzulamıram... Mahmudun vaxtsız ölüm xəbərinin məlhəmini mən tapa bilməyəcəyəm, bütöv dünyanı dolaşsam da" dedi - Ana.

Atası Əhməd kişi: "Ona halal olsun mənim kiçik yaşlarından anasız qalan övladlarıma əsil analıq etdi. Mahmudu daha çox istəyirdi..." Əlavə etdi.... Atanın da gözləri yaşardı, ancaq özünü itirmədi...

...Yəqin ki, söhbətin - Ana Vətənimizin fədailərindən biri, ömrünün lap gənc yaşlarında o, uca zirvəni - şəhidlik zirvəsini fəth edənlərdən biri haqqında getdiyini hiss etdiniz...

Həyatdan tam doymamış, doğmmaları ilə doyunca yaşamamış, dostları ilə yetərincə zarafatlaşmamış, qəlbində gəzdirdiyi sevgini o, qıza bildirməmiş - şəhid oldu - Mahmud balamız...

Zaqatala rayonu, Göyəm İcra Nümayəndəliyinin Dardoqqaz kəndində 19 iyul 2001 -ci il tarixdə dünyaya göz açan Mahmud Əhməd oğlu Xudaverdiyev torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərin birində qəhrəmanlıqla həlak oldu. Ömrünün 19 yaşında milyonların qəlbində, həmişə parıldayan bir ulduz yandırdı, bizim igidimiz - Mahmud. Vətən Savaşında xain, faşist, qan içən - erməni dığalarının qənimlərindən biri Ali Baş Komandanın əmrindən sonra ilk gündən xüsusi əhəmiyyətli mövqelərimizdə döyüşə başladı - Mahmud Xudaverdiyev. O, düşməninin ardıcıl hücumlarının dəf edilməsində döyüşçü yoldaşlarına sipər oldu, cəsurluq etdi, ancaq irəli getdi...

Əhməd Xudaverdiyev isə söylədi ki, oğlu Mahmud 2018 -ci ildə Sumaylı kənd tam orta məktəbini bitirib. Bir müddət təsərrüfatda çalışan Mahmud 2019 -cu ilin iyun ayında həqiqi hərbi xidmətə gedib. Əvvəlcə, Tərtər rayonunun Əlibəyli kəndində Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində xidmətə başlayıb. Həmin vaxt cəbhənin ən təhlükəli düşmənlərimizin tez-tez atəşə tutduğu mövqelərimizi qoruyan cəsur el oğlumuz, hərbi xidmətini nümunəvi keçirməklə yanaşı, komandirlərinin tapşırıqlarını layiqincə yerinə yetirir və keçirilən hərbi təlimlərdə seçilərdi. Bu zamanlar, yəni 2016 -cı ilin aprel döyüşlərindən sonra xain qonşular ardıcıl təxribatlar törədirdilər. Düşmənin işğal etdiyi ərazilərdən müharibə qoxusu da gəlirdi. Əhməd Xudaverdiyev deyir ki, hərbi and içmədən sonra oğlu Mahmud düşmənin daim hədəfə tutduğu "Ballı qaya"dakı postlarda hərbi xidmətini davam etdirib. Qeyd edək ki, Tərtər-Goranboy rayonlarının, Fərruz-Murovdağ dağ silsiləsində yürləşən yüksək əhəmiyyətli bu mövqe son döyüşlərdəki mənfur düşmənin "göz dağı" olub. Məhz, Milli Ordumuzun hərbiçiləri bu mövqeləri qorumaq və ətraf ərazilərimizi düşməndən təmizləmək üçün erməni hərbiçilərlə daima ölüm-dirim mübarizə aparıblar.

Cəsur oğlumuzun anası Nailə xanım qeyd etdi ki, hərbi andiçmə mərasimin günü, 14 avqust 2019 -cu il tarixində ailə üzvüləri ilə birlikdə Mahmudla görüşüblər. "Bilirsiniz, həmin gün o, bizim gəlişimizə necə sevinmişdi, elə bil ona dünyaları bağışlamışdılar. Oğlumuzla hərbi hissədə görüşümüz Mahmuda ruh yüksəkliyi verməklə yanaşı, həmin görüşümüz həyatımızda xoş xatirələrə çevrildi. Daha sonra ailə üzvəri və yaxınları, əziz balamızla 4 dəfə görüşüblər. Nə yaxşı ki, biz onu gözü yolda qoymadıq. Amma Mahmud balamız bizi gözü yolda qoydu, hər birimizə xoş xatirələrlə yanaşı, acı xatirələr yaşatdı... göz yaşlarını bəxş etdi - deyə şəhid anası əlavə etdi.

Torpaqlarımızın azadlığı uğrunda canından keçmiş Vətən övladlarına dərin ehtiramın nəticə etibarı isə Azərbaycan cəmiyyətində vətənpərvərlik ruhunun daha da güclənməsinə yol açdı. Ona görədir ki, böyük əksəriyyəti atəşkəs dövründə doğulub-böyüyən, 90 -cı illərin əvvələridə baş verənlərin şahidi olmayan və 44 günlük müharibədə Qələbəmizi təmin edən gənc nəsil yüksə vətənpərvərlik hisslərinə malikdir. Bu hissləri isə ən çox, sadə, zəhmətkeş, çətinliklə üzləşən, ailədə nümunəvi tərbiyə almış, haram çörək yeməyən gənclərə aid etmək olar. Bu günlər adı qəhrəmanlar sırasında çəkilən Mahmud Əhməd oğlu Xudaverdiyev kimi...

Mahmud Xudaverdiyev hərbi ximdəti dövründə hərbi təlimlərdə fəal iştirak etmiş, hərbi texnikaya mükəmməl yiyələmiş, hərbi taktikanı, fəndləri hərbi qaydalaya uyğun öyrənmişdi. Atası söhbət zamanı bildirdi ki, "Mahmud tez-tez telefon əlaqəsi saxlayır, hərbi xidmətinin yaxşı getdiyini bildirərdi. Onun sonuncu zəngi 13 oktyabr 2020 -ci il tarixdə olub, dedi ki, "ata siz narahat olmayın, mən Vətənimizin keşiyindəyəm, borcum torpaqlarımızı faşist ermənilərdən azad etmək, onları doğma yurdlarımızdan qovub çıxartmaqdır, çünki bu bizim həm də vətəndaşlıq borcumuzdur, narahat olmayın, tezliklə görüşəcəyik, Qələbə sədası ilə..."-dedi oğlum. Halbu ki, cəbhədə həmin vaxt qızğın döyüşlər gedir, oğlum Tərtər - Goranboy - Xocavənd- Hadrut istiqamətində döyüşürdü, xain düşmənə qarşı" deyən şəhid atası vurğuladı ki, Mahmudun son döyüşü 14 oktyabr 2020 -ci il tarixində olub. Mahmud Xudaverdiyev Suqovuşanın azad edilməsi uğrunda gedən döyüşlərdə... Əks hücum zamanı düşmən tərəfindən atıldığı mərmi qəlpələrindən ağır yaralanıb. Döyüş meydanında çoxlu qan itirməsi nəticəsində həlak olub. Qəhrəman, qorxmaz - Zaqatalanın fədakar oğlu müharibə başlayan gündən ön cəbhədə təcrübəli atıcı kimi döyüşlərə başlayıb. O, döyüş meydanında düşmənin çoxlu sayda canlı qüvvəsini, texnikasını məhv etmişdi. Mahmud gənc olmasına baxmyaraq Vətənimizin azadlığı uğrunda, azğın düşmənə qarşı, mərdi-mərdanə vuruşaraq hünərvər kimi şəhadətə qovuşub...

Doğma anasını körpəlikdən itirmiş, onun həsrəti ilə yaşamış, halal çörəklə böyümüş, tərbiyə almış - ailənin ən sevimli övladı olmuş - Mahmud - Azərbaycanı yeni şanlı səhifəsinə qəhrəman tək ad qoydu. Zəfər qazanılmasında xüsusi xidmətləri, cəsur döyüşçü kimi azadlığı uğrunda həlak olan tarixi yurdların əzəli qəhrəmanı oldu... Dünyaya göz açdığın Zaqatala rayonunun Dardoqqaz kəndinə, and içdiyi üç rəngli bayrağımıza bükülü olsa da üzü ağ qayıtdı. Elin çiyinlərində 16 oktyabr 2020 -ci il tarixində çox möhtəşəmliklə son mənzilə yola salındı...

Bizimlə söhbət zamanı hönkür-hönkür ağlayan, Mahmuda əsil ana qayğısı göstərmiş Nailə xanım, atası - Əhməd, qardaşları və bacısı Nərmin, ou sevənlər şəhid el oğlumuzla fəxr edirlər, edəcəklər də... Çünki, o, hamımızın uğrunda əbədiyyətə qovuşdu... Ruhun şad olsun - Mahmud!

Şəhid - Mahmud Əhməd oğlu Xudaverdiyev Prezidentin sərəncamı ilə (ölümündən sonra) "Vətən uğrunda medal"ı ilə təltif olunub.

***E.Maliyev***

# Polkovnik Tehran Mənsimov: "Söz verdim ki, qələbə müjdəsini özüm verəcəm"

***Naxçıvan Əlahiddə Ümumqoşun Ordunun zabiti, "İgidliyə görə", "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə" medalları və "Azərbaycan bayrağı" ordeni ilə təltif edilən polkovnik Tehran Mənsimov "Şərq qapısı" qəzetinə müsahibə verib.***

"Unikal" müsahibəni təqdim edir. Vətən müharibəsində böyük qəhrəmanlıq göstərən Naxçıvan Əlahiddə Ümumqoşun Ordunun zabiti, "İgidliyə görə", "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə" medalları və "Azərbaycan bayrağı" ordeni ilə təltif edilən Tehran Mənsimovdur. Onunla söhbətimizdə bir daha həmin günlərə qayıtdıq.

- Vətən müharibəsinin qəhrəmanı, hörmətli polkovnik, ilk olaraq sizi Böyük Qələbə münasibətilə təbrik edirik...

- Çox sağ olun. Ön cəbhədə bizlər döyüşsək də, arxa cəbhədəkilərin də uğurlarını unutmaq olmaz.

***- Çoxları üçün Tehran Mənsimovun həyatı maraqlıdır. Siz özünüzü oxuculara necə təqdim edərdiz?***

- (Gülür). Ən yaxşısı başdan başlamaqdır...

***- ...Siz artıq başlanılmış işi tamamlayanlardansınız...***

- Dövlətimizin və güclü ordumuzun sayəsində... 1972-ci ildə Qusar rayonunun Düstahir kəndində anadan olmuşam. 1989-cu ildə məktəbi bitirdikdən bir il sonra Sovet İttifaqı zamanında ordu sıralarında xidmətə başlamışam. 1992-ci ildə xidməti başa vursam da, Qarabağ müharibəsi başladığına görə Azərbaycan Silahlı Qüvvələrində xidmətimi davam etdirmişəm. O vaxt vahid birlik, komandanlıq olmadığından könüllü müraciət etmişdim.

Peşəkar zabit çatışmazlığı mövcud idi. Demək olar ki, ovaxtkı tabor komandirləri ixtisasından asılı olmayaraq, yerli ağsaqqallardan, hörmətli şəxslərdən seçilirdi. Bizə tabor komandiri təyin olunan şəxs ixtisasca çilingər olsa da, çox qabiliyyətli bir insan idi. O vaxt başa düşürdük ki, vahid ordu olmadığından bizi çox ağır günlər gözləyir.

Hər tərəfdən hücum təhlükəsi ilə üz-üzə idik. Başçılıq etdiyim taqım düşmən hücumunu dəf etmişdi. Füzuli rayonunun Qacar kəndində yüksəkliyin əldə saxlanılmasından sonra artıq kollektiv içərisində rəğbət qazanmışdım.

Bundan sonra briqada komandiri zabit olmağı təklif etdi. Həmin vaxt Bakı Birləşmiş Zabitlər Məktəbində kəşfiyyat kursları başlamışdı. 1992-ci ilin fevral ayında həmin məktəbə daxil oldum. Bir il sonra kursda 354 nəfərin birincisi olduğuma görə leytenant rütbəsi aldım və yenidən Füzuli bölgəsinə yola düşdüm. İkinci Qarabağ müharibəsində qazandığım uğurlarda Birinci Qarabağ müharibəsində qazandığım təcrübənin rolu vardır.

24 avqust 2011-ci ildə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Hərbi Akademiyasına daxil olmuşam və 26 iyun 2013-cü ildə həmin akademiyanı fərqlənmə ilə - birinci olaraq bitirmişəm. Taqım komandirliyindən briqada komandirliyinə kimi Qarabağ bölgəsində xidmət etmişəm.

4 iyul 2013-cü ildən Naxçıvan Əlahiddə Ümumqoşun Orduda xidmətə başlamışam və Şahbuz rayonundakı hərbi hissənin komandiri olmuşam. Hazırda Döyüş Hazırlığı və Tədris İdarəsinin rəisi vəzifəsində xidmət edirəm.

***- Bu müddət ərzində bir çox məlumatlar paylaşıldı, xəbərlər dərc olundu. Amma bizim diqqətimizi daha çox ümummilli lider Heydər Əliyevlə cəbhə bölgəsində çəkilmiş bir fotonuz çəkdi. Həmin hadisəni necə xatırlayırsınız?***

- 1994-cü il Horadiz istiqamətində uğurlu əməliyyat aparılmış, hansı ki, həmin dövrdə ulu öndərimiz xalqın tələbi ilə yenidən siyasi hakimiyyətə qayıtmışdı, 22 kənd, Horadiz qəsəbəsi



uğurla müdafiə olunmuşdu. Bu uğurlu əməliyyatda iştirak edən 160 nəfərdən biri də mən idim. Baş leytenant kimi o əməliyyatdan sonra tabor komandirini əvəz edirdim.

Dedilər ki, ulu öndər taborla görüşməyə gəlir. O zamanlar böyük kazarmalar yox idi. Kazarmaları işğaldan azad edilmiş komalar əvəz edirdi. Ulu öndərimiz gəldi, hər birimizlə tək-tək görüşdü. Ulu öndər bizimlə çox səmimi şəkildə söhbət etdi, zarafatlaşdı, silahı əlinə götürüb nişan almağı göstərdi. Görüşərkən mənə "rütbən nədir?" - dedi. Dedim "baş leytenant". Dedi "bu gündən kapitansan". Elə ilk rütbəmi də ulu öndərimiz verib.

***- Bildiyimizə görə bu görüş sizi yenidən orduya, hərbi peşəyə bağlayıb...***

- Etiraf edim ki, həmin vaxt ulu öndərin fikirləri, dəyərli sözləri, eyni zamanda həmin günkü hadisə mənə xidmət etməyim üçün əlavə stimul verdi. Mənim uğurlu hərbi yolum məhz ulu öndərin adı ilə bağlıdır.

***- Vətən müharibəsində ordumuzun qələbə qazanmasının əsas səbəbi kimi nəyi göstərə bilərsiz?***

- Təbii ki, ilk növbədə, vahid komandanlığın olmasını. Ali Baş Komandanımızın, Prezident cənab İlham Əliyevin rəhbərliyi və apardığı uğurlu ordu quruculuğu siyasəti qələbənin əsasını təşkil etdi.

***- Vətən müharibəsində keçdiyiniz döyüş yolundan danışmağınızı istərdik.***

- Əvvəlcə onu deyim ki, cəbhəyə yola düşərkən söz verdim ki, Ali Məclis Sədrinin bizə göstərdiyi etimadı doğruldacaq, zəfərə doğru irəliləyəcəyik. Əgər sağ qalsam, qələbə müjdəsini özüm verəcəm. Çox şükür ki, sözümüzün üstündə durduq. Döyüş zamanı biz Hadrut-Füzuli-Xocavənd, Hadrut-Şuşa, Hadrut-Xankəndi istiqamətlərində bölündük. Birinə şəhidimiz Anar Əliyev, digərinə isə mən rəhbərlik edirdim. İlk döyüşdən bir epizodu sizinlə paylaşmaq istəyirəm. Hadrut istiqamətində döyüşlər gedirdi. Oranın çox mürəkkəb reylefi var: həm dağlıq, həm də sıx meşəlikdir, ərazini yaxşı tanımırdıq. Çünki uzun illərdir, ermənilərin işğal etdiyi bir yer idi. Bilirdik ki, nə qədər təmizləsək də, bəlli olmayan yerlər də var. Şəhərdə pusqu qurmuşdular.

Əsgərlərimiz ilk dəfə döyüşə girməsinə baxmayaraq, pusqunu yardılar. Onu deyim ki, verilən hər bir tapşırığı alnıaçıq yerinə yetirə bildik.

***- Şuşaya girən ilk qəhrəmanlarımızdan biri siz olmusunuz. Həmin an hansı hissləri yaşadınız?***

- Şuşaya gedən yol var. Həmin yol açılmadığına görə, orada mürəkkəb, qızğın döyüşlər gedirdi. Düşmən bütün gücünü həmin əraziyə cəlb etmişdi. Minalanmış sahələrdə canlı qüvvə və zaman itkisinə yol verməmək üçün bizə yeni tapşırıq gəldi.

Əlavə olaraq, 3 briqada mənim tabeçiliyimə verildi. Xüsusi təyinatlılara şərait yaratmaq üçün Daşaltı bölgəsini nəzarətə almalı, oradakı düşmən qüvvələrini məhv etməli idik. O vaxta kimi xüsusi təyinatlılar Şuşaya girəcəkdilər.

Onlar meşədən keçib Şuşaya girənə qədər döyüşüb düşməni öz üzərimizə çəkməli idik. Həmin gün şəhidlərimizin qanı bahasına hədəfə çatdıq və noyabrın 4-də Daşlatını işğaldan azad etdik. Sonrakı günlərdə də düşmənin saysız əks-hücumlarını dəf etdik.

Bu döyüşlərdə Naxçıvan xüsusi təyinatlılarının şücaətini xüsusi vurğulamaq istəyirəm. Xüsusilə, Anar Əliyev və Nihad Babayevi, böyük qəhrəmanlıq göstərən Renat Şıxnəbiyev, Əli Kərimov və Elnur Şirinovun igidliyi gələcək nəsillərimiz üçün örnəkdir.

Ermənilər deyirdilər ki, biz vururduq, Azərbaycan hərbçiləri yenidən qalxaraq üzərimizə gəlirdi. Həqiqətən də, həmin döyüşlərdə Naxçıvan xüsusi təyinatlıları qeyri-adi iradə, böyük fədakarlıq və qəhrəmanlıq göstərdilər... Noyabrın 6-da artıq xüsusi təyinatlılarımız Şuşa yaxınlığında yaxın təmas döyüşünə keçmişdilər.

Döyüşən 4 hərbi hissənin hər birində Naxçıvan xüsusi təyinatlıları var idi. Ayın 7-si artıq Şuşaya şanlı bayrağımızı sancdıq, ilk azan oxundu. Bu hissləri sözlərlə ifadə etmək çox çətindi. Oxunan azan səsi və Dövlət Himnimizi eşidən yaralılarımıza, sanki yenidən həyat verilirdi. Şuşa azad olunandan dərhal sonra ilk ürəyimdən keçən namaz üstdə şəhid olan qəhrəman oğullarımızın ruhuna və igid döyüşçülərimizə dua etmək, Allaha şükranlığımı sevinc göz yaşları ilə çatdırmaq oldu. Düşmən sonra da əks-hücuma keçdi və bu hücumların da qarşısı alındı. İgidlərimiz canları bahasına Şuşanı qoruyub saxladı. Ölkənin müxtəlif yerlərində bu qələbəmizi coşqu ilə qarşılayan xalqımızın sevinci bizə daha böyük ruh yüksəkliyi verirdi.

Onu da vurğulayım ki, Naxçıvan xüsusi təyinatlılarının Hadrut şəhəri və ətrafında olan yüksəkliklərin, Qarakollu, Edili, Axullu, Düdükçü, Zərgər, Qaraçuğ, Yuxarlı Yağlıvənd, Veysəlli, Meşdağlar, Domi, Tuğ, Çanaqçı, Sığnaq, Qacar, Divanalılar kəndlərinin, eləcə də Daşaltı və Şuşanın azad olunmasında müstəsna xidmətləri olub. Hətta bir çox strateji yüksəkliklərin ələ keçirilməsində iştirak ediblər. Bu müharibədə oğullarımızın qəhrəmanlıqları ortaya çıxdı. Fiziki göstəricisindən asılı olmayaraq, elə əsgərlər, hərbçilər var idi ki, loru dillə desək, boyundan böyük qəhrəmanlıq, cəsarət göstərirdilər. Nəinki, şəhidlərimiz, bu gün sağ qalan hərbçilərimiz var ki, onlar öz qanları bahasına tarix yazıblar. 44 günlük müharibə dünya hərb tarixində yeni bir döyüş taktikası oldu. Müharibə həm də onu göstərdi ki, xalqımız müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin ətrafında sıx birləşib.

- Həm birinci, həm də ikinci Qarabağ müharibəsində iştirak etmisiz. Sizcə, son müharibədə qələbəmizin əsasını nə təşkil etdi?

- Təbii ki, son 44 günlük müharibədə ordumuz nəyə qadir olduğunu göstərdi. Heç şübhəsiz ki, bunun da əsasında Ali Baş Komandan tərəfindən uğurla aparılan ordu quruculuğu siyasəti, mükəmməl hərbi kadr potensialının formalaşması, müasir hərbi silahlanma - bir sözlə, sarsılmaz hərbi qüdrətimiz durur. Xüsusilə ciddi nizam-intizam, ordunun tam püxtələşməsi, zabit və əsgərlərimizin həm psixoloji, həm də döyüş hazırlığının yüksək səviyyədə olması qələbəmizin əsasını təşkil etdi. Birinci Qarabağ müharibəsi zamanı ordumuzda texnika və canlı qüvvə çatışmazlığı var idi. Eyni zamanda insanların hərbi hazırlıqsız döyüşməsi düşmənə əlavə güc vermişdi. Lakin ordu quruculuğunda aparılan uğurlu siyasət 30 ilə yaxın düşmən tapdağında qalan torpaqlarımızın azad olunması ilə nəticələndi. Ali Baş Komandanın müharibənin gedişini dəqiqliklə izləməsi və birbaşa rəhbərlik etməsi düzgün döyüş taktikasının müəyyənləşdirilməsində və qələbə qazanmağımızda əsas amil oldu. Budur əsl Azərbaycan dövlətinin, Azərbaycan Ordusunun, Azərbaycan xalqının gücü! Biz Vətənə olan borcumuzu yerinə yetirirdik. Lakin xidmətimiz dövlətimiz tərəfindən yüksək qiymətləndirildi. Ali Baş Komandanın sərəncamları ilə "Azərbaycan bayrağı" ordeni və "Şuşanın azad olunmasına görə" medalı ilə təltif olunmuşam. Bundan əvvəl də medallarla təltif olunmuşam. Dövlətimizə, Ali Baş Komandana minnətdarlıq edirəm. Xoşbəxt insanlarıq ki, Vətən müharibəsində, torpaqlarımızın azad olunmasında iştirak etdik. Fəxr edirəm ki, müzəffər Ali Baş Komandanımız var, qalib ordumuz var, güclü Azərbaycanımız var!

Bir məsələni də xüsusi qeyd etməliyəm ki, Naxçıvanda yaşamaq, işləmək, xidmət etmək hər bir hərbi qulluqçu kimi, məni də qürurlandırır. Bu torpağın hər qayası, hər daşı bir tarixdir. Fürsət tapdıqca Naxçıvanı gəzirəm, daha yaxından tanıyıram. Uzun illər düşmənlə sərhəddə yerləşməsinə baxmayaraq, sabitlik, inkişaf və rifah vardır. Gəncliyə qayğı vardır. Vətəninə, dövlətinə, xalqına sadiq gənclər yetişir, formalaşır. Gəncliyə qayğı olan yerdə, vətənpərvər gənclik olan yerdə isə, deməli, etibarlı gələcək vardır.

***- Son olaraq nə demək istərdiniz?***

- Döyüşlərdən sonra, ilk növbədə, gedib şəhidlərimizi ziyarət etdim. Daha sonra Bakı Beynəlxalq Hava Limanında bizi görənlər böyük coşqu ilə qarşıladılar. Naxçıvan Beynəlxalq Hava Limanında da eyni coşqu vardı, hər kəs Qələbə sevincini bizimlə bölüşdü. Bu da hədsiz sevincimizə səbəb oldu. Mən bunu evdə hər zaman övladlarıma da deyirəm: Vətənin hər qarışı sənin qeyrətindir. Çünki bu Vətən uğrunda yüzlərlə igidimiz şəhidlik zirvəsinə ucalıb.

Gənclərə demək istərdim ki, Vətən sevgisini hər şeydən üstün tutsunlar. Vətən üçün hər birimiz müsəlləh əsgər kimi formalaşmalıyıq. Bunun üçün isə dövlətimiz hər bir şəraiti yaradıb.

# SON ZƏNG, SON DÖYÜŞ...

## ...və yaxud 19 yaşlı şəhid Mütəllibin qəhrəmanlıq salnaməsi...

***30 ilə yaxın Azərbaycanın Qarabağ kimi ürəyinə namərd düşmən tərəfindən saplanmış qılınc, nəhayət ki, polad biləkli igidlərimizin mətinliyinə, igidliyinə tab gətirə bilmədi. Bu dəfə əsil mübariz ruhda hünərlərini göstərdilər: - azğın düşmənə... Vətən üçün canından keçən bu igidlər, şəhid əlçatmazlığına ucaldılar. İkinci Vətən savaşında erməni işğalçılarına qarşı fədakarcasına vuruşaraq, qəhrəmancasına həlak olan Zaqatalanın cəsur oğlu Mütəllib Arif oğlu Serov kimi...***

O, qısa ömür sürsə də, ön cəbhədə vuruşaraq, həlak olsa da, Zaqatalalılar onu necə müsbət keyfiyyətlərə malik olan xoş niyyətli, ürəklərə yol tapa bilən bir gənc kimi tanıyırdı - Mütəllibi. Bu günün Vətən fədaisi olan Zaqatala rayonunun Silban kəndində sadə, fəhlə ailəsində anadan olmasına, böyüməsinə baxmayaraq, nəyəsə ehtiyacı olsa da, gözü tox olub, əksinə kiməsə kömək etməyə, yardımçı olmağa çalışardı. Məhz, bu müsbət xarakterinə görə böyüyündə, kiçiyində yanında hörmətli etmişdi onu. Amma... indi onun dünyaya göz açdığı, Zaqatala rayon mərkəzinin lap yaxınlığında, dağların ətəyində yerləşən Silban kəndinin girəcəyində, daşdan hörülmüş kürsülü evin damında üçrəngli Azərbaycan bayraqları dalğalanırdı... Öyrənmişdim ki, bu ailə 4 nəfərdən ibarət idi. Mütəllibin vaxtı ilə yaşadığı həyətə daxil olanda, böyük qardaşı Rəsul (sonradan mənə məlum oldu ki, şəhidin qardaşı uşaqlıqdan travma aldığına görə, ömürlük şikəst olub. E.M.) evə tərəf getdi və valideynlərini çağırdı. Şəhid balamızın, Vətən oğlunun atası - Arif kişi və anası Mərziyyə xanım hələ də özlərinə gəlməmişdirlər. Onlara təsəlli, təskinlik verməyə çalışırdım. Şəhidin atası çox kədərli, çox fikirli görünürdü. Siqareti, siqaretin dalınca çəkirdi. Hiss olunurdu ki, oğlunun yoxluğuna inanmaq istəmirdi... Nəhayət, o, dilləndi: "Elə bil mənə yuxu kimi gəlir, çox təsirli, acı bir yuxu kimi... Hərdən oğlumun həlak olmasına inanmıram. Elə hiss edirəm ki, hərbi xidməti başa vurub geri gələcək, bizi sevindirəcəkdir, hərdən belə fikirləşirəm... Lakin... Mütəllib ayrı uşaq idi, böyüklə böyük kimi, kiçiklə kiçik kimi rəfdar edirdi. Zaqatala rayonunda hamı onun xoş xasiyyətindən danışırdılar... İndi isə balam yoxdu..."

Anası Mərziyyə xanım isə gözlərinin yaşını silə-silə dedi: "Ümüdimiz ona idi. Böyük oğlumuz Rəsulu xəstə olduğuna görə hərbi xidmətə aparmadılar. Onu tez-tez müalicə edirik. Mütəllib ayrı oğul idi, yaşının az olmasına baxmayaraq, ailəmizdə olan çətinlikləri, qardaşının xroniki ağır xəstə olmasını, bizim də fəhləliklə ailəmizi dolandırmağımızı çox yaxşı başa düşürdü. Həmişə ailəyə kömək etməyə can atırdı. Arzuları çox idi, çox zəhmətsevər, xeyirxahlığa can atan, çətinliklərə dözən bir gənc idi, vətənpərvərliyinə söz ola bilməzdi, erməni millətçilərinə həmişə nifrət edərdi. Mütəllib sanki bir sülh göyərçini idi, gəldi, qondu və pərvazlanaraq bir dəfəlik yoxa çıxdı"...

Valideynlərindən öyrəndim ki, Vətənimizin ərazi bütövlüyünü qorumaq üçün ordu sıralarına qürurla, əzmlə, mətanətlə və həvəslə gedən Mütəllib Arif oğlu Serov 2000 -ci ilin iyun ayının 9 -da Zaqatala rayonun Silban kəndində anadan olub. Uşaq yaşlarından texniakya, mexaniki texnologiyaya böyük həvəsi və marağı olub. Arzusu ali təhsilli mütəxəssis olmaq idi. Amma... O, əvvəlcə Zaqatala şəhəri 5 saylı ümum orta məktəbinin IX sinfini bitirdi. Daha sonra isə Mütəllib Zaqatala rayonun Aşağı Tala kəndindəki Peşə Liseyində texniki elmlərə yiyələndi. Təhsil aldığı illərdə Liseyində fəalı, pedaqoji və tələbə kollektivinin də sevimlisi oldu. Anasının bildirdiyinə görə Mütəllib balaca yaşlarından ev, təsərrüfat işlərində onlara kömək edib. Valideynlərinin sağ əli olub. Sakit təbiətli atası isə qeyd etdi ki, Mütəllib hərbi xidmətdən əvvəl bir müddət Zaqatala şəhərində "Konika" mərkəzində çalışıb. "Qısa zaman ərzində oğlum iş yerində də bizə hörmət qazandırdı. Mütəllif orda da çox şey öyrəndi, kollektivin sevimlisinə çevrildi. Belə inadkar, qəlbi təmiz, doğruluğu sevən idi, əziz oğlumuz..." deyir - şəhid atası.

Torpaqlarımızın xilaskarı, Zaqatalanın fəxri, 2019 -cu ilin oktyabr ayının 1 -də həqiqi hərbi xidmətə gedib - Mütəllib. Valideynləri, əzizləri, dostları və iş yoldaşları onu xoş arzularla Vətənimizin keşiyində durmağa yola salıb.

Mərziyyə xanım söylədi ki, oğlu əvvəlcə Gəncə şəhərində, Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində xidmətə başlayıb. Sonra bilibləр ki, hərbi and içmədən sonra Mütəllibi digər əsgər yoldaşları ilə birlikdə Cəlilabad rayonuna, Göytəpə şəhərindəki Xüsusi Təyinatlıların hərbi hissəsində xidmət edirlər.

...Oğlumuzla vaxtaşırı əlaqə saxlayırdıq. O, bizə hərbi xidmətinin normal keçdiyini bildirirdi. And içmə vaxtı yanına getmişdik. Mütəllib hərbi formada olduğuna görə qürur duyurdu. Deyirdi ki, "Ana artıq mən müsəlləh əsgərəm. Azərbaycanımızın, Dövlətimizin Ali Baş Komandanı nə əmr versə ona da tabeyik. Biz bununla fəxr edirik. Siz özünüzdən, qardaşımdan muğayat olun. Dostlarıma salamlar yetirin..." - deyə, Mərziyyə xanım söhbətini davam etdirdi. "2020 -ci ilin avqust ayınadək orada hərbi xidmət etdi. Sonradan xeyli müddət oğlumuzla əlaqə qura bilmədik. Çox-çox narahat idik. Sentyabr ayının əvvəllərində oğlumla danışa bildik. Söylədi ki, artıq onlar cəbhə bölgəsindədirlər və vəziyyətləri yaxşıdır. Ancaq, bizə məlum oldu ki, onlar xeyli müddət hərbi təlimlərdə iştirak ediblər. Hərbi andına sadiq qalan Mütəllib, Vətən təşəbbüskeşi, sirr saxlayan idi. Hətta, müharibə başlayanda da, ön cəbhəyə gedəndə də bizə heç nə bildirməmişdir. Sonuncu zəngi sentyabr ayının oratalarında oldu. Mütəllifin son sözləri belə idi: "Allah Sizi, bizi qorusun, biz də Sizi, Azərbaycanımızı qoruyuruq. Torpaqlarımızı mənfur düşməndən azad etmək hər birimizin borcudur. Ana, ata narahat olmayın, tezliklə görüşəcəyik..." Bu, Mütəllif=bin son sözləri, son zəngi oldu... Və onlar döyüşə getdilər...

Faşist xislətli ermənilərin 27 sentyabr 2020 -ci il tarixli xəyanətindən sonra Xüsusi Təyinatlılalardan ibarət taborun qorxmaz, cəsur, igid, düşmənin gözünə dik baxan - avar oğlu Mütəllib, hərbiçi yoldaşları ilə birlikdə Cəbrayıl, Fizuli istiqamətində döyüş mövqelərimizin önündə yerləşdilər. Onlar azğın düşmənlə ölüm-dirim müharibəsi aparıblar. Xain düşmənə göz verib, işıq verməyiblər. Vətənimizin mərd oğulları hərbi təlimlərdə öyrəndikləri müxtəlif taktikalarla erməni hərbiçilərinin üzərinə irəliləyərək, onların canlı qüvvəsini, texnikasını, hətta yerüstü və yeraltı barikadalarını da məhv ediblər. Mütəllibin xidmət etdiyi tabor qısa müddətdə müharibənin ən qaynar mövqelərində xeyli sayda yaşayış məntəqələrini, kəndləri, qəsəbələri, mühüm postları düşməndən təmziləyiblər...

Valideynlərin bildirdiklərinə görə, tabordan yaralı və sağ qalan döyüşçü yoldaşlarının verikləri məllumatlara görə oktyabr ayınnı 7 -də səhərdən axşamadək Fizuli rayonunda işğal altında olan torpaqların azad edilməsi uğrundan çox ağır döyüşlər olub. Bu döyüşlərdə düşmənin güclü müqaviməti ilə qarşılaşan Xüsusi Təyantılılar hünər tariximizi yazıblar.

Düşmənin cəbhə xəttini yaran Müttəllib və daha 8 xüsusi təyinatlısı BMP texnikası ilə onların mövqelərinə lap yaxınlaşaraq, ermənilərə müxtəlif çaplı silahlardan atəş açaraq, onların yenə də canlı qüvvəsini qıraraq, mövqelərdən uzaqlaşdırıblar. Lakin, namərd düşmən bu zaman yeraltı istehkamdan hərbiçilərimizin istiqamətinə qumbaralar atıblar. Qumbaraların partlaması nəticəsində Mütəllib və vdigər yaralı əsgərlərimiz döyüşçülərimizin səyi nəticəsində döyüş meydanından çıxarılıblar. Bütün səylərə baxmayaraq, vətənpərvər gənc döyüşçümüz - Mütəllib və onun döyüşçü yoldaşlarının həyatlarını xilas etmək mümkün olmayıb. Sözün əsil mənasında bu döyüşçülər lap gənc yaşlarından bir neçə aylıq təlimlərdə iştirak etmələrinə, müasir silahlardan istifadə olunan bu Vətən Savaşında özlərini odun-alovun içinə ataraq, qorxu nədi bilmədən - 30 ilə yaxın hazırlıq keçmiş qan içən düşmənə qarşı vuruşaraq, onların başını əzərək, Azərbaycanımızın-Qarabağımızın halal torpaqlarını düşməndən təmizlədirlər. Bu, əsil qəhrəmanlıq, vətənpərvərlik deyilmi? Halal olsun Sizlərə - igid əsgərlərimiz, şəhidlərimiz və qazilərimiz, halal olsun Sizlərin valideynlərinə, onların qarşısında baş əyirik...

Halal olsun, Allah Sizi qorusun - Mərziyə ana, Arif ata, halal olsun - Mütəllibə "Ana", "Vətən"sözlərini öyrədən sevimli müəllimlərə. İndi, bütün el-oba Sizinlə fəxr edir, Sizi alqışlayır. Çünki, Mütəllib kimi qəhrəman yetişdirdiniz. Cəmi 19 yaşlı Vətən fədaisi arzularının ömrünün bulaq kimi çağladığı dövründə - şəhidlik zirvəsini fəth etdi - Mütəllib...

Oktyabr ayının 10 -da Zaqatala rayonuna Mütəllibin ölüm xəbəri gəlməsi - bütün rayonu sarsıtdı...

Sanki quşların səsləri də kəsildi, təbiətə sükut çökdü, dağlarda sanki yas tutmuşdu. Bir anda bütün rayon camaatı, böyüklü-kiçikli, üç rəngli al bayraqlarla Silban kəndinə Serovların evinə tərəf axışdılar. Bütün onu sevənlər, şəhid balamız Mütəllibi son mənzilə yola salmağa gəlmişdilər. Mərziyə ana, Arif ata son zəngdən sonra hiss etmişdilər ki, oğulları Mütəllib cəbhənin ən qaynar nöqtəsindədir, daha onu görməyəcəklər.



"Son vaxtlar yuxuda görürdüm ki, gah əsgər formasında, gah bəy formasında, gah da ki, əllərində gül dəstəsi ilə həyət qapısını açaraq, gülə-gülə üstümüzə gəlir... Ana, ana, mən əsgərliyi başa vurmuşam, o, gözələ elçi get..." deyir - Mərziyə xanım. Son zəng, son döyüş və gerçəkləşməyəcək son yuxu...

Bəli, 10 oktyabr 2020 -ci il tarixdə Zaqatala diyarının böyüklü - kiçikli hörmətini - izzətini qazanan, avar xalqının mərd oğlu - sadə, halal çörəklə böyüyən 19 yaşlı - şəhid balamız Mütəllib Arif oğlu dünyaya göz açdığı Silban kənd qəbristanlığında torpağa tapşırıldı. Əbədiyyətə qovuşdu... El yolunda - Vətənin azadlığı naminə. Ruhuna dualar oxundu, yayılım atəş səsləri eşidildi.

...Bir anda şəhidin qara torpaqla örtülmüş qəbri al-qırmızı qızılgüllərlə bəzədildi, onu son mənzilə yola salanların göz yaşları isə - bu güllərə səpələndi...

...Şəhidin valideynləri, qardaşı, əzizləri sakitcə Mütəllibin qəbri önündə sükutla dayanaraq, qəbrini ziyarət edənləri minnətdarlıq baxışları ilə süzürdülər. Şəhid anası Mərziyə xanım sanki deyirdi ki, "doğurdanda Mütəllib təkcə bizim oğlumuz deyil, bütün elin oğlu və fəxridir".

Bəli, ana - Vətən yolunda şəhid olan, şücaət göstərərək həlak olan Mütəllib Arif oğlu Serov bütöv Azərbaycanımızın qüruru və fəxridir...

Hamı Sizin qarşınızda baş əyir, "Allah Sizi qorusun" - deyirlər. Şəhid balamızın isə Ruhun şad olsun! - deyir ki, sən az yaşadın, amma gələcək nəsillərə nümunə olacaq bir qəhrəmanlıq dastanı yaratdın - Mütəllib...

***Elman Maliyev***
***Azərbaycan Jurnalistlər Birliyinin üzvü***

# ""Nizami Gəncəvi İli"nin elan edilməsi Azərbaycan xalqının mədəniyyətinə sahibliyinin sübutudur"

***Xalqın ən böyük sərvətlərindən biri milli-mənəvi dəyərlərinin, mədəniyyətinin formalaşmasında rol oynayan dahi şəxsiyyətləri, tanınmış mütəfəkkirləridir. Çünki bir xalqın dünya sivilizasiyasında özünəməxsus yer tutmasında dahi şəxsiyyətləri xüsusi rol oynayır. Biz də o xoşbəxt xalqlardanıq ki, söz yaradıcılarımız bəşəriyyətə öz töhfəsini verib və bütün dünyada tanınır, sevilir. Belə əvəzolunmaz dahilərimizdən biri də heç şübhəsiz özünəqədərki bəşəri dəyərlərin zirvəsində dayanan Nizami Gəncəvidir. Dahi Şeyx Nizaminin həyatı və ədəbi-elmi irsi hər kəs üçün ən yaxşı nümunə, örnəkdir.***




Bu il anadan olmasının 880 illik yubileyi tamam olan məşhur mütəfəkkirimizin ölməz ədəbi irsi təkcə xalqımızın mənəviyyatının ayrılmaz hissəsinə çevrilməyib, eyni zamanda əsərlərindəki humanizm, insana məhəbbət, yüksək əxlaq, estetik zövq, dərin fəlsəfi fikir bütünlükdə insanlığa ünvanlanıb. Qüdrətli söz sənətkarının məşhur "Xəmsə"si bəşəriyyətin mənəvi sərvətlər axtarışının zirvəsində dayanaraq, dünya ədəbiyyatının şah əsərləri sırasında layiqli yer tutub. Bu baxımdan Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 05.01.2021-ci il tarixli Sərəncamı ilə ölkəmizdə "Nizami Gəncəvi İli"nin elan edilməsi mədəni və siyasi baxımdan böyük əhəmiyyət kəsb edir.

Bu Sərəncamı təkcə ölkəmizdə deyil, həmçinin ölkə hüdudlarından kənarda da qüdrətli söz və fikir ustadının fəlsəfəsini daşıyan insanlara verilən qiymətin təzahür forması kimi qiymətləndirmək olar. 2019-cu ilin "Nəsimi İli", 2021-ci ilin isə "Nizami Gəncəvi İli" elan edilməsi Azərbaycan xalqının mədəniyyətinə, milli kimliyinə və özünə qayıdışına sahibliyinin sübutudur.

Nizami fəlsəfəsi Şərqlə Qərbin bir-birinə "aşiq olduğu" bu coğrafiyanın hələ XII əsrdən intellektli insanların, mədəni müxtəlifliyin, tolerantlığın beşiyi olduğunu göstərir. Nəzərə alsaq ki, hələ bu dövrlərdə dünyanın bir çox yerində ilk ali təhsil müəssisələri yenicə yaranırdı, dini zəmində münaqişələr baş verirdi, Azərbaycanda isə xalqımız humanizm fəlsəfəsi ilə tərbiyələndirilirdi. Kamil insanın inkişaf dövrlərindən söz açılırdı. Elə məhz buna görə də belə şəxsiyyətlərin geniş təbliğinə böyük ehtiyac var. Mədəniyyətlərarası ziddiyyətlərin dərinləşdiyi, dini ayrı-seçkiliyin siyasi ritorikada aktuallaşdığı bir vaxtda sülhü, ədaləti, dialoqu, həmrəyliyi təbliğ edən mütəfəkkirlərin təbliği çox vacibdir. Bu baxımdan belə ənənələri formalaşdıran Nizami Gəncəvilərin dünyaya təbliği böyük əhəmiyyət kəsb edir.

Zəngin mədəniyyətin yetişdirdiyi belə şəxsiyyətlərin təbliği siyasi baxımdan da xüsusi məna daşıyır. Bu il xalqımız həm də şanlı ZƏFƏRİMİZİN 1 yaşını qeyd edəcək. 880 il sonra Azərbaycan xalqı ədaləti təbliğ edən xalqdan həm də ədaləti təmin edən xalq kimi özünü təsdiq etdi. Bu baxımdan 2021-ci ilin "Nizami Gəncəvi İli" elan edilməsinin xüsusi siyasi yükü var.

2012-ci ildə Prezident cənab İlham Əliyevin təşəbbüsü ilə yaradılan və dəstəyi ilə fəaliyyət göstərən Nizami Gəncəvi Beynəlxalq Mərkəzi tərəfindən 2021-ci ildə də dahi azərbaycanlı şair və mütəfəkkirin təbliği istiqamətində bir sıra fəaliyyətlərin həyata keçirilməsi nəzərdə tutulur.

Mərkəz bu günə kimi ölkəmizin beynəlxalq arenada müsbət imicinin gücləndirilməsi, eləcə də ölkə həqiqətlərinin obyektiv şəkildə dünyaya çatdırılması istiqamətində həyata keçirilən fəaliyyətlərə böyük töhfə vermişdir.

"Nizami Gəncəvi İli" çərçivəsində mərkəzin təşəbbüsü ilə bir sıra mötəbər nəşrlərin çapı nəzərdə tutulur. Bunlardan biri Şərq miniatür sənəti tarixinin öyrənilməsinə həsr edilmiş "Şair və Nəqqaş Qələminin Sehri. Nizami "Xəmsə"sindən seçilmiş miniatürlər" adlı elmi-kütləvi kitabın (Azərbaycan və İngilis dillərində) çap edilməsidir. Belə ki, həmin nəşr orta əsrlərdə mövcud olan bütün miniatür məktəblərini (Təbriz, Herat, Şiraz, Qəzvin, İsfahan və s.) əhatə edən, eləcə də Nizami Gəncəvinin "Xəmsə"sinə daxil olan poemalara müxtəlif dövrlərdə çəkilmiş miniatürlər əsasında hazırlanır. Sözügedən illustrasiyalar Asiya, Avropa, Şimali Amerikanın böyük muzey və kitabxanalarında saxlanılan rəsm nümunələri əsasında toplanıb. İlk dəfə olaraq Nizaminin əsərlərinə çəkilmiş və İstanbulun Topqapı Sarayı Kitabxanasında saxlanılan 69 ədəd "Xəmsə"nin rəsmi əlyazma nüsxələrindən 41 ədədi araşdırmaya cəlb olunub. Rusiya Milli Kitabxanasında saxlanılan "Xəmsə" əlyazmalarına çəkilmiş rəsmlər ayrıca bir fəsildə təqdim olunur və kitabı xeyli zənginləşdirir. Eyni zamanda Nizami Gəncəvinin həyat və yaradıcılığı məşhur Azərbaycan şərqşünası, filologiya elmləri doktoru, professor, əməkdar elm xadimi, Harvard Universitetinin fəxri doktoru Rüstəm Əliyevin "Əbədi məhəbbət haqqında poema" əsərindən seçmələrlə təqdim olunur. Həmçinin kitabda "Müasir Azərbaycan miniatürü" adlı fəsil göstərir ki, bu gün Azərbaycanın bir çox yaxşı fırça ustalarının marağını klassik miniatür sənəti cəlb etməkdədir və həmin sənət onların qarşısında yeni yaradıcılıq axtarışları üçün geniş meydan açır.

Bundan əlavə Nizami dövrünü ictimai-siyasi və mədəni münasibətlər müstəvisində araşdırmaq, Nizamini bu günün ədəbi-bədii təfəkkürü daxilində təhlil edib onu milli kimliyimizin təzahür forması kimi təqdim etmək məqsədilə "Nizami çağı" adlı elmi araşdırma kimi müxtəlif nəşrlərin beynəlxalq ictimaiyyətə təqdim edilməsi nəzərdə tutulur. Bütün bunlarla yanaşı Mərkəz tərəfindən yerli və əcnəbi nizamişünasların iştirakı ilə Nizami irsinin tədqiqi və təbliği məqsədilə beynəlxalq konfransların, onlayn müzakirələrin təşkili planlaşdırılır.

"Nizami Gəncəvi İli" çərçivəsində Mərkəz tərəfindən həyata keçirilən layihə və tədbirlər, ümumilikdə, Azərbaycanın və edibin dünyada geniş təbliği istiqamətində aparılan uğurlu fəaliyyətə töhfə olacaqdır.

***Elnur Əliyev,***
***Nizami Gəncəvi***
***Beynəlxalq Mərkəzinin***
***Himayəçilər Şurasının sədri***

# Anar Kərimov Jan Batist Lömuan ilə görüşüb



***Azərbaycan Respublikasının mədəniyyət naziri Anar Kərimov yanvarın 26-da Fransanın Avropa və Xarici İşlər Nazirliyinin dövlət katibi Jan Batist Lömuan ilə görüşüb.***

Nazirlikdən bildirilib ki, görüş zamanı Azərbaycan ilə Fransa arasında mədəniyyət sahəsində əməkdaşlıq, bu əlaqələrin perspektivi, həmçinin 2020-ci ilin Vətən müharibəsi və Azərbaycanın işğal edilmiş ərazilərinin azad olunmasından sonra yaranmış vəziyyət barədə fikir mübadiləsi aparılıb.

Anar Kərimov Fransa və Azərbaycan arasında mədəni əlaqələrin mövcud vəziyyəti, iki ölkə mədəniyyətinin qarşılıqlı təbliği ilə bağlı reallaşdırılan tədbirlər, o cümlədən ölkəmizin Fransada həyata keçirdiyi layihələr barədə məlumat verib.

Vətən müharibəsi və müzəffər Azərbaycan Ordusu tərəfindən işğaldan azad olunan ərazilərdə tarixi abidələrin və mədəni infrastrukturun vəziyyəti barədə söz açan nazir qeyd edib ki, Ermənistan 30 ilə yaxın işğal altında saxladığı ərazilərdə Azərbaycanın mədəni irsinə qarşı talan və "təmizləmə" həyata keçirib. Bu ərazilərdə mədəniyyətlə bağlı bütün infrastruktur, eləcə də qəbiristanlıqlar, məscidlər, xristian abidələri və digər məkanlar erməni işğalçı qüvvələri tərəfindən məqsədli şəkildə dağıdılıb.

Dövlət katibi Jan Batist Lömuan qəbula görə təşəkkürünü bildirərək hazırkı səfərin məqsədinin Azərbaycan tərəfi ilə fikir mübadiləsi aparmaq, qarşılıqlı əlaqələrin inkişafı üçün zəmin yaratmaq olduğunu deyib. Qonaq eyni zamanda Azərbaycanın işğaldan azad olunan ərazilərinə UNESCO missiyasının gəlməsi ilə bağlı məsələyə toxunub.

Anar Kərimov bu məsələyə dair hazırda danışıqların davam etdiyini bildirərək, müstəqil ekspertlərdən ibarət UNESCO missiyasının, təşkilatın 1954-cü il Haaqa Konvensiyasına və digər BMT sənədlərinə uyğun olaraq, ölkəmizin ərazi bütövlüyünə və suverenliyinə hörmət çərçivəsində, beynəlxalq hüquqda mədəni mülkiyyət hesab olunan bütün müəssisə və abidələri əhatə etməsi ilə bağlı Azərbaycan tərəfinin mövqeyini diqqətə çatdırıb. Həmçinin, missiyanın həyata keçirilməsi üçün təhlükəsizlik baxımından ərazinin ilk öncə minalardan təmizlənməsi və iqlim şəraitinin nəzərə alınmasının vacibliyini qeyd edib.

Nazir eyni zamanda Fransa cəmiyyətində, eləcə də UNESCO tərəfindən bu məsələ ilə bağlı daha çox xristian abidələrinə dair fikirlərin səsləndirilməsinin və həmin ərazilərdə dağıdılmış İslam irsi barədə hər hansı mövqeyin ifadə olunmamasının Azərbaycanda təəssüflə qarşılandığını vurğulayıb. Qeyd olunub ki, dini-etnik mənsubiyyətindən və xarakterindən asılı olmayaraq, işğaldan azad olunan ərazilərdəki və ümumilikdə ölkəmizdəki bütün inanc yerlərinin, abidələrin qorunması dövlət siyasəti səviyyəsində həyata keçirilir.

Qeyd olunub ki, müxtəlif xalqlar və mədəniyyətlər arasında dialoq və əməkdaşlığın inkişaf etdirilməsi məqsədilə Azərbaycan Respublikasının Prezidenti tərəfindən irəli sürülən "Bakı Prosesi", Bakıda ənənəvi olaraq keçirilən Dünya Mədəniyyətlərarası Dialoq Forumu, Dünya Dini Liderlərin Sammiti, habelə bir sıra ölkələrdə müxtəlif dini mədəni məkanların bərpa edilməsi ilə bağlı reallaşdırılan layihələr ölkəmizin bu sahədə siyasətinin açıq göstəricisidir.

Görüşdə qarşılıqlı maraq doğuran məsələlər müzakirə edilib.

# Tanınmış azərbaycanlı rejissor vəfat etdi

***Arif Həbibi vəfat edib. "Unikal" open.az-a istinadla xəbər verir ki, Azərbaycan kinosunda dublyaj rejissoru kimi tanınan, xarici filmləri ana dilimizə tərcümə edən və dublyaj sənətinin ustadlarından sayılan, Əməkdar Mədəniyyət işçisi Arif Həbibi vəfat edib.***

Bu barədə məlumatı mərhum rejissorun qızı İlhamə Həbibi sosial mediadan yayıb.

Arif Həbibi 1943-cü il iyunun 1-də İran Astarasında anadan olub.

1967-ci ildə indiki Mədəniyyət və İncəsənət Universitetinin rejissor fakültəsini bitirib və həmin ildən "Azərbaycanfilm" kinostudiyasında işə başlayıb.

Arif Həbibi Dublyaj üzrə ali dərəcəli kinorejissor olub. Xarici ölkələrdə istehsal olunan bədii, sənədli və cizgi filmlərini ana dilinə dublyaj, tərcümə və "ukladka" edib.

Uzun illər Mədəniyyət və İncəsənət Universitetində dublyaj sənətindən dərs deyib.

Allah rəhmət eləsin!



## Bu resept 7 günə sizi ayaq və boyun ağrılarından xilas edəcək

***Reseptin faydası öz təsdiqini həmişə tapıb. Həkimlər bu reseptdən istifadə edərək oynaq ağrıları və digər oynaq problemlərinin aradan qalxdığını söyləyirlər.***

Bu reseptdən istifadə edərək mən də onun faydasını gördüm. Əgər sizin də, kürəyinizdə, boyun və ayaq hissənizdə problemlər varsa, o zaman reseptdən istifadə edərək onu aradan qaldıra bilərsiniz. Bu müalicə orqanizmə öz möcüzəli təsirini qısa bir zamanda göstərir:

- Mağazadan 150 qram istənilən qida jelatini ( bu bir kurs müalicə üçün yetərlidir) alın.
- Hər axşam 5 qram jelatini( 2 çay qaşığı) 1/4 stəkan soyuducuda soyudulmuş suya əlavə edin. Məhlulu otaq temperaturunda saxlayın.
- Gecə boyu jelatin suda əriyib həll olacaq və jeleyə çevriləcək.
- Səhər acqarına məhlulu için. Əgər onun dadı xoşunuza gəlmədisə, üzərinə az miqdarda şirə, bal, yoqurt və ya smetan əlavə edə bilərsiniz.
- Bu proseduru davamlı olaraq 7 gün təkrar edin.

Bu resepti həyata keçirənlər onun həqiqətən də kürək, boyun, onurğa və ayaqlarda olan ağrıları aradan qaldırdığını təsdiqləyirlər. Müalicə ağrıların bir həftə ərzində aradan qalxmasına səbəb olub. Müalicənin tam faydasını əldə etmək üçün onu 6 aydan sonra təkrarlamaq lazımdır. Müalicə oynaqlararası mayenin bərpa olunmasına səbəb olur. Düzdür, bir çox adamlar bu müalicənin faydasına inanmır və ağrıkəsicilərdən istifadə edir. Amma bu adi müalicəni etmək ağrıkəsici qəbulunun azalmasına və ya kəsilməsinə səbəb olur. Bəs jelatinin oynaqlar üçün faydası nədən ibarətdir?

Jelatin heyvani məhsul olub, iri öküzün sümüklərindən əldə olunur. Onun işlənməsi zamanı sümüklər qurudulduqda tərkibindəki birləşdirici toxuma rolunu oynayan kollagenlər olduğu kimi qalır. Kollagenlər isə öz növbəsində daxili bağların, vətərlərin və oynaqların sağlamlığı üçün çox vacibdir. Bundan əlavə jelatinin tərkibində iki vacib aminturşusu var: prolin və hidrosiprolin. Bu iki aminturşu orqanizmdə olan birləşdirici toxumaları effektiv bərpa edir. Jelatinin tərkibindəkilər zədələnmiş oynaqlarda olan birləşdirici toxumaların boyunu və həcmini artırır. Bu onun ən yaxşı xüsusiyyətlərindən biri sayılır. Jelatinin aşağıdakı faydalı xüsusiyyətləri də vardır:

- oynaqları və ürək əzələsini möhkəmləndirir
- maddələr mübadiləsini yaxşılaşdırır
- əqli gücü artırır
- dərini sağlamlaşdırır
- bağları möhkəmləndirir və elastikləşdirir
- osteoporoz və osteoartritin inkişafını ləngidir
- saçları və dırnaqları möhkəmləndirir
- displaziyanın qarşısını alır.

Yuxarıda sadalanan faydalarına görə jelatin qəbul ertmək ilk 7 gün ərzində orqanizmə öz faydasını göstərir. Mən kompyuterdə işləyirəm və bütün günüm kompyuter stolu arxasında keçir. Bu səbəbdən də ayaqlarımda ağrılar və əl barmaqlarında xırçıltılar əmələ gəlməyə başlamışdı. Jelatin müalicəsini qəbul etdikdən isə bir aydan sonra əlamətlər aradan qalxdı və mən özümü tamamilə sağlam hiss edirəm.

# Ayurvedin yuxu haqqında 20 müdrik məsləhəti

***Ayurvedin(Hind xalq təbabət sistemi) yuxu haqqında 20 müdrik məsləhətini təqdim edirik.***



1. Yatmazdan əvvəl dabanlarınızı soyuq su ilə yuyun və təbii sakitləşdirici yağla silin. Əgər insan hər gün dabanlarını küngüt yağı ilə massaj edərsə, onun immun sistemi artar və dabanları heç zaman ağramaz.

2. Yatmazdan əvvəl bir neçə dəqiqə nəfəsalma hərəkətləri etmək və ya meditasiya ilə məşğul olmaq lazımdır.

3. Yatan zaman nə qədər az paltar geyinilərsə, bir o qədər yaxşı olar. Əsasən də yatanda corab geyinmək məsləhət görülmür.

4. Yatan zaman başı şərq istiqamətində qoymaq məsləhət görülür.

5. Heç vaxt yataq otağında yemək yeməyin və mətbəxtdə yatmayın.

6. Yatan zaman üzünüzü tamamilə ötrməyin. Bu adət nəfəsalmanı çətinləşdirir.

7. Yay aylarında açıq havada yatmaq çox faydalıdır. Yox əgər küçə tozludursa, yağış yağırsa və ya havada nəmlik çoxdursa o zaman qapalı məkanda yatmaq lazımdır.

8. Nəm olan yerdə yatmaq çox zərərlidir. Yataq otağı nəmli olmamalı və yataq rahat olmalıdır.

9. Ayurved yan üstə yatmağı məsləhət görür. Sol tərəfi üstündə yatmaq həzmi rahatlaşdırır və insana enerji verir, sağ tərəfi üstündə yatmaq isə orqanizmin istirahətini təmin edir. İnsan sol tərəfi üstündə yatanda onun sağ burun dəliyi nəfəsalmada daha yaxşı iştirak edir, bu da orqanizmə pozitiv enerji verir. Sol tərəfi üstündə yatmaq isə orqanizmin təbii yolla isinməsinə səbəb olur.

10. Ayurved kürəyi üstündə yatmağı məsləhət bilmir. Onun sözlərinə görə bu beyin və ürək üçün çox zərərlidir. Bunun səbəbi isə arxası üstə yatarkən hər iki burun dəliyinin yaxşı işləyərək orqanizmin temperatur balansını pozmasıdır.

11. Ən pis yatış forması qarnı üstə yatmaqdır. Bu cür yatış tərzi nəfəsalmanı tamamilə korlayır. Günəş şüaları altında yatmaq zərərli, ay işığı altında yatmaq isə faydalı hesab edilir.

12. Yatağa uzanmayaraq yuxlamaq orqanizm üçün çox zərərli hesab olunur. Bu zaman insan öz orqanizminə zərər vurmuş olur. Bu zaman orqanizmin həzm prosesi ləngiyir və orqanizm halsızlaşır.

13. Erkən yuxudan oyanmaq və tez yatmaq lazımdır. Düzgün rejimlə yatmaq yuxunun dərinləşməsinə və orqanizmin sağlamlaşmasına səbəb olur. Rejimlə yatıb qalxmaq orqanizmin həyat gücünü artırır.

14. Günbatan vaxtı yatmaq orqanizm üçün çox zərərlidir. Bu həzm prosesini çətinləşdirərək xoşagəlməz hadisələrin baş verməsinə səbəb olur. Günəşin ilk şüaları çıxan zaman yuxudan oyanmaq orqanizmin gücünü artırır, uzun müddət yatmaq isə insana mənfi enerji vürir. Ayurvedə görə gün batan zaman yuxlamaq insana bədbəxtlik gətirir.

15. Gündüz yuxusu tənəffüs orqanları üçün çox zərərlidir, bu yuxu başda ağırlıq hissinin əmələ gəlməsinə və digər narahatçılıqlara səbəb olur. Fiziki işlə məşğul olanlara və xəstələrə gündüz yatmaq məsləhətdir. Mədə və bağırsaq xəstəliklərindən əziyyət çəkənlərə də qısamüddətli gündüz yuxusu faydalı hesab olunur. İsti klimat bölgələrdə yaşayanların da günorta vaxtı istirahət etmələrinə də icazə verilir. Bu zaman insanlar sərin yerdə yatmalıdırlar. Qədim zamanlarda yoqa ilə məşğul olanlara gündüz yatmağa qadağa qoyulub və yalnız xəstələrə günorta yatmağa icazə verilib.

16. Mədə dolu olduğu halda yatmaq rahat yuxunun qarşısını alır. Bunun səbəbi isə qidanın həzm oluna bilməməsidir. Həzm getmədikdə isə orqanizmdə çoxlu toksinlər meydana gəlir.

17. Havası təmiz olan otaqda yatmaq məsləhət görülür. Havasız və ya pis havası olan otaqda yatmaq orqanizm üçün çox zərərlidir.

18. Ayurvedə görə gecə yatmayan insan həmin yuxunun yarısını səhər qidası almadan bərpa etməlidir.

19. Yuxusuzluqdan əziyyət çəkənlərə yatmazdan əvvəl zəfəran və hind qozu əlavə edilmiş isti süd içmək, bədəni yağla massaj etmək, isti vanna qəbul etmək məsləhət görülür. Sakitlikdə oturub keçmiş xoş xatirələri yada salmaq da orqanizmə yuxugətirici təsir bağışlayır.

20. Hamilə qadınlara mürgüləmək məsləhət görülmür. Bu doğulacaq uşağın tənbəl olmasına səbəb olur.

# Dil-udlaq sinirinin nevralgiyası

***Dil-udlaq sinirinin nevralgiyasına üçlü sinirin nevralgiyasından 100 dəfə çox rast gəlinir. Xəstəliyə ən çox 40 yaşdan yuxarı adamlarda rast gəlinir. Xəstəliyin 2 forması var:***

- idiopatik
- simptomatik



Xəstəliyin etiolojiyasında vidacı dəliyin şişləri və osteofit,sinir kökünün çapığı,yuxu anevrizması,qırtlağın xərçəngi,körpü-beyincik bucağının şişi,yoluxucu xəstəliklər,intoksikasiyaların rolu böyükdür.

Xəstəlik özünü dilin kökündə,badamcıqlar və damaq qövsündə lokalizə olunan kəskin,dartıcı,yandırıcı,burucu ağrıların bir neçə saniyə davam etməsi ilə bildirir.Ağrılar tez-tez qulaq daxilinə,boğaza və alt çənənin arxa bucağına irradiasiya edir.Ağrı paroksizmaları bradikardiya və arterial təzyiqin enməsi fonunda huşdangetmə halı ilə müşayiət olunur.Bu dilin udlaq sinirinin tərkibində yuxu sinusundan damar-hərəki mərkəzə impuls daşıyan sinirin olması ilə əlaqədardır.Ağrının baş verdiyi yer dilin kökü,badamcıqlar və damaq qövsü olur.Ağrı zamanı xəstələr ünsiyyətdən qaçır,qidanı və suyu ağzının bir tərəfi üstə udmağa çalışır və duru yemləklər qəbul etməyə çalışırlar.Ağrılar isti və soyuq qida qəbul edən zamanı,öskürək,gülüş zamanı başlayır.

Diaqnoz zamanı dil-udlaq sinirinin nevralgiyasını üçlü sinirin nevralgiyasından fərqləndirmək lazım gəlir.Xəstəliyin proqnozu xoşxassəlidir.

Müalicə ağrı tutmalrının kəsilməsindən ibarətdir. Bu zaman dilin kökünə 20%-li kokain məhlulu sürtülür.Bu,ağrıları 6-7 saat müddətində dayandıraraq xəstəni sakitləşdirir.Kəskin və davamlı ağrılar zamanı dilin kökünə 1-2%-li novakain məhlulu yeridilir,novakainlə blokada aparılır.

Müalicə zamanı fizioterapevtik müalicə üsullarından istifadə edilir,xəstəyə B12,ATF,FİBS,jenşen və s.təyin edilir.

Müalicə təsir etmədikdə kəllə çuxuru səviyyəsində radikotomiya,traktotomiya və mezensefal xordotomiya tətbiq olunur.

# Yığmamızın futzalçısı: "Bu tək onların başına gəlməyib" - MÜSAHİBƏ




***Azərbaycan millisinin futzalçısı Kardoso Everton Futzal Federasiyasının rəsmi saytına müsahibə verib.***

"Unikal" xəbər verir ki, Qalo kimi tanınan müdafiəçi yığmamızın Avropa çempionatının seçmə mərhələsinə hazırlığını dəyərləndirib, çıxış etdiyi "Levante" klubundakı durumundan danışıb.

***- İspaniya çempionatında vəziyyət necədir? Mövcud pandemiya dünyanın ən maraqlı liqalarından birinə necə təsir edib?***

- Təbii ki, COVİD-19-la bağlı orda da problemlər oldu. Dünyanı ağuşuna alan bu pandemiya nəticəsində bir müddət çempionat dayandırıldı, idman zalları bağlandı. Həmin vaxtlarda videoməşqlər edirdik. Baş məşqçi konkret saat təyin etmişdi, biz də həmin vaxtda kompüter vasitəsilə məşqə qoşulur, verilən tapşırıqları evdə edirdik. Əlbəttə, çətin idi. Ondan sonra zallar açıldı və uyğunlaşmaq asan olmadı. Hazırda gün ərzində bir dəfə zalda məşq etməyə icazə verilir. Çempionat isə davam edir. Hər oyundan əvvəl COVİD-19-la bağlı test götürülür. Maskadan istifadə edirik. Qarşılaşmalar azarkeşlər üçün qapalıdır. Digər şəhərlərə uçuşlarla bağlı problem yoxdur.

***- "Levante" ikinci pillədə yer alıb. Pandemiya komandanızın işinə yarayıb, demək olarmı?***

- Yaxşı hazırlaşmışıq və komanda tarixinin ən yaxşı nəticələrini qazanır. Ardıcıl 7 qələbə qazanmışıq və turnir cədvəlində ikinci pillədə qərarlaşmışıq. Fikrimcə, İspaniya çempionatı dünyanın ən güclü yarışıdır. Biz də güclü komanda olduğumuzu nəticələrimizlə sübut edirik.

***- Bəs bu pillədə sona qədər qərar tuta biləcəksinizmi?***

- Demək olar, bütün oyunlarda meydana çıxıram. Yaxşı şansımız, əla kollektivimiz var. Qeyd etdiyim kimi, hazırlığımız da yüksək səviyyədə oldu. İstəyimiz yarımfinala və finala vəsiqə qazanmaqdır. Allahın köməkliyi ilə bu imkanı əldən verməyəcəyik.

***- Artıq 3 gündür Bakıdasız və bu dəfə Joze Alesionun rəhbərliyi altında hazırlıq keçirsiz. Millinin Slovakiya ilə oyuna hazırlığı haqda nə deyə bilərsiz?***

- Məncə, hazırıq. Başa düşürəm, Alesionun istədiklərini tam reallaşdırmaq üçün etdiyimiz məşqlərin sayı azdır. Ancaq baş məşqçini yaxşı tanıyırıq, əvvəlki illərdə də onun rəhbərliyi altında məşqlərdə olmuşuq, oyunlarda iştirak etmişik. Bacardığımızın ən yaxşısını etməyə çalışacağıq ki, nəticə də istədiyimiz kimi olsun.

***- Siz, Rafael Vilela İspaniya çempionatında mütəmadi oynayırsınız. Amma "Araz"ın üzvləri AEK-lə görüş istisna olmaqla, son 11 ayda oyun keçirməyib. Bu hiss olunurmu?***

- Futzalçı üçün oyun keçirmək mütləq şərtdir. Bir rəsmi qarşılaşma 5-6 məşqdən üstündür. Əlbəttə, oyun keçirməmələri yaxşı hal deyil. Bu tək onların başına gəlməyib, mövcud vəziyyətlə əlaqəlidir. Ancaq hər bir oyunçunun komandaya kömək edəcəyinə əminəm.

***- Son 3 ildə Slovakiyaya qarşı 2 oyunda iştirak etmisiz və son dueldə heç-heçə qeydə alınıb. Onları Bakı İdman Sarayında növbəti dəfə məğlub etmək mümkün olacaqmı?***

- Yaxşı rəqibdir, hətta onların yoldaşlıq oyunu keçirmək imkanı oldu. Amma doğma meydanda oynayırıqsa, kimliyindən asılı olmayaraq qələbə qazanmalıyıq. Başqa nəticə bizi qane etməyəcək. Həm də yaxşı nəticə ilə start verməliyik ki, ardı da uğurlu olsun.

***- Millinin yer aldığı qrupla bağlı düşüncələriniz necədir?***

- Bizim bir məqsədimiz var: yarışı birinci pillədə başa vurmaq. Rəqiblərimizə hörmət edirik, amma qarşıya qoyulan hədəfi də reallaşdırmalıyıq.



# Azərbaycanla oyunöncəsi şok yaşaya bilər - Portuqaliya millisi

***İngiltərənin Daxili İşlər Nazirliyi koronavirusla bağlı "qırmızı zona"ya daha bir neçə ölkənin adını əlavə edib.***

Apasport.az saytının məlumatına görə, onlar arasında Avropadan Portuqaliya, Cənubi Amerikadan isə Argentina, Uruqvay, Braziliya, Kolumbiya və Paraqvay kimi ölkələr də var.

Bu isə Premyer Liqa klublarını və qarşıdan gələn DÇ-2022-nin seçmə mərhələsi öncəsi yığma komandaları narahat edir. Çünki adıçəkilən Cənubi Amerika ölkələrindən 38, Portuqaliyadan isə 18 futbolçu hazırda Premyer Liqa təmsilçilərinin formasını geyinir. Qərarda hər hansı bir dəyişiklik olmasa, milli üçün ölkəsinə yollanacaq oyunçular İngiltərəyə qayıtdıqları zaman otellərdə 10 günlük karantinə alınacaq.

Vəziyyətdən narahatlıq keçirən qurumlardan biri də Portuqaliya Futbol Federasiyasıdır. Çünki Portuqaliya yığması martın 24-də DÇ-2022-nin seçmə mərhələsində Azərbaycan millisini qəbul edəcək. Karyerasını İngiltərədə davam etdirən 18 portuqaliyalıdan isə 10-u yığmanın ötən ilin noyabrındakı son matçlarına dəvət alıb.

Həmin ərəfədə dəvətlər zamanı son qərarları klublar və futbolçular verəcəklər. Risk qrupuna daxil olan ölkələrə çağırılan oyunçular klub karyerasını zərbə altına atmamaq üçün yığmadan imtina edə bilərlər.

2018-ci ildən bəri Portuqaliya millisinə çağırılan Premyer Liqada oynayan futbolçular bunlardır: Sedrik Soareş ("Sauthempton"), Elder Kosta ("Lids"), Joao Kanselo, Ruben Dias, Bernardo Silva ("Mançester Siti"), Bruno Fernandeş ("Mançester Yunayted"), Andre Qomes ("Everton"), Dioqo Yota ("Liverpul"), Joao Moutinho, Pedro Neto, Ruben Neves, Rui Patrisio, Daniel Podense, Nelson Semedo ("Vulverhempton"), Rikardo Pereyra ("Lester").

Qeyd edək ki, martın 24-də Lissabonda millimizi sınağa çəkəcək Portuqaliya yığması üç gün sonra Belqradda Serbiyanın qonağı olacaq.

# Super Liqa matçlarına azarkeşlər buraxılacaq - TFF cavab gözləyir

***Türkiyədə oyunların azarkeşlərin iştirakı ilə keçirilməsi bərpa edilə bilər.***




Türkiyə Futbol Federasiyası (TFF) Super Liqa və aşağı liqaların matçlarında tamaşaçıları tribunalara buraxılmasını təmin etməyi planlaşdırır.

TFF-nin bu təklifi qəbul olunarsa, martın 13-dən etibarən qarşılaşmalar zamanı stadionların tutumunun 30 faizinə azarkeş buraxılacaq. Bu isə Super Liqanın martın 12-15-də baş tutacaq XXV tur görüşlərinə təsadüf edəcək.

Qeyd edək ki, Türkiyə Super Liqasında ikinci dövrəyə fevralın 29-da start veriləcək.

# "Oyunların baş tutub-tutmaması deyil, necə keçiriləcəyi üzərində işləyirik" - Tomas Bax

***"İndi heç kim Oyunlar zamanı sağlamlıqla bağlı vəziyyətin necə olacağını deyə bilməz. Hətta ən öncül alimlər də bunu bacarmır".***

Bunu Beynəlxalq Olimpiya Komitəsinin prezidenti Tomas Bax deyib. Almaniyalı Yaponiyanın paytaxtı Tokioda keçirilməsi planlaşdırılan Olimpiya və Paralimpiya Oyunları barədə fikirlərini açıqlayıb. Bax koronavirus pandemiyası ilə bağlı müxtəlif şayiələrin yayılmasına münasibət bildirib: "Bu da bir çox spekulyasiyalara yol açır. Belə məlumatlar da idmançıların hazırlığına ziyan vurur. Yarışların ləğvi barədə



şayiələr də var. Kimlərsə Oyunların sonraya təxirə salınmasını təklif edir. Digər təklif yarışların Tokiodan başqa şəhərə keçirilməsidir. Bunun belə qısa müddətdə gerçəkləşdirmək mümkünsüzdür. Vaxtımızı və gücümüzü belə spekulyasiyalara itirmək istəmirik. Biz açılış mərasimi keçirməyə konsentrasiya olmuşuq. Oyunların baş tutub-tutmaması deyil, necə keçiriləcəyi üzərində işləyirik. İstənilən ssenaridə koronavirus pandemiyasına qarşı tədbirlər olmalıdır. İndi Oyunlar zamanı olacaq tədbirlərdən danışmaq tezdir. Səbirli və anlayışlı olmağı xahiş edirik: yaponlardan, idmançılar və digərlərindən. Səbirli olmaq lazımdır. Yaxınlarda özünü və başqalarını qorumaq üçün qaydalar tərtib edəcəyik".

Qeyd edək ki, Oyunların açılış mərasimi iyulun 23-də keçirilməlidir.

Səhifəni hazırladı: Aygün İlqarqızı